**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Jurnal 1970-ci ildən nəşr olunur.**

**2018, № 4 (225)**

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

**(elmi-metodik jurnal)**

**4**

**2018**

## REDAKSİYA HEYƏTİ

**Baş redaktor: prof.Y.Ş.Kərimov**

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri;* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin Məktəbəqədər təhsil sektorunun müdiri;* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil İnstitutu Elmi-Pedaqoji Mərkəzinin direktoru;* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi məsləhətçisi, pedaqoji elmlər doktoru, professor;* |
| **Ramiz Əliyev** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor ;* |
| **Asəf Zamanov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor ;* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Slavyan Universitetinin rektoru, filologiya elmləri doktoru, professor ;* |
| **Vaqif Əmiraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru;* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru ;* |
| **Laləzər Cəfərova** | *Azərbaycan Respublikası Təhsil İnstitutu məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru;* |
| **Azadxan Adıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, pedaqoji elmlər doktoru;* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, biologiya üzrə fəlsəfə doktoru;* |
| **Zemfira Əsədova** | *Bakı şəhəri, Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri;* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini;* |
| **Zemfira Ağayeva** | *Bakı şəhəri, Nərimanov rayonu, 69 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi;* |
| **Bibixanım İbadova** (məsul katib) | *Azərbaycan Respublikası Təhsil İnstitutunun İbtidai təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru.* |



Yığılmağa verilmiş: 2018-ci il, yanvar ayının 24-də.
Çapa imzalanmış: 2018-ci il, mart ayının -da.
Kağız formatı 60x84 1/8. Şərti çap vərəqi 6,5.
Şifariş № 16. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 96.
Tel. mob. (051) 623-01-15.

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov küçəsi, 113.

## MÜNDƏRİCAT

### *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*

**1. Quliyev Ə.** Qazax Müəllimlər Seminariyasının yaranması tarixindən..........................................4
**2. Rəhimova S.** Azərbaycan Demokratik Cümhuriyyətinin 100 illiyi................................................10
**3. Əliyev R.** Akademik M.Mehdizadə –115. Pedaqoji irsimizdən: ənənə və müasirlik..................13
**4. Плотникова Е.Г., Логинова В.В.** Самостоятельная работа в малых группах при обучении математике в вузе……………………………………………………………………17
**5. Həmidova X.** Nəticəyönümlü təhsildə valideynlərin iştirakı........................................................21
**6. Məmmədova S.** Məktəbdə təhsilin keyfiyyəti mühüm şərtdir. .......................................................28

### *MƏKTƏBƏQƏDƏR TƏHSİL*

**7. Sadıqova T., Cəmilzadə S.** Uşağın məktəbə hazırlığında fiziki məşğələlərin əhəmiyyəti...............31
**8. Əhmədova N.** Kiçikyaşlıların əqli fəaliyyətinin formalaşmasımda ətraf aləmlə tanışlığın rolu.......34
**9. Nuriyeva İ.** Məktəbəqədər müəssisələrdə metodik işin təşkili xüsusiyyətləri..............................37
**10. Babayeva A.** Məktəbəqədər təhsil müəssisəsinə rəhbərlik...........................................................40

### *FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ*

**11. Abdullayev A.** Azərbaycan dilinin tədrisində obrazlar üzrə işin əsərin məzmununun mənimsənilməsinə təsiri..........................................................................................43
**12. Rzayev M., Abıyeva G.** İbtidai siniflərdə qeyri-standart və əyləncəli məsələlərin həlli................48
**13. Kərimova A.** Oyun prosesində şagirdlərdə hesablama vərdişlərinin formalaşdırılması.................51

### *PSİXOLOGİYA VƏ DEFEKTOLOGİYA*

**14. Sadıqova S.** Şəxsiyyətin formalaşmasında şifahi xalq ədəbiyyatının rolu...................................57
**15. Kərimova G.** İbtidai təhsildə məktəb psixoloqu və valideynlərin əlbir işi...................................61

### *TƏRBİYƏ PROBLEMLƏRİ*

**16. İlyasov M.** Estetik tərbiyənin təlim prosesinə təsiri....................................................................65
**17. Əliyeva M.** Tərbiyədə əsas şərt övlad – valideyn münasibətləridir. .......................................68

### *YENİ NƏŞRLƏR*

**18. Hüseynzadə R.** Məktəbəqədər təhsilə dəyərli töhfə....................................................................72

# QAZAX MÜƏLLİMLƏR SEMİNARİYASININ YARANMASI TARİXİNDƏN

**Əsgər Quliyev,**
AR Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin müdir müavini,
filologiya üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim



**açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, 2018-ci il – “Azərbaycan Xalq Cümhuriyyəti ili”, Azərbaycanın təhsil tarixi, Qazax Müəllimlər Seminariyası, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi, Firudin bəy Köçərli;

**ключевые слова:** Азербайджанская Демократическая Республика, 2018 год – Год Азербайджанской Демократической Республики, история образования Азербайджана, Газахская Семинария Учителей, Закавказская (Горийская) Семинария Учителей, Азербайджанское отделение Горийской Семинарии Учителей, Фируин бек Кочарли;

**key words:** Azerbaijan Democratic Republic, 2018 – Year of Azerbaijan Democratic Republic, history of education of Azerbaijan, Gazakh Teachers Seminary, Transcaucasian (Gori) Teachers Seminary, Azerbaijan branch of Gori Seminary of Teachers, Firudin bek Kocharli.

Bu il türk–islam dünyasında ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi geniş qeyd edilir. Bu tarixi hadisənin müstəsna əhəmiyyəti nəzərə alınaraq, prezident cənab İlham Əliyev tərəfindən 2018-ci il “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilmişdir.

Əlamətdar haldır ki, bu il Xalq Cümhuriyyətinin yadigarı olan Qazax Müəllimlər Seminariyasının yaranmasının da 100 ili tamam olur. Bu tədbirin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev tərəfindən “Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd olunması haqqında” 03.11.2018-ci il tarixli Sərəncam imzalanmış, onun həyata keçirilməsi ilə bağlı dövlət qurumlarına müvafiq tapşırıqlar verilmişdir. Sərəncamda deyildiyi kimi, Qazax Müəllimlər Seminariyası tədrisin ana dilində aparıldığı təhsil ocağı kimi ölkəmizdə maarif, elm və mədəniyyətin inkişafına misilsiz töhfələr vermişdir.

Bu sərəncamın Azərbaycanın məktəb, pedaqoji fikir tarixinin öyrənilməsində, maarifimizin, mədəniyyətimizin tərəqqisi yolunda xidmətlərinin müstəqil milli dövlətçilik düşüncəsi kontekstində zəngin irsinin dəyərləndirilməsində müstəsna rolu vardır.

XX əsrdə Azərbaycan maarif, elm və mədəniyyət tarixinin inkişafı yolunda misilsiz xidmətlər göstərmiş, peşəkar milli müəllim kadrlarının hazırlanmasında şərəfli izlər qoymuş Qazax Müəllimlər Seminariyası Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təsis etdiyi ilk milli təhsil ocağı kimi, XIX əsrin sonu – XX əsrin əvvəllərində ölkəmizə görkəmli şəxsiyyətlər bəxş etmiş Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin varisi kimi yaddaşımıza daxil olmuşdur.

Azərbaycanın təhsil tarixinə şanlı səhifələr yazmış Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin layiqli varisi Qazax Müəllimlər Seminariyasının keçdiyi şərəfli yolun öyrənilməsi, milli ənənələri yeni məzmunda yaşatmaq, sistemli islahatlar prosesinə kömək baxımından çox lazımlıdır.

Ölkəmizin XXI əsr milli təhsil quruculuğu strategiyasının əsas istiqamətlərini müəyyənləşdirən “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” yeni əsrdə təhsil islahatlarının uğurla həyata keçirilməsində ümumbəşəri dəyərlərlə yanaşı, milli təhsil tariximizdə qazanılmış mütərəqqi ənənələrdən də istifadə olunması böyük əhəmiyyət kəsb edir. Belə

milli-mənəvi dəyərlərdən biri də hazırda 100 illik yubileyi qeyd edilən Qazax Müəllimlər Seminariyasının tarixi rolunun müəyyənləşdirilməsi hesab olunur. Azərbaycan xalqının bir müdrik kəlamında deyildiyi kimi: “Keçmişinə xor baxan, gələcəyinə kor baxar”. Biz bu fikirdəyik ki, Azərbaycanın milli təhsili uğrunda apardığımız mübarizənin məqsədi onun keçdiyi tarixi yolun düzgün qiymətləndirilməsindən ibarətdir.

Ümummilli lider Heydər Əliyevin Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyinə həsr olunmuş tədbir iştirakçılarına göndərdiyi müraciətdə deyilirdi: “Zəngin mədəniyyət və təhsil ənənələrinə malik olan Azərbaycan müsəlman Şərqində dünyəvi təhsilin gerçəkləşdiyi ilk ölkələrdən biri olmuşdur. XIX əsrin ortalarından başlayaraq Azərbaycanda gedən siyasi və sosial-iqtisadi proseslər onun mədəni həyatına da güclü təsir göstərmiş, böyük vüsət alan maarifçilik hərəkatı yeni tipli təhsil ocağının yaranmasına təkan vermişdir. Öz xalqının gələcəyini elmdə, təhsildə görən görkəmli ziyalılar müasir tələblərə cavab verən müəllim kadrlarının hazırlanması üçün var qüvvələrini sərf edirdilər. Onların səyləri 80 il bundan əvvəl Qazax Müəllimlər Seminariyasının yaranması ilə nəticələnmişdir. Vaxtilə bütün Yaxın Şərqdə şöhrət tapan seminariyanın yaradılması Azərbaycan maarifçilərinin fədakarlıq və vətənpərvərliyinin canlı nümunəsi, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsində yeritdiyi düzgün və məqsədyönlü siyasətin parlaq təzahürüdür. Qazax Müəllimlər Seminariyasının xalqımızın mədəni həyatında oynadığı rol danılmazdır. Onun təməli üzərində neçə-neçə təhsil ocaqları yaranmış və inkişaf etmişdir. Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir...” (“Azərbaycan” qəzeti, 28.12.1999 cu il).

1979-cu ildə Qazax Müəllimlər Seminariyasının sələfi Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin yaradılmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilmiş, araşdırmaların ardıcıl davam etdirilməsi qərara alınmışdı. Nə xoşbəxtik ki, yeni əsrin əvvəllərində müstəqil Azərbaycan Respublikasında müasir təhsil quruculuğu strategiyasının ideoloqu və himayəçisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Qazax Müəllimlər Seminariyasının 100 illiyinin dövlət səviyyəsində qeyd olunmasına hazırlıq başlanmışdır.

Zəngin tarixi olan milli maarifimizin, müasir təhsilimizin inkişafında XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda, eləcə də Zaqafqaziyada geniş vüsət alan maarifçilik hərəkatı ənənəvi müsəlman tədris-tərbiyə müəssisələri – mədrəsələrlə yanaşı, müasir, Avropa tipli dünyəvi məktəblərin də yaranmasının əsasını qoydu. Bu tarixi prosesin gerçəkləşməsində 1876-cı ildən Gürcüstanın Qori şəhərində fəaliyyətə başlamış Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası və 1879-cu ilin sentyabrında onun nəzdində açılmış Azərbaycan şöbəsinin milli təhsilimizin inkişafında böyük rolu olmuşdur.

Qori Seminariyası öz məzunları tərəfindən “anamız seminariya” (Ü.Hacıbəyov), onun məzunu, sonralar müəllimi, inspektoru, nəhayət, həmin şöbənin əsasında formalaşmış Qazax Müəllimlər Seminariyasının yaradıcısı, ilk direktoru olmuş Firudin bəy Köçərli tərəfindən isə “maarif və mədəniyyət çeşməsi” adlandırılmışdır.

Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin ilk inspektoru vəzifəsinə Azərbaycan maarifinin böyük təəssübkeşi, əslən şamaxılı olan Aleksey Osipoviç Çernyayevski təyin edilmiş, Azərbaycan dili və şəriət müəllimliyinə böyük ziyalılar qazaxlı Mirzə Hüseyn Əfəndi Qayıbzadə və salyanlı Şeyxülislam Əbdüssəlam Axundzadə qəbul edilmişdilər. Onlar – bu görkəmli islam alimləri seminariyanın Azərbaycan şöbəsində işlədikləri illərdə ilk seminaristlərdən sayılan Səfərəli bəy Vəlibəyov, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Teymur bəy Bayraməlibəyov və başqalarının mənəvi ataları olmuş, onlara əsl himayədarlıq etmişlər. Sonralar Mirzə Hüseyn Əfəndi Qayıbzadə təhsil tarixinə “Müfti məktəbi” adı ilə daxil olmuş bir məktəb təsis etmişdi.

Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi 5 il sınaq müddətinə açılmışdı. Əgər azərbaycanlılar öz övladlarını məktəbə könüllü göndərərdilərsə, şöbə ayrılıb, Azərbaycanın hansısa bir şəhərinə köçürülməli idi. F.Köçərlinin 1909-cu ildə “Tərəqqi” qəzetində çap etdirdi-

yi “Zaqafqaziya seminariyası” adlı məqaləsindən öyrənirik ki, 1884-cü ildə şöbənin Azərbaycan şəhərinə köçürülməsi məsələsinə şöbənin inspektoru Aleksey Osipoviç Çernyayevski, Mirzə Hüseyn Əfəndi Qayıbzadə, Əbdüssəlam Axundzadə, Səfərəlibəy Vəlibəyov və başqaları tərəfdar olmuşlar. Təəssüf ki, o zaman bu ideyanı həyata keçirmək mümkün olmamış, məsələ sonralar o dövrün maarifçi ziyalıları tərəfindən dəfələrlə qaldırılsa da, həmin şöbəni Qoridən Azərbaycana köçürməyə imkan verilməmişdi. F.Köçərli Bakı şəhərində 1906-cı il, 15–31 avqust ayının 15-dən 31-dək keçirilən Azərbaycan Müəllimlərinin I qurultayında da həmin məsələnin müzakirəsinə nail olmuş, bu barədə çıxış etmiş, qurultayda “təxirə salınmadan Qori Seminariyasının bu şöbəsinin Azərbaycanın hansısa bir şəhərinə köçürülməsi” haqqında qərar qəbul olunmuşdu.

Göründüyü kimi, fəaliyyətə başlamasının 5-ci ilindən etibarən, Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin doğma vətənə köçürülməsi barədə maarifçi-ziyalıları tərəfindən nə qədər təkliflər irəli sürülsə də, çar Rusiyasının Qafqazda yeritdiyi antiazərbaycan, antimüsəlman siyasəti bu ideyanın gerçəkləşməsinə imkan verməmişdi.

Qori Seminariyasının Azərbaycan şöbəsi fəaliyyətdə olduğu illər (1879–1918-ci illər) ərzində Azərbaycan maarifinin, elm və mədəniyyətinin qızıl fondunu təşkil edən 250 nəfərdən artıq xalq müəllimi yetişdirmişdi. Bu məzunlar, Firudin bəy Köçərlinin sözləri ilə desək, onlar “millətin çırağı” olan əsl xalq ziyalıları idilər. Onların içərisində Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə kimi dahi şəxsiyyətlərlə yanaşı, ömrünü Azərbaycan xalqının maariflənməsinə, milli tərəqqisinə, mənəvi yüksəlişinə həsr etmiş Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəlibəy Vəlibəyov, Mahmud bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Müslüm Maqomayev, Hacı Kərim Sanılı, Əli Səbri, Fərhad Ağazadə, Rəcəb Əfəndiyev, Pənah Qasımov və onlarla başqalarının adlarını böyük iftixar və minnətdarlıq hissi ilə yad edir, onların müqəddəs ruhları qarşısında baş əyirik! Sözsüz, tam olmayan bu siyahıda adları çəkilən Vətən oğullarının ümumi amalı və müqəddəs idealı doğma Azərbaycana xidmət etmək, Vətən sevgisini, millət duyğusunu hər şeydən uca tutmaq, tərəqqinin əsas amili kimi xalqın maariflənməsinə, ana dilimizin göz bəbəyi kimi qorunub, inkişaf etdirilməsinə nail olmaq, lazım gələrsə, Vətən və millət yolunda həyatını qurban verməkdən belə çəkinməmək idi.

Qori Müəllimlər Seminariyasını bitirən məzunların Azərbaycanın bölgələrini əhatə etmək baxımından təhlili göstərir ki, seminariyanın kontingentində Qazax, Qarabağ, Şamaxıdan gələnlər üstünlük təşkil edirdi. Digər bölgələrin nümayəndələri də az deyildi. Onların içərisində Naxçıvandan Cəlil Məmmədquluzadə, Əli Səbri, Zaqataladan İsa Abakarov, Lənkərandan Teymur bəy Bayraməlibəyov, Şəkidən Rəşid bəy Əfəndiyev, Borçalıdan Nəriman Nərimanov, Qəbələdən İbrahim bəy Musabəyov, İrəvandan Əli Qəmərlinski kimi böyük şəxsiyyətlər də vardı. Maraqlı burasıdır ki, seminariyanın qazaxlı məzunu Əhmədağa Mustafayev həmin maarif ocağı üçün təkcə Qazax bölgəsindən 30-dan artıq müdavim hazırlamışdı. Deməli, Qori Seminariyasını bitirənlərin böyük əksəriyyəti Qazağın payına düşürdü və bu elmi-pedaqoji potensial amili Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Qazax Müəllimlər Seminariyasının məhz həmin rayonda təşkilində az rol oynamamışdı.

Əvvəla, Qori Seminariyasının Azərbaycan şöbəsində çalışan müəllimlərin və məzunların ən böyük xidmətlərindən biri keçən əsrin ikinci yarısından başlanan yeni tipli – “üsuli-cədid məktəbləri” deyilən maarif ocaqlarının formalaşmasını praktik cəhətdən həyata keçirmələri idi. Bu yeni təlim prosesində ənənəvi heca priyomundan imtina edilir, müəyyən proqram və dərslik əsasında əlifba təlimində fonetik metoda üstünlük verilirdi.

Bu baxımdan Azərbaycan maarifində “üsuli-cədid” (“yenilikçilik”) hərəkatının önündə Qori seminaristləri gedir, həmin ideyanın gerçəkləşməsinə çalışırdılar. Onlar “üsuli-cədid” hərəkatının ideoloqlarından biri, “Tərcüman” qəzetinin redaktoru, əslən Krım türkü olan İsmayıl bəy Qaspralı ilə görüşmək və “üsuli-cədid” məktəblərinin tədris sahəsindəki yenilikləri ilə yaxından tanış olmaq üçün Firudin bəy Köçərli seminariyanın ana dili müəllimi Səfərəli bəy Vəlibəyovla birlikdə Krıma səfər etmiş, orada təcrübə mübadiləsi aparmışdılar.

Tarixi baxımdan daha əhəmiyyətli tədbirlərdən biri də bu idi ki, Qori Seminariyasında həmyerlimiz A.O.Çernyayevskinin "Vətən dili" (1882) dərsliyi ilə əsası qoyulan, ana dili üzrə milli proqram, dərslik, dərs vəsaitlərinin yaradılması və tətbiqi prosesi Qazax Müəllimlər Seminariyası yaranana qədər intensiv olaraq davam etdirilmişdir. Bu dərsliklər içərisində Rəşid bəy Əfəndiyevin "Uşaq bağçası", "Bəsirətül-ətfal", Mahmud bəy Mahmudbəyovun "Türk əlifbası və ilk qiraət", onun şərikli tərtib etdiyi "İkinci il", "Üçüncü il", "İmlamız", Firudin bəy Köçərlinin "Balalara hədiyyə", Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və Soltan Məcid Qənizadənin ana dilimizə dair qrammatika kitabları, lüğətləri XIX əsrin sonlarından XX əsrin 20-ci illərinədək məktəblərimizdə əsas tədris vəsaitləri kimi istifadə olunmuşdur. Bu dərs kitabları XIX əsrin sonu, XX əsrin əvvəllərində milli şüurun oyanması və dirçəlişində əvəzsiz rol oynamışdır. Şübhəsiz, bu gün Azərbaycanda təhsilin məzmunu sahəsində, yeni proqram, dərslik yaradıcılığında onlardakı ideyalardan, milli vətənpərvərlikdən yararlanmaq faydalı olardı.

Bu günümüz üçün çox əhəmiyyətli olan digər məsələ isə seminaristlərin milli tərəqqidə təhsilin rolunu düzgün müəyyənləşdirmələri, təlim prosesində ana dilinin tədrisinə üstünlük vermələri, mənəvi təkamüldə onun aparıcı mövqeyini ön plana çəkmələri idi. Bu baxımdan F.Köçərlinin, N.Nərimanovun, Ü.Hacıbəyovun ana dili haqqında fikirləri bütün seminaristlər üçün ümumi milli ideyaların ifadəsinə xidmət edirdi. F.Köçərli bu məsələdən danışarkən, "Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ana dili də ruhun qidasıdır. Hər kəs anasını və Vətənini sevdiyi kimi, ana dilini sevir" qənaətindədir. Ü.Hacıbəyov isə "Dilimizi öyrənməliyik, rifah və səadətimiz üçün bilməliyik ki, öz ehtiyacımızın bəyanına qadir olaq" fikrindədir. Hər iki mütəfəkkirin ümumi fikri belədir ki, ana dilini öyrənməyin, onu qoruyub saxlamağın ən güclü vasitəsi məktəblərdə tədrisin həmin dildə aparılmasına üstünlük verilməsidir. Onların fikrincə, uşaqlarda milli ruhun oyanışı, Vətən və millət sevgisi ana dili və ədəbiyyatın, tarix və mədəniyyətin dərindən tədrisi yolu ilə aşılana bilər. Azərbaycançılıq, vətənpərvərlik bütün seminaristlərin uğrunda mübarizə apardıqları əsas milli ideyalardan idi. Bu mənada seminaristlərin ana dili, ədəbiyyat, tarix və mədəniyyətin yüksək səviyyədə tədrisinə dair fikirləri bu gün də aktuallığını itirməmiş, elə təhsilin keyfiyyəti və tədrisi məsələsi bəlkə də bu günkü Azərbaycan təhsilinin məzmununda ən çox nəzərə alınmalı olan ümummilli problemlərin önündə durur. Bu, artıq tarix tərəfindən təsdiqlənmiş bir həqiqətdir ki, görkəmli türk alimi F.K.Timurtaşın dediyi kimi, "Dil məsələsi milli müdafiə məsələsidir. Dili qorumaq Vətəni qorumaqla eynidir. Dil olmayınca, millət olmaz. Milli kültürün baş ünsürü dildir..."

Nəhayət, Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin bu gün üçün simvolik görünən, elə o zamanlar da Firudin bəy Köçərli tərəfindən "dəryaya nisbət bir qətrə mənziləsində" hesab etdiyi 250 nəfər seminarist məzun sanki bir məşəl kimi Azərbaycanın ucqar güşələrini nura qərq etdi. Seminaristlərin, onların yetişdirmələrinin, xalqımızın digər mütəfəkkir və vətənpərvər insanlarının çoxdan arzuladıqları hadisə – Rusiya imperiyasının dağılması prosesi başlandı. O zaman Tiflisdə cəmləşmiş Azərbaycan Milli Şurasının üzvləri 1918-ci il, may ayının 28-də İstiqlal Bəyannaməsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını elan etdilər. Sevindirici və fəxr edilməli faktlardan biri də budur ki, İstiqlal Bəyannaməsinə, Azərbaycanın müstəqilliyinə səs vermiş Milli Şuranın 26 üzvündən 3-ü Qori Seminariyasının Azərbaycan şöbəsi ilə bağlı insanlar idi. Onlardan biri seminariyanın Azərbaycan şöbəsinin müfəttişi Firudin bəy Köçərli, ikincisi uzun illər seminariyada Azərbaycan şöbəsinin müfəttişi işləmiş görkəmli pedaqoq Sultan Məcid Qənizadə, üçüncüsü isə Milli Şuranın katibi, Qori Seminariyasının məzunu Mustafa Mahmudov idi. Bu da diqqətəlayiq tarixi faktdır ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin əvvəllər Xalq Maarifi nazirinin müavini, sonralar isə sonuncu Xalq Maarifi naziri vəzifəsini icra etmiş Nurməhəmməd bəy Şahsuvarov Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin məzunlarından biri idi. Azərbaycan Xalq Cümhuriyyəti illərində yazılmış "Azərbaycan marşı"nın – indiki müstəqil Azərbaycan Respublikasının dövlət himnini musiqisini yazan dahi Üzeyir Hacıbəyov da Qori Müəllimlər Seminariyasının məzunu idi...

Yuxarıda deyildiyi kimi, XIX əsrin 80-ci illərindən başlayaraq Azərbaycan ziyalıları tərəfindən seminariyanın Azərbaycan şöbəsinin vətənə köçürülməsi uğrunda aparılan mübarizələrin reallaşması üçün tarixi şərait artıq yaranmışdı.

1918-ci il, iyun ayının 16-da Azərbaycan Milli Şurası buraxıldı və bütün hakimiyyət Fətəli xan Xoyskininin rəhbərliyi ilə II Hökumət Kabinetinə həvalə olundu. II Hökumət Kabineti Gəncədə fəaliyyət göstərdiyi müddətdə (1918-ci il, iyun ayının 16-sı – 1918-ci il, sentyabr ayının 17-si) dövlətçiliklə bağlı bir çox tarixi qərarlarla (məsələn: Azərbaycan Milli Ordusunun yaradılması, Azərbaycanın dövlət bayrağı, Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında və s.) yanaşı, Qazax Müəllimlər Seminariyasının yaradılması haqqında da qərar qəbul etdi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il, iyunun 22-də, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin Qazağa köçürülməsi, həmin şöbənin əmlakının oraya gətirilməsi məqsədilə seminariyanın keçmiş inspektoru Firudin bəy Köçərliyə 5 min rubl vəsaitin verilməsi haqqında xüsusi qərar qəbul edir. Bundan sonra Firudin bəy Köçərli Azərbaycan şöbəsinin Qazağa köçürülməsi ilə məşğul olur.

Bəzi araşdırmalarda Qazax Müəllimlər Seminariyasının yaradılmasının qazaxlıların xahişi əsasında, 1919-cu ildə rəsmiləşdirildiyi fikri irəli sürülür ki, bu fikir də tamamilə yanlışdır. Tarixi həqiqət belədir ki, Qori Seminariyasının Azərbaycan şöbəsinin Qazağa köçürülməsi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xüsusi qərarı ilə, şübhəsiz, Milli Hökümətin şöbənin əmlakının Azərbaycana verilməsi barədə Gürcüstan hökuməti ilə danışıqları, eləcə də bu məsələdə Firudin bəy Köçərlinin rəyinin hökumət tərəfindən nəzərə alınması əsasında baş vermişdir. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncə xəzinədarlığının 1918-ci il, dekabrın 28-də Qazax Müəllimlər Seminariyasının direktoruna ünvanlanmış məktubunda Firudin bəy Köçərlidən "Tatar (Azərbaycan) şöbəsinin Qori şəhərindən Qazağa köçürülməsi ilə əlaqədar bizim fonddan göndərdiyimiz 5000 rubl pulun verilməsi barədə tələbnaməni iltizamnamə ilə birlikdə geri göndərilməsi tələb olunurdu". (Bax: Azərbaycan Dövlət Tarix Arxivi, F-797, N19, s.1).

Həmin məsələ ilə bağlı digər tarixi sənəd bundan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin "Qazax Müəllimlər Seminariyasının cari xərcləri üçün kreditin ayrılması haqqında" 1918-ci il, oktyabrın 21-i tarixli ayrıca qərarı da olmuşdu. Həmin qərarla seminariyaya 1918-ci il, oktyabrın 15-dən 1919-cu il, yanvarın 1-dək 90 min 962 manat, 25 qəpik həcmində maliyyə vəsaiti ayrılmışdı. Adı çəkilən qərarda həmin təhsil ocağının adı rəsmən "Qazax Müəllimlər Seminariyası" kimi verilmişdir. Bütün bu göstərilən tarixi sənədlər bir daha təsdiqləyir ki, Qazax Müəllimlər Seminariyasının yaradılması Azərbaycan hökumətinin Gəncədəki fəaliyyəti dövründə təhsil sahəsində ən uğurlu addımlardan biri kimi qiymətləndirilməlidir.

Deyilənlərdən aydın olur ki, Firudin bəy Köçərli Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə bu məqsədlə ayrılan maliyyə vəsaiti hesabına Azərbaycan şöbəsinin bütün əmlakını Qoridən qatara yüklətdirib, Ağstafa stansiyasına gətirir. Keçmiş seminaristlərin köməyi ilə əmlak Qazax şəhərinə daşınır və məşhur bəylərdən olan Məşədi İbrahim Ağa Kosalının seminariyaya bağışladığı binada yerləşdirilir. Qazax Müəllimlər Seminariyasını təşkil etmək üçün Firudin bəy Köçərli İbrahim Qayıbovu, Mirzə Vəliyevi və Mustafa Məmmədovu, Əli Hüseynovu, Yusif Qasımovu da Qazax Müəllimlər Seminariyasında işə cəlb edir.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı, yerli ziyalıların köməyi ilə 1918-ci il, noyabrın 10-da milli təhsil tariximizdə əhəmiyyətli bir hadisə baş verdi. Qazax Müəllimlər Seminariyasında ilk dərsin başlandığını xəbər verən zəng çalındı. Seminariyanın açılış mərasimi Qazaxdakı keçmiş seminaristlər, yerli ziyalılar və xalq tərəfindən böyük sevinclə qarşılandı. Beləliklə, müstəqil Azərbaycan Xalq Cümhuriyyətində Qazax Müəllimlər Seminariyası, milli ziyalıların on illərlə arzuladıqları kimi, tədrisin ana dilində aaparıldığı təhsil müəssisəsi kimi fəaliyyətə başlayır. Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin məhz Qazağa köçürülməsi doğru addım idi. İstər gənc Azərbaycan milli hökuməti, istərsə də Firudin bəy Köçərli aydın şəkildə görürdü ki, keçmiş seminaristlərin xeyli hissəsi Qazaxda cəmləşmişdi. O zaman-

lar “Zaqafqaziyanın intellekt mərkəzi” (V.V.Bartold) sayılan Tiflis şəhəri Qazağa yaxın idi. Firudin bəy Köçərli üçün Qazax Müəllimlər Seminariyasında illərlə arzusunda olduğu işgüzar şəraiti yarandı. O, seminariya direktoru, böyük ictimai xadim kimi şöhrətləndi. Çox keçmədi ki, Firudin bəy Köçərli seminariya nəzdində yaşlılar üçün savad kurslarının və yetimlər evinin açılmasına da nail oldu. Azərbaycan Milli Şurasının üzvü F.Köçərli sonralar parlament üzvlüyündən imtina etmişdi. Böyük maarifçi Qazax Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini deputatlıqdan üstün tutmaqla, əsl maarif fədaisi olduğunu təsdiqlədi...

Firudin bəy Köçərlinin 35 illik pedaqoji fəaliyyətinin Qazax Seminariyası dövrü (iyun, 1918-ci il – may, 1920-ci il) bu böyük pedaqoqun, ədəbiyyatşünas alimin, vətənpərvər insanın həyatının ən fərəhli illəri idi. Təəssüf ki, bu sevinc, fərəh uzun sürmədi... 1920-ci il, aprel ayının 27-sində Sovet Rusiyasının hərbi müdaxiləsi ilə həyata keçirilən dövlət çevrilişi Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə nəticələndi. Tezliklə “qırmızı terror” milli hökumət nümayəndələrinə, görkəmli ziyalılara qarşı “səlib yürüşünə” başladı. 35 il Azərbaycan maarifinin inkişafına ləyaqətlə xidmət etmiş görkəmli pedaqoq, ədəbiyyatşünas alim, 25 il Qori və Qazax seminariyalarında xalqın maariflənməsi, müəllim kadrlarının yetişdirilməsi yolunda ömrünü şam kimi əritmiş Qazax Müəllimlər Seminariyasının direktoru Firudin bəy Köçərli də “qırmızı terror”un qurbanı oldu. Araşdırmalar nəticəsində məlum oldu ki, o, “milli nifaq salmaqda” günahlandırılaraq, 1920-ci il iyunun 4-də bolşeviklər tərəfindən Gəncədə güllələnmişdir.

F.Köçərlinin qətlindən sonra Qazax Müəllimlər Seminariyasına əvvəllər Əhməd ağa Mustafayev, sonralar isə görkəmli yazıçımız Mehdi Hüseynin atası, keçmiş seminarist Əli Hüseynov rəhbərlik etmiş, əziz müəllimləri Firudin bəy Köçərlinin ənənələrini yaşatmağa çalışmışlar.

F.Köçərli Qazax Müəllimlər Seminariyasına elə güclü intellektual potensial toplaya bilmişdi ki, onun tərəfindən əsası qoyulan ənənələr uzun illər bu maarif ocağında yaşadılmışdır. Hələ F.Köçərlinin sağlığında Qazax Müəllimlər Seminariyasına daxil olmuş böyük şairimiz Səməd Vurğun, Osman Sarıvəlli, İsmayıl Şıxlı kimi böyük şəxsiyyətlər həmin seminariyanın məzunları kimi tanınmışlar.

Bu təhsil ocağının 1923-cü ildə ilk buraxılışı olmuş, 1925-ci ildə isə tarixi adı dəyişdiriləরək Qazax Pedaqoji Texnikumu adlandırılmışdır. Sovet hakimiyyəti illərində Qazax Pedaqoji Texnikumu kimi fəaliyyət göstərən Qazax Müəllimlər Seminariyasının 1948-ci ildə 30 illiyi təntənəli şəkildə qeyd edilmişdir. 1999-cu ildə Azərbaycan maarifinə minlərlə müəllim vermiş Qazax Müəllimlər Seminariyasının 80 illiyi keçirilmişdir.

Həm Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi, həm də onun varisi olan Qazax Müəllimlər Seminariyası (Qazax Pedaqoji Texnikumu) cəmi 40 il fəaliyyət göstərsələr də, hər iki təhsil ocağı doğma Azərbaycan üçün müəllim kadrları hazırlığında, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrinin inkişafında misilsiz xidmətlər göstərmişdir. Seminariyanın Azərbaycan şöbəsinin fəaliyyət göstərdiyi birinci dövrdə 250-dən artıq xalq müəllimi yetişdirmişdirsə, ikinci dövrdə 2862 nəfər mütəxəssis hazırlamışdır.

Qazax Müəllimlər Seminariyasının Azərbaycan maarifinin inkişafında rolu hələ lazımi səviyyədə öyrənilməmişdir.

Bu gün başlıca vəzifə Azərbaycanın maarif və təhsil tarixinə təkrarolunmaz şanlı səhifələr yazmış Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi və onun layiqli davamçısı, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xalqımızın təhsil salnaməsinə böyük ərmağanı sayılan maarif məbədi Qazax Müəllimlər Seminariyasının maarifçilik ənənələrini qoruyub saxlamaq, Azərbaycanın müstəqilliyini əbədiləşdirəcək gəncləri keçmiş seminaristlərin arzuladıqları şəkildə – Vətənə, Azərbaycan dövlətinə, tarixinə, xalqına, dilinə, ədəbiyyatına, mədəniyyətinə, türk və islam dünyasına məhəbbət, azərbaycançılıq, türkçülük ruhunda tərbiyə etməkdən ibarətdir.

**ədəbiyyat**

1.Азербайджанская Демократическая Республика (1918–1920 гг.) Законодательные акты. Баку, 1998.

2.“Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 2018-ci il, noyabr ayının 3-ü.

3.Quliyev Ə. Azərbaycan Milli Ensiklopediyası: “Təhsil” bölməsi. “Azərbaycan” xüsusi cildi, Bakı, 2006.
4.M.Mərdanov M., Ə.Quliyev. Azərbaycan təhsili Xalq Cumhuriyyəti illərində (1918-1920). Bakı, 2003.
5.Назарлы А. Народное образование в Азербайджанской Республике. (1918–1920 гг.) Баку, 2008
6.Seyidov F. Maarifimizin təkrarsız xəzinəsi (Qazax Seminariyası və onun məzunları). Bakı, 2001.

**ИЗ ИСТОРИИ ГАЗАХСКОЙ СЕМИНАРИИ УЧИТЕЛЕЙ**
**резюме**
В статье рассказывается о создании Газахской Семинарии Учителей, предшественником который стал Закавказская (Горийская) Семинария Учителей и о трудной судьбе азербайджанских просветителей, в частности о трагической судьбе Фиридун бека Кочерли – основателя Газахской Семинарии Учителей – который был расстрелян 1920-ом году большевиками.

**ABOUT THE HISTORY OF THE GAZAKH SEMINARIUM OF TEACHERS**
**summary**
The article tells about the creation of the Gazakh Seminary of Teachers, the predecessor of which was the Transcaucasian (Gori) Seminary of the Teachers, the difficult fate of the Azerbaijani enlighteners, in particular the tragic fate of Firidun bay Kocherli – the founder of the Gazakh Seminary of the Teachers – who was shot by bolsheviks in 1920.

# AZƏRBAYCAN DEMOKRATİK CÜMHURİYYƏTİNİN 100 İLLİYİ

**Sədaqət Rəhimova,**
ADPU-nun elmi işçisi, dosent
Bakı şəhəri, Xətai rayonu, 240 nömrəli körpələr
evi-uşaq bağçasının müdiri

*“Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz”.*
***H.Ə.Əliyev***

*Müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.*
***İlham Əliyev***



**açar sözlər:** Azərbaycan Xalq Cümhuruyyəti, 100 illik yubiley, Şərqdə ilk demokratik dövlət, milli dövlətçilik, bəşəri dəyərlər, milli zəmin;
**ключевые слова:** Азербайджанская Народная Республика,100-летний юбилей, первое демократическое государство на Востоке, национальная государственность, человеческие ценности, национальная почва;
**key words:** The Azerbaijan People's Republic, the 100th anniversary, the first democratic state in the Vostok, national statehood, the humane value, the national soil.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il, 16 may tarixli “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” Sərəncam imzalamışdır. Xalq Cümhuriyyətinin yubileyi ölkəmiz üçün çox əhəmiyyətli hadisədir. Bu hadisə Şərqdə ilk demokratik dövlətin məhz Azərbaycanda qurulduğunu nümayiş etdirir.

Dövlət başçısının sərəncamında da milli dövlətçiliyimizin – Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsi vurgulanır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təbirincə desək, “Azərbaycan hələ tam oxunmamış bir kitabdır”.

Azərbaycan XX əsrdə üç dəfə dövlət yarada bilmişdir. 1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti, 1920–1921-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikası, nəhayət, 1988-ci ildə baş verən hadisələrin nəticəsi olaraq, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi.

Məlum olduğu kimi, müstəqillik Azərbaycanın mərd oğul və qızlarının qanı bahasına əldə edilmişdir.

Azərbaycanın qadın fəallarının fəaliyyətini araşdırdıqda tarixi palitranın kifayət qədər zənginliyinin şahidi oluruq: Nisə Bəyim, Tuti Bikə, Sara xatun diplomatiya, Məhsəti Gəncəvi, Xurşudbanu Natavan, Heyran xanım, Fatma xanım Kəminə və başqaları ədəbiyyat sahəsində öz sözlərini demişlər.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda qadınların ictimai fəallığı hiss olunmağa başlamışdır.

XIX əsrin sonlarında olduğu kimi, AXC dövründə də qadınların maariflənməsi məsələsinə həssaslıqla yanaşırdılar. Həmin dövrdə 4 qadın gimnaziyası, 3 Müqəddəs Nina qız məktəbi fəaliyyət göstərirdi. 1919-cu ilin avqustunda Xalq Maarif Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı (Şəkidəki) Müqəddəs Nina qız məktəblərinin adları dəyişdirilərək Bakıda Azərbaycan qızlar gimnaziyası, Gəncə və Şəkidə isə sadəcə, qızlar gimnaziyası adlandırıldı.

Xalqımızın belə bir müdrik məsəli var: "Su gələn arxa bir də gələr". Nəhayət, 70 il sonra – XX əsrin son onilliyində azadlıq xalqımızın üzünə yenidən güldü. 1991-ci il, oktyabrın 18-də Sovet imperiyası dağıldı, Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdi. Yeni dövlətçiliyimizin bərpası kəskin qarşıdurmalar şəraitində baş verdi. Azərbaycan dövləti bir tərəfdən daxili siyasi çəkişmələrə, digər tərəfdən tarixi düşmənimiz Ermənistanın təcavüzünə qarşı mübarizə aparırdı…

1991-ci il, oktyabr ayının 18-də Azərbaycan Respublikası parlamentinin "Azərbaycan Respublikasının dövlət müstəqqiliyi haqqında" Konstitusiya Aktını qəbul etməsi ilə Azərbaycan tarixinin müstəqil inkişaf dövrü başlandı.

XX əsrdə Azərbaycan xalqının həyatında böyük hadisələr baş vermişdir. Bu əsr Azərbaycan xalqı üçün sürətli inkişaf dövrüdür. Azərbaycan öz coğrafi, siyasi vəziyyətinə, təbii sərvətlərinə görə bir çox dövlətlərin daim maraq dairəsində olmuşdur.

Azərbaycan Demokratik Respublikası müsəlman Şərqində ilk demokratik dövlətdir. Olduqca qısa müddətdə (23 ay–1918, 28 may–1920, 28 aprel), mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, 1918-ci il, mayın 28-də yaradılmış, AXC-nin həyata keçirdiyi tədbirlər (milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqların verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dilinin dövlət dili elan olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbulu, demokratik dövlət quruculuğunun başlanması, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış uğurlu addımlar və s.) ölkənin gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratdı.

"Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə, cəmi 23 ay fəaliyyət göstərsə də, gələcək nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz izlər buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda müstəqillik fikirlərini daha da gücləndirmiş oldu". (H.Əliyev).

AXC dövründə 5 dəfə hökumət təşkil edilmişdi. Birinci üç hökumətə (28.05.1918–14.03.1919) Fətəli xan Xoyski, 4-cü və 5-ci hökumətlərə (14.03.1919 – 30.03.1920) N.Yusifbəyli başçılıq etmişlər. Azərbaycanın ərazi bütövlüyünün qorunması AXC hökumətinin fəaliyyətində ümdə vəzifələrdən biri sayılmışdır. Azərbaycan ərazisinin elə bir bölgəsi olmamışdır ki, hökumətin diqqətindən kənarda qalsın. Bu baxımdan, Naxçıvan diyarına və Zəngəzur mahalına münasibət xüsusi qeyd edilə bilər. "Azərbaycan parlamentinin yaradılması haqqında qanun"da göstərilirdi ki, Azərbaycan parlamentinə Zəngəzurdan iki və İrəvandan üç (Naxçıvan, Şərur, Ordubad nəzərdə tutulur) nəfər millət vəkili seçilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə elə işlər gördü ki, nəinki tarixin, habelə millətin yaddaşına həkk olundu. Belə müqəddəs işlərdən biri də Azərbaycanda universitetin yaradılması idi. M.Ə.Rəsulzadə Xalq Cümhuriyyəti Parlamentinin 21 avqust,

1919-cu il tarixli iclasında universitetin açılması haqqında rəyləri şərh edir və göstərirdi ki, belə bir elmi-tədris müəssisəsi üçün müəllim-professor heyətinin əsası da hazırdır. Onun fikrincə, əlbəttə, "yaxşı olardı ki, bu elm və mədəniyyət mənbəyi türkcə fəaliyyət göstərəydi". O, universitetdə tədrisin təşkili sahəsində Rusiya, Yaponiya, Türkiyə təcrübəsini misal gətirərək, çətinliklərdən qorxmamağa çağırırdı. Beləliklə, müstəqil dövlətimizin milli universiteti yaradıldı.

Xalq Cümhuriyyətinin 70 il qadağan edilmiş üçrəngli bayrağını ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qaldıran ümummilli liderimiz Heydər Əliyev demişdir: "Müstəqilliyimiz dönməzdir, əbədidir". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu bayrağı ən böyük beynəlxalq təşkilatlarda, bu ölkənin sözünü dediyi mötəbər yığıncaqlarda xitabat kürsüsünün önünə çıxardı və fəaliyyətinin bütün istiqamətlərində qürur hissi ilə onun qiymətini verdi: "Bayraq hər bir dövlətin təmsilçisi və rəmzidir".

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamını rəhbər tutaraq, işlədiyim kollektivi il ərzində müxtəlif vasitələrlə təlimatlandırıram. Belə ki, məsləhət saatlarında, növbədənkənar pedaqoji şuralarda müxtəlif mövzularda məruzələrlə çıxış edirəm. Eyni zamanda, pedaqoji kollektiv arasında sorğu aparır, müsabiqələr keçirirəm ki, tərbiyəçilər də yaşlarına uyğun olaraq uşaqları məlumatlandırsınlar. Pedaqoji kollektivimiz hər il 28 May–Azərbaycan Demokratik Respublikasının yaranması günü ilə əlaqədar tədbirlər keçirir. Keçirilən tədbirlərdə uşaqlar əllərində üçrəngli bayraqlarla, marş sədaları altında zala daxil olub, dövlət himnimizi oxuyur, şeirlər söyləyir, milli rəqsləri ifa edirlər.

Ulu öndərimiz H.Əliyev məktəbəqədər təhsil işçilərinə xitabən demişdir: "Milli vətənpərvərlik, hərbi vətənpərvərlik hər bir vətəndaşın hələ körpəlikdən həyat prinsipi, idealı və nizamnaməsi olmalıdır".

Bu şərəfli, məsuliyyətli iş məktəbəqədər təhsil müəssisəsi işçilərinin üzərinə düşür. Məktəbəqədər yaş vətənpərvərlik hisslərinin ilkin formalaşdığı dövrdür. Vətənpərvərlik düşmənə nifrət hisslərini gücləndirir. Ulu öndər H.Əliyev demişdir. "Uşaqlarımız məktəbəqədər yaş dövründən başlayaraq, bəşəri dəyərlərdən istifadə edilərək, milli zəmin üzərində, adət-ənənələr ruhunda tərbiyə olunmalıdır".

Ümumilli lider Heydər Əliyevin dediyi kimi, "zəngin mədəniyyət və maarifçilik ənənələrinə malik olan Azərbaycan müsəlman Şərqində dünyəvi təhsilin gerçəkləşdiyi ilk ölkələrdən biri olmuşdur".

Təhsilimizin milliləşdirilməsi istiqamətində əvəzsiz işlər görmüş Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra, Sovet hakimiyyəti illərində milli hökumətin təhsil sahəsinə gətirdiyi yeniliklər xalqımızdan gizlədilsə də, müasir dövrdə bu tarixin araşdırılması istiqamətində görülən işlər uğurla davam etdirilir.

Böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin tövsiyələri bu gün də aktualdır. Bu fikirlər bizi milli əxlaqımızı, adət-ənənələrimizi qoruyub-saxlamağa, vətənpərvər olmağa səsləyir.

**ədəbiyyat**

1. Hüseynov Ş. "525-ci qəzet", 2018, № 12.
2. Abdurzaqova H. Cümhuriyyət Azərbaycan dilini dövlət dili elan etdi. "Azərbaycan müəllimi" qəzeti, 2018, № 43.
3. Yəhyayeva M. Cümhuriyyət dövründə təhsildə qadınlar. "Azərbaycan müəllimi" qəzeti, 2018, № 44.

**СТОЛЕТНИЙ ЮБИЛЕЙ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ**

**резюме**

В статье рассказывается об истории предшественника современного Азербайджана – об Азербайджанской Демократической Республике. Отмечается, что действия, осуществляемые АДР (предоставление равных прав всем гражданам независимо от их национальной, политической и религиозной принадлежности, пола, определение государственных границ, декларация об объявлении азербайджанского языка государственным языком, принятие атрибутов азербайджанской государственности, начало демократического государственного строи-

тельства, экономика, культура, образование, успешный шаг в области военного строительства и т. д.) создали прочную основу для будущей независимости страны.


**ANNIVERSARY OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC**

**summary**

The article tells about the history of the predecessor of modern Azerbaijan - about the Azerbaijan Democratic Republic. It is noted that the actions carried out by the ADR (provision of equal rights to all citizens regardless of their national, political and political affiliation, gender, definition of state borders, declaration of the Azerbaijani language as the state language, acceptance of the attributes of Azerbaijan statehood, the beginning of a democratic state structure, economy, culture, education, a successful step in the field of military construction, etc.) created a solid foundation for future independence us.


# AKADEMİK MEHDİ MEHDİZADƏ – 115
# PEDAQOJİ İRSİMİZDƏN: ƏNƏNƏ VƏ MÜASİRLİK


**Ramiz Əliyev,**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi





**açar sözlər:** təhsil, təlim, tərbiyə, inkişaf, stimul, yenilik, müasirlik, millilik, dünyəvilik, motivasiya;

**ключевые слова:** образование, обучение, воспитание, развитие, стимуль, новшество, современность, национальные качества, светский, мотивация;

**key words:** education, training, upbringing, development, stimulus, innovation, modernity, national qualities, secular, motivation;


“Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” təhsil sisteminin inkişaf istiqamətlərini, məzmununu, elmi-pedaqoji əsaslarını, kadr potensialını, maddi-texniki təchizatını müəyyənləşdirir, islahatın aparılmasının forma və yollarını, mərhələlərini dəqiqləşdirir. Proqramda qeyd edilir ki, toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla müstəqil Azərbaycan Respublikasının strateji məqsədlərini həyata keçirməyə qadir, intellektual potensialı formalaşdıran yeni təhsil sistemi həyata keçirilməlidir.

Ötən illərdə aparılmış islahatlar nəticəsində müəyyən qədər mütərəqqi əhəmiyyətli təcrübə toplanmışdır. 1960–1970-ci illərdə tərbiyəyə kompleks yanaşılması, mənəvi tərbiyənin aktuallaşdırılması, fəal həyat mövqeyinin formalaşdırılması, təlim metodlarının, dərs prosesinin təkmilləşdirilməsi və s. istiqamətlərdə nəzəri və praktik əhəmiyyət daşıyan xeyli işlər görülmüş, səmərəli nəticələr əldə edilmişdir. Bu zəngin təcrübənin toplanmasında akademik Mehdi Mehdizadənin mühüm rolu olmuşdur. Müasir dövrdə təhsil islahatını həyata keçirənlərin bir çoxu məhz Mehdi Mehdizadənin yetirmələridir.

Mehdi Mehdizadənin zəngin pedaqoji irsi pedaqogika elminin, təhsil, təlim-tərbiyə işinin, demək olar ki, bütün sahələrini əhatə edir. Bu gün Azərbaycan məktəblərində təlimin məzmunu, təlim metodları, dərsin təşkili formaları kimi didaktik məsələlər tədqiqat obyektinə çevrildiyindən M.Mehdizadə irsində təlim məsələlərinin qoyuluşu təcrübəsindən hazırkı təhsil islahatının həyata keçirilməsində istifadə məqsədilə bəzi cəhətləri nəzərdən keçirmək istərdim.

Böyük pedaqoq təlim materialının elmiliyini, ictimai və təbiət hadisələrini, qayda-qanunların dialektik şərhini, qarşıda duran vəzifələrin dərsdə təlim materialları ilə əlaqələndirilməsini zəruri şərtlərdən hesab edirdi. O bildirirdi ki, mövzular zəncir halqası kimi bir-biri ilə əlaqəli olmalı, hər bir mövzu mümkün qədər özündən əvvəlkilərə istinad etməklə, sonrakı mövzuların əsasını təşkil etməlidir.

M.Mehdizadənin didaktik baxışları quru nəzəriyyəçiliklə məhdudlaşmır. Bu baxışlar təcrübəyə ötürülmüş elmi ideyaların, didaktik təlimatların təcrübədə özünü doğrultması ilə təsdiqlənir. Bu baxış nəzəriyyə və praktikanın vəhdətinə söykənir, biri digərindən qidalanır.

Alim təlim-tərbiyə prosesinin səmərəliliyini təmin etmək üçün müvafiq şəraitin yaradılmasını əsas şərt kimi irəli sürür. Onun fikrincə, əsas şərtlərdən biri şagirdlərin fəallığının təmin edilməsidir.

M.Mehdizadə öz dövrünə görə müasir hesab olunan dərsin mahiyyətini açmış, ona verilən tələbləri göstərmişdir. 1970–80-ci illərin mövqeyini ifadə edən həmin tələblər bu gün də aktualdır. M.Mehdizadənin qənaətincə, müasir dərs, ənənəvi dərsə nisbətən, həm məzmununa, həm də metod, priyom və vasitələrinə görə çox zəngindir, təşkili cəhətdən xeyli mürəkkəbdir. O, müəllimdən yalnız bacarıq deyil, həm də gərgin yaradıcı iş tələb edir. Müasir dərs təlimin müxtəlif növlərinə geniş yer verilməsi ilə də ənənənəvi dərsdən fərqlənir. Ənənəvi dərsdə izahlı reproduktiv təlim, demək olar ki, yeganə təlim növü idi. Müasir dərsdə isə bundan başqa, proqramlaşdırılmış, alqoritmləşdirilmiş, reproduktiv-axtarıcı, problemli təlim, diferensial təlim növləri, təlimin fərdiləşdirilməsi və intensivləşdirilməsi tətbiq edilir. Müasir dərs onunla səciyyələnir ki, burada dərsin hər üç vəzifəsi: təhsil, tərbiyə və proqramın hər bir konkret mövzusu üzrə şagirdlərin inkişafı vəzifələri layihələndirilir, planlaşdırılır, həyata keçirilir. Burada təlimin texniki vasitələri geniş planda tətbiq olunur, dərslər kabinet sistemi üzrə keçirilir. Dərsin səmərəliliyinin təmin olunmasında məzmunla yanaşı, təlim metodlarının yeniləşdirilməsini də əsas amil hesab edən alim təlimin təkmilləşdirilməsini, təhsil islahatına kompleks yanaşmanı faydalı hesab edirdi.

M.Mehdizadə təlimin məzmununun yeniləşdirilməsində təhsilin fasiləsizliyini və şagirdlərin gələcəkdə də öz biliklərini müstəqil artırmaq bacarığını formalaşdırma imkanlarını nəzərə almağı vacib hesab edərək, şagirdə yalnız faktları mənimsətmək yox, bilik verən məlumatlar axınından baş açmaq bacarığı aşılamağı günün didaktik vəzifəsi kimi irəli sürür. Bütün bunlar hazırkı kurikulum təhsil modelində nəzərə alınmalı şərtlərdir.

M.Mehdizadə təhsil prosesinin *permanent* (fasiləsiz) olmasını nəzərə alaraq, məktəblilərə hər şeyi öyrətməyə cəhd etməkdənsə, onlara "öyrənməyi öyrətməyi" vacib bilir. Buradan da şagirdlərdə idrak fəallığının təmin olunması, müstəqil işlərə geniş yer verilməsi məsələləri aktuallaşır.

Təlim metodlarının təkmilləşdirilməsi və yeniləşdirilməsindən bəhs edən M.Mehdizadə müqayisə yolu ilə daha səmərəli metodları üzə çıxarır, onların tətbiqi priyomlarını, əməli nəticələrini aşkarlayır. Pedaqoji ədəbiyyatda təqdim olunan təlim metodu qruplarının: informasiya metodları, əyanilik, reproduktiv, axtarıcılıq və s. adını çəkdikdən sonra müəllif bildirir ki, müasir dərs ənənəvi metodlarla yanaşı, tədricən axtarıcılığa istiqamətlənmiş metodların da (evristik, problemli şərh, tədqiqat, seminar-mühazirə, referat, təlim mübahisəsi metodları və s.) tətbiqinə nail olmağı tələb edir. M.Mehdizadənin təlimin müxtəlif metod və priyomlarından dərsdə istifadə edilməsinə dair fikirləri dövrünə görə yenilikçi ruhu ilə seçilir. Alim qətiyyətlə bildirir ki, təlimin səmərəliliyinin yüksəldilməsi müəllimin, şagirdlərin fəaliyyəti ilə yanaşı, təlimin metod və priyomlarının düzgün seçilməsindən, dərsdə onlardan bacarıqla istifadə edilməsindən də çox asılıdır.

M.Mehdizadə hələ 1960-cı illərdə bu fikirdə idi ki, təlim metodlarını ya universallaşdırmaq, ya da onlara şablon kimi yanaşmaq olmaz. Dərsin hər bir mərhələsində məktəblilərin fəallığına, məqsədə və s. görə metod seçmək səmərəli nəticələr verir. Müəllif fikrini əyaniləşdirmək üçün şagirdlərə yeni bilik verərkən istifadə oluna biləcək metodların adlarını çəkir. Onun fikrincə, elə yeni biliklər vardır ki, onları öyrətmək üçün müəllim *izahatdan, şifahi şərhdən, məktəb mühazirəsindən* istifadə etməlidir. Qrammatika, riyaziyyat, tarix və s. fənlər üzrə bilikləri *müsahibə* yolu ilə öyrətmək daha əlverişlidir. Bu, *evristik* yoldur. Bəzi bilikləri şagirdlər dərslik və digər mənbələr üzərində müstəqil işləmək yolu ilə ala bilərlər. Bu, yeni bilikləri *müstəqil əldə etmək* yoludur. Bəzi bilikləri isə şagirdlər müəllimin rəhbərliyi altında bu və ya digər təbiət hadisəsi

üzərində müşahidə aparmaq, kimya, fizika və biologiyadan müxtəlif təcrübələr aparmaq yolu ilə əldə edə bilərlər. Buna *tədqiqatçılıq* yolu deyilir.

M.Mehdizadə "kitab üzərində işi, laborator məşğələləri, müşahidə yolu ilə tədqiqatçılıq metod və formalarını tədris prosesinə cəsarətlə daxil etməyi" vacib hesab edirdi. O, həmçinin bildirir ki, şagirdləri düşünməyə, axtarmağa, tapmağa məcbur edən *evristik müsahibədən* geniş istifadə edilməlidir. Məktəblilərə müstəqil qrafik işləri daha çox vermək, onları mürəkkəb məsələlərin həlli üzərində çalışdırmaq, inşa yazmağı öyrətmək, təcrübə aparmaq vərdişləri aşılamaq lazımdır. Pedaqoq praktik əmək vərdişlərinin şagirdlərə aşılanması nəticəsində onların idrak fəaliyyətini qiymətləndirməyin, müstəqil təfəkkür bacarıqları və əmək vərdişlərini formalaşdırmağın, onlara "öyrənməyi öyrətməyin" mümkünlüyünü bildirirdi.

Alimin bu fikri də maraqlıdır ki, təlimin müxtəlif metodlarının tətbiqi ilə dərsi yüngülləşdirmək, sadələşdirmək heç də məqsədə çevrilməməlidir, çünki əqli inkişaf məhz şagirdlər çətin tapşırıqlar üzərində işlədikdə, çətinlik qarşısında qaldıqda təmin edilir.

Akademik M.Mehdizadə dərsdə problem-situasiyanın yaradılmasını, əks-əlaqənin qurulmasını, tədris prosesinin intensivləşdirilməsini, təlim prosesinin fərdiləşdirilməsini, təlimin müasir texniki vasitələrindən istifadə olunmasını didaktik priyomlar kimi zəruri sayır və bunları dərsə verilən tələblər səviyyəsinə qaldırırdı.

Görkəmli pedaqoq dərsin təkmilləşdirilməsi, təlim məsələləri ilə əlaqədar illərlə düşündüklərini son tədqiqat əsəri olan "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları" adlı kitabında ümumiləşdirmişdir. Həmin kitabın nəşrindən ötən 22–23 il ərzində respublikada didaktik məsələləri əhatə edən belə sanballı əsər yaranmamışdır. M.Mehdizadənin həmin kitabda şərh etdiyi nəzəri və təcrübi məsələlər, elmi-əməli mahiyyətinə görə, bu gün də əhəmiyyətlidir.

Fikrimizcə, akademik M.Mehdizadənin *təlim prosesi*, *təlim metodu*, *metodik priyom* və s. anlayışların şərhi ilə əlaqədar açıqlamaları öz aktuallığını saxlamaqdadır. O yazırdı: "Təlim prosesi müəllim və şagirdlərin müəyyən quruluşa malik olan elə birgə fəaliyyətidir ki, burada bilik, bacarıq, vərdişlər sistemi, təlimin formaları, növləri, metodları, didaktik, əyani və texniki vasitələrdən ibarət komponentlərdən istifadə edərək şagirdlərin təhsil, tərbiyə, inkişaflarını təmin etməyə yönəldilir". "Təlim metodu müəllim və şagirdlərin elə qarşılıqlı fəaliyyət sistemidir ki, müxtəlif vasitələrdən istifadə yolu ilə təlim prosesində didaktik problemlərin həllinə xidmət edir". M.Mehdizadə metodik priyomu təlim metodunun ünsürü hesab edir, eyni zamanda müstəqil priyomların da olduğunu bildirirdi.

Təlim metodlarını *məlumatvermə*, *əyanilik*, *reproduktiv*, *axtarış, nəzarət* metodları kimi təsnif edən alim bunların hərəsinə bir neçə öyrənmə metodunun daxil olduğunu göstərir. O, təlim metodlarını qrup halında ümumiləşdirərək, hər qrupa bir neçə metodu aid edir. O yazır: "**Məlumatvermə** metodlarına aşağıdakılar daxildir: 1.*Öyrətmə metodları:* şərhetmə, nəqletmə, müsahibə, mühazirə, mətni oxumaq və s. 2.*Öyrənmə metodları*: dinləmə, dərslik üzərində iş (mətni öyrənmə), məlumatı dərk etmə, yadda saxlama, öyrənilənləri təkrar etmə və s.

**Əyanilik** metodları dedikdə, aşağıdakılar nəzərdə tutulur. 1.*Öyrətmə metodları:* əyani vəsaiti, təcrübəni (fizika, kimya, biologiya üzrə), təlim filmini nümayiş etdirmə, müasir texniki təlim vasitələrinin tətbiqi, ekskursiyalar və s. 2. *Öyrənmə metodları:* müşahidə etmək, şəkil çəkmək, dəftərə qeyd etmək, paylanmış didaktik materiallar üzərində iş və s.

**Reproduktiv** metodlar qrupuna daxil olanlar:*1.Öyrətmə metodları:* dərk edilmiş materialın təkrarlanmasını təşkil etmək, çalışmalara nümunə göstərmək, mətni oxumaq, laboratoriya məşğələlərini aparmaq yollarını şərh etmək, emalatxanalarda, təcrübə tarlasında aparılan işlər haqqında məlumat vermək və s. 2. *Öyrənmə metodları:* öyrənilmiş materialı möhkəmləndirmək, dərslik üzərində işləmək, müxtəlif yazı işlərini yerinə yetirmək, məsələ və misallar həll etmək, laboratoriya məşğələləri, qrafik işlər, əmək tapşırıqlarını yerinə yetirmək və s."

Pedaqoq aşağıdakı metodları müasirliyi ilə diqqəti cəlb edən axtarış metodlarına daxil etmişdir. Onlardan ən mühümləri bunlardır:

- evristik-müsahibə və ya qismən axtarış metodu;
- problemli şərh metodu;
- tədqiqat metodu;
- seminar metodu;
- mühazirə-seminar metodu;
- referat metodu;
- disput metodu.

M.Mehdizadə təlimin tipləri məsələsinə də toxunmuş və qeyd etmişdir ki, 1980-ci illərdə yeni təlim tipləri meydana çıxmış və kütləvi olaraq izahlı-repreduktiv təlim növü ilə birlikdə tətbiq olunmaqdadır. O, yeni təlim tipləri kimi aşağıdakıları göstərmişdir:

- proqramlaşdırılmış təlim;
- diferensial və ya fərdiləşdirilmiş təlim.

M.Mehdizadə yeni təlim tiplərinin ənənəvi təlim növlərindən xeyli üstün keyfiyyətlərə malik olduğunu bildirərək, onların fərqini aydınlaşdırır. O, proqramlaşdırılmış təlimin ənənəvi təlim növündən fərqli olduğunu şagirdlərə göstərir və onların bir-bir izahını verir:

- elmi məlumatın, yəni biliklərin mənbələrinə görə;
- biliklərin təqdim edilmə yollarına görə;
- müstəqil iş sisteminə görə;
- təlimin fərdiləşdirilməsinə görə;
- şagirdlərin idrak fəaliyyəti üzərində, onların bilik, bacarıq və vərdişlərlə yiyələnmələri üzərində nəzarətə görə;
- şagirdlərin zehni fəaliyyətinin nəticələri haqqında (biliklərinə verilən qiymətlərin ümumiləşdirilməsinə görə).

M.Mehdizadənin alqoritm və problemli təlim haqqında fikirləri bu gün də aktualdır. Onun fikrincə, *alqoritm* birtipli məsələlərin həll edilməsi qaydaları sistemidir. *Problemli təlim* isə şagirdlərə yeni bilik vermək üçün təlim prosesində problemli vəziyyətlər yaradıb, müəllimin onları məharətlə açması və şagirdləriə açdırması sistemini ifadə edən təlimdir. Bu, məktəblilərin zehni fəaliyyətlərinin gücləndirilməsi, onlarda axtarış tələbatı, müstəqil işləmək meyil və bacarıqlarının aşılanması yollarından biridir.

M.Mehdizadənin təlim məsələlərinə aid irsi ilə tanışlıq göstərir ki, o, təlim nəzəriyyəsinin zənginləşdirilməsi sahəsində mühüm xidmətlər göstərmiş, təlim prosesinin optimallaşdırılması, dərsin təkmilləşdirilməsi yollarını nəzəri baxımdan aydınlaşdırmış, qabaqcıl iş təcrübələrini ümumiləşdirmişdir.

Təhsil islahatının və zamanın tələbləri baxımından təlimin yeni məzmununun yaradılması, təlimin təkmilləşdirilməsi və yeniləşdirilməsi, yeni təlim metodlarının bir çoxunun elementlərini onun təbliğ etdiyi metodlar içərisində tapmaq mümkündür. Bu baxımdan demokratikləşdirmə və humanistləşdirmə prinsiplərinin əsas götürüldüyü indiki dövrdə M.Mehdizadə irsindən yaradıcılıqla istifadə ümumi işimizə xeyir verə bilər.

**ədəbiyyat**

1. Mehdizadə M.M. Məktəb sisteminin yenidən təşkili məsələlərinə dair bəzi qeydlər. Bakı, "Azərbaycan müəllimi" qəzeti, 1958, oktyabrın 9-u.

2. Mehdizadə M.M. Pedaqoji effekt. Bakı, "Bakı" qəzeti, 1996, dekabrın 22-si.

3. Mehdizadə M.M. Azərbaycan SSR məktəblərində təlim prosesinin təkmilləşdirilməsi yolları. Bakı, "Azərbaycan məktəbi" jurnalı, 1975, №12.

4. Akademik Mehdi Mehdizadə ömrünün işığı. (Tərtibçilər: V.Xəlilov, H.Musayev.) Bakı, 1998.

5. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri. Bakı, 1998.

**АКАДЕМИК МЕХДИ МЕХДИЗАДЕ – 115. ПЕДОГИЧЕСКОЕ НАСЛЕДИЕ: ТРАДИЦИИ И СОВРЕМЕННОСТЬ**

**резюме**

В статье рассказывается о педагогческом наследии академика М.М.Мехдизаде по вопросам образования и обучения. Его идеи и мысли интерпретируются в контексте традиции и современности, а также высказывается возможность использовать их на новом этапе школьной практики.

**ACADEMIC MEHDI MEHDIZADE - 115. PEDOGIC HERITAGE: TRADITIONS AND MODERNITY**

**summary**

The article tells about the pedagogical heritage of academician M.M. Mehdizade concerning education and training. His ideas and thoughts are interpreted in the context of tradition and modernity, and the possibility is expressed of using them at the new stage of school practice.

# САМОСТОЯТЕЛЬНАЯ РАБОТА В МАЛЫХ ГРУППАХ ПРИ ОБУЧЕНИИ МАТЕМАТИКЕ В ВУЗЕ

**Евгения Григорьевна Плотникова,**
заведующая кафедрой, профессор
НИУ ВШЭ, г. Перм;
**Валерия Валерьевна Логинова,**
старший преподаватель кафедры высшей математики
НИУ ВШЭ, г. Перм;





**ключевые слова:** самостоятельная работа, малые группы, обучение математике в вузе, повышение качества обучения, профессиональные компетенции, будущие специалисты,групповая работа, формирования практических умений;

**açar sözlər:** müstəqil iş, kiçik qruplar, ali məktəblərdə riyaziyyat tədrisi, təhsilin keyfiyyətinin artırılması, peşəkar səriştəlilik, gələcək mütəxəssislər, qrup işi, praktik bacarıqların formalaşdırılması;

**key words:** independent work, small groups, teaching mathematics at the university, improving the quality of education, professional competences, future specialists, group work, the formation of practical skills;

***Аннотация.*** *Самостоятельная работа в малых группах как форма обучения математике в вузе позволяет реализовать профессиональную направленность образовательного процесса в условиях дефицита учебного времени, эффективно повысить качество обучения, сформировать профессиональные компетенции будущих специалистов. Представлен общий вид сценария групповой работы на примере обучения студентов-менеджеров.*

В педагогической литературе самостоятельная работа студентов определяется как планируемая, выполняемая по заданию и при методическом руководстве преподавателя, но без его непосредственного участия.[1] Это целенаправленная учебная деятельность, которая требует от студента высокого уровня самосознания, самодисциплины, личной ответственности и в результате выполнения доставляет моральное удовлетворение. Самостоятельная работа способствует: систематизации и углублению теоретических знаний, закреплению практических умений и навыков; развитию познавательных способностей и самостоятельности мышления; организованности и ответственности; формированию и развитию способностей к дальнейшему самообучению, самореализации и самосовершенствованию.

При обучении математике в ходе самостоятельной работы происходит «опережающее отражение» формирования практических умений в решении математических задач:

получив минимальные образцы деятельности, студент самостоятельно (или в малой группе) определяет методы решения, сталкивается с проблемами содержательного, субъективного, временного характера [2].Такая самостоятельная работа существенно меняет отношение студентов к процессу изучения математических дисциплин: способствует зарождению интереса и повышению мотивации.

В данной статье мы рассмотрим организацию самостоятельной работы студентов для решения в процессе обучения математике профессионально-ориентированных задач. Такая самостоятельная работа представляет собой высшую форму учебной деятельности, предполагающую осознание студентами своих способностей, целей, способов и приемов изучения учебного материала, его приложения в профессиональной области, а также развитие познавательной самостоятельности, направленной на решение поставленной задачи.

Самостоятельная работа, организованная для решения профессионально-ориентированных задач, выполняет следующие функции: *образовательную,* т. к. позволяет получить, систематизировать и закрепить фундаментальные математические знания, необходимые для дальнейшей профессиональной деятельности; *развивающую,* поскольку направлена на развитие познавательных сил, навыков и умений, необходимых для профессиональной деятельности, в том числе навыков коллегиального взаимодействия; *воспитательную,* т.к. позволяет сформировать устойчивые мотивы учебной деятельности, культуру умственного труда, самоорганизации и самоконтроля, воспитать такие качества личности, как трудолюбие, требовательность к себе, самостоятельность, честность и др.

Самостоятельная работа студентов организуется на основе деятельностного подхода, сушность которого выражается тремя общими положениями: конечной целью обучения является формирование способа действия; способ действия может быть организован только в результате специально организованной деятельности, называемой учебной; механизмом обучения является не передача знаний, а управление учебной деятельностью [3]. Таким образом, самостоятельная работа по решению в процессе обучения математике профессионально-ориентированных задач организуется нами на основе компетентностного, профильного и деятельностного подходов. Она начинается с репродуктивных действий в процессе совместной деятельности на лекционных и практических занятиях, направленных на решение профессионално-ориентированных задач, и далее проходит через стадию преобразующих действий (осознанности и произвольности процессов) к стадии творческой деятельности (решение исследовательских задач).

Самостоятельная работа может быть индивидуальной и групповой. Индивидуальная используется для углубленного изучения и решения профессионально-ориентированных и исследовательских задач. Для ее организации должен быть создан учебно-методический комплекс, позволяющий студентам самостоятельно изучать приложения математических понятий и методов. Необходимо также разработать методический комплекс профессионально-ориентированных и исследовательских задач, который будет использоваться в различных формах обучения. [4]

Процесс обучения математике позволяет также внедрять активные групповые формы решения профессионально-ориентированных и исследовательских задач. Использование групповых технологий в практике вузовского обучения не только весьма желательно, но в определенном смысле обязательно. Однако для этого необходимо пересмотреть стандартный программный материал, определиться, в каких ситуациях использование групповой работы будет наиболее эффективно, придать отобранному материалу форму, предназначенную для применения групповой технологии, разработать сценарии групповой работы. [5]

Для каждого вида решаемой учебной задачи существует оптимальный диапазон размера группы, обеспечивающий максимальную эффективность ее деятельности. По наше-

му мнению, группа должна состоять не менее чем из трех участников, что препятствует возникновению непреодолимых спорных ситуаций, однако для развития творческой и исследовательской деятельности, формирования математической компетенции наиболее плодотворными являются группы из 5–6 студентов.

Групповая работа реализуется по-разному. Она может быть направлена на совместную деятельность, в которой все участники группы равноправны, а может быть организована с распределением обязанностей – «ролей». В первом случае (самый распространенный вариант) решение поставленной задачи, анализ и корректировка результатов выполняются сообща. Такая групповая работа способствуют развитию коммуникативных навыков и позволяет более эффективно участвовать в занятии «незаметным» студентам. Если группы формируются с распределением «ролей», то тогда каждый участник решает строго определенные задачи и несет полную ответственность за свою часть работы. По характеру взаимодействия второй метод в большей степени соответствует будущей профессиональной деятельности.

Формирование групп осуществляется преподавателем, или студентами. Если группы подбираются по желанию самих студентов, то у них появляется возможность «примерить» на себя понравившуюся «роль», прочувствовать ее достоинства и недостатки, задуматься, какие сложности при этом возникают, оценить собственную работу и работу группы в целом, что является важным элементом профессиональных умений. Если же группы формируют преподаватель, то каждый участник может оказаться в абсолютно новой для себя «роли», которая на первый взгляд покажется ему неподходящей и неинтересной. Однако этот опыт студенту не будет лишним и также позволит оценить компоненты и проблемы будущей профессиональной деятельности.

Самостоятельная работа малой группы с распределением «ролей» организуется нами при обучении математике студентов-менеджеров в Национальном исследовательском университете «Высшая школа экономики» (г. Перм). Основу будущей профессии составляет готовность к осуществлению организационно-управленческой деятельности. «Роли» определяются в соответствии с будущими профессиональными функциями: «руководитель», «помошник руководителя», «аналитик № 1», «аналитик № 2», «аналитик № 3», «наблюдатель».

Представим в общем виде сценарий работы группы. Преподаватель ставит «руководителю» задачу и выдает данные, характеризующие некоторый экономический процесс. Ставиться цель: построить экономическую модель задачи, решить задачу оптимальным способом, провести экономическую интерпретацию исходных данных и полученного результата.

«Руководитель» изучает задачу, а затем представляет ее своей группе, определяет фронт работы каждого участника, фиксирует обязанности и сроки выполнения. По ходу решения задачи «руководитель» осуществляет контроль, мотивировку и коррекцию рабочего процесса. На заключительном этапе – защищает работу перед преподавателем и остальными группами, при этом несет полную ответственность за результат.

«Помошник руководителя» после представления задачи составляет поэтапный план решения, проводит анализ литературы (лекций, учебников, учебно-методических пособий, интернет-источников). На основе этого анализа готовит краткий список необходимой литературы с указанием ссылок на соответствующие разделы. Если возникает необходимость, то «помошник руководителя» подключает к работе любого участника группы.

«Аналитик №1» изучает предоставленную «помощником руководителя» информацию, составляет черновой вариант решения задачи с необходимыми комментариями, замечаниями, предложениями, рассуждениями.

«Аналитик № 2» знакомится с предварительным решением «аналитика № 1», а затем детально его прорабатывает, но если решение считает неверным, то возвращает его на доработку с соответствующими замечаниями. На заключительном этапе «аналитик № 2» формулирует выводы и оценивает полученное решение.

«Аналитик № 3» знакомится с проделанной работой, по мере необходимости отправляет решение на доработку с подробными замечаниями. Кроме того, он исследует альтернативные решения и выбирает наиболее оптимальное, а затем окончательно оформляет работу и отчитывается перед «руководителем».

«Наблюдатель» фиксирует все положительные и отрицательные моменты выполненной работы, оценивает деятельность каждого члена группы в процессе решения поставленной задачи, а после зашиты работы знакомит участников группы со своими замечаниями. В роли «наблюдателя» может выступать как студент учебной группы, так и ведущий дисциплину преподаватель или его ассистент, а также независимый эксперт, например, преподаватель соответствующей экономической дисциплины.

Этапы решения профессионально-ориентированных в исследовательских задач в малых группах соответствуют этапам реализации организационно-управленческой деятельности: выявление проблемы, подлежащей решению; планирование и прогнозирование результата; сбор и анализ информации; разработка и расследование альтернативных решений; принятие организационно-управленческих решений в ходе групповой самостоятельной работы; оценка эффективности принятых решений. Таким образом развиваются организационно-управленческие компетенции будущих менеджеров, повышается академическая успеваемость и, как следствие, формируется готовность будущих выпускников к дальнейшей профессиональной деятельности.

Организационно-управленческая деятельность подразумевает коллегиальность действий в профессиональной сфере. Специальные формы и активные методы обучения (прежде всего, самостоятельная работа в малых группах) позволяют развить следующие прописанные в образовательном стандарте профессиональные компетенции (ПК).

**литература**


1. Педагогика и психология высшей школы. (Учебное пособие) / Под ред. М.В.Булановой-Топорковой. Ростов-н/Д: «Феникс», 2002.
2. Смирнов Е.И. Фундирование опыта в профессиональной подготовке и инновационной деятельности педагога. (Монография). Ярославль, 2012.
3. Атанов Г.А. Деятельностный подход в обучении. Донецк: ЕАИ-Пресс, 2001.
4. Логинова В.В., Плотникова Е.Г. Методическая система профессионально ориентированных задач в обучении математике будущих менеджеров // Вестник Томского государственного педагогического университета. 2015. Вып. 8 (161).
5. Калинин С.И., Ястребов А.В. Избранные вопросы математического анализа и методики его преподавания: деятельностный аспект. (Монография). Киров: Изд-во «Радуга– ПРЕСС», 2015.


**ALİ MƏKTƏBLƏRDƏ RİYAZİYYATIN ÖYRƏNİLMƏSİNDƏ**
**KİÇİK QRUPLARLA MÜSTƏQİL İŞİN TƏŞKİLİ**

**xülasə**


Məqalədə ali məktəblərdə riyaziyyatın kiçik qruplarla tədrisindən söhbət gedir. Qeyd olunur ki, riyaziyyat tədrisinin bir forması kimi kiçik qruplarda müstəqil iş, təhsil müddətinin çatışmazlığı şəraitində təhsil prosesinin peşəkar yönümünü həyata keçirmək, təhsilin keyfiyyətini yaxşılaşdırmaq, gələcək mütəxəssislərin peşəkar bacarıqlarını formalaşdırmaq imkanı verir. Tələbələrin təlim nümunəsi üzrə qrup işi ssenarisinin ümumi görünüşü təqdim edilir.


**THE TEACHING OF MATHEMATICS IN THE UNIVERSITY,**
**INDEPENDENT WORK IN SMALL QROUPS**

**summary**


The article discusses the organization of independent work in small groups as form of teaching mathematics in hinger education of the educational process in the conditions of deficit of educational time, effektively improve the quality of education to from professional competence of fiture specialists. Shows a General view of scenario of qroup work in the traning of students-managers.

# NƏTİCƏYÖNÜMLÜ TƏHSİLDƏ VALİDEYNLƏRİN İŞTİRAKI

**Xalidə Həmidova,**
ADPU-nun müəllimi



**açar sözlər:** məktəbəqədər təhsil, valideyn, nəticəyönümlü təhsil, sosial oyunlar, metod;
**ключевые слова:** дошкольное образование, родитель, результативное, образование, социальные игры, методы и приемы ;
**key words:** preschool, parent, conclusions, education, social, game, method.

Məktəbəqədər təhsilin inkişaf etdirilməsi sosial proses olmaqla pedaqoji mahiyyəti məktəbəqədər müəssisələrdə aparılan işlərlə müəyyənləşir. Məktəbəqədər təhsil müəssisələri müxtəlif kateqoriyalı valideynlərlə əlaqədə olduğundan sosial əlaqələr şəraitində işləyirlər.

Məktəbəqədər təhsil müəssisəsi təkcə təlim və tərbiyə məsələlərini deyil, həm də uşaqların sosial problemlərini həll etmək imkanlarına malik təşkilatdır. Onun əsas vəzifəsi uşaqların ahəngdar inkişafını, sosiallaşmasını təmin etməkdir. Valideynlərin uşaqlara nə qədər vaxt sərf etdiklərini, onların ünsiyyət formasını, mütaliəsini və s. müəyyənləşdirir. Pedaqoq müxtəlif ailə tipləri ilə işləməli olur. Bu, şəhər və ya kənd ailəsi, ənənəvi, müasir, çoxuşaqlı, natamam, qaçqın ailəsi, miqrasiya etmiş, hərbçi ailəsi, uşağı qəyyumluğa, övladlığa götürmüş, yetkinlik yaşına çatmamış ailə, "balaca ana" və s. ailə tipləridir.

Məktəbəqədər təhsil müəssisələrinin pedaqoji mühiti təlim-tərbiyə prosesinin təşkili baxımından məktəblə müqayisədə bəzi üstünlüklərə malikdir:

- valideynlərlə müntəzəm əlaqə qura bilmək;
- uşağın dinamik inkişafda olması üçün əhatəli tədbirlər görmək;
- təlimin oyun xarakteri və simvolik nəticələri ilə kifayətlənərək, uşağın fiziki və psixoloji yorğunluğunun qarşısını almaq, bu yolla onların dinamik inkişafını həyata keçirmək;
- məşğələlərin texnoloji cəhətdən zənginliyindən, resurslardan, əyani vəsaitlərdən müntəzəm istifadə etmək.

Nəticəyönümlü təhsilin təkmilləşdirilməsi uşaqların hər bir yaş dövrü üzrə müvafiq inkişaf göstəricilərinə malik olmalarına imkan verən təlim fəaliyyətidir. Bu prosesdə valideyn mütləq iştirak etməlidir. Məktəbəqədər təhsil müəssisələri nəticəyönümlü təhsilə nail olmaq məqsədilə valideynlərlə apardıqları işdə öz funksiyalarını o zaman yerinə yetirə bilər ki, onun fəaliyyəti sosial sifarişin qeyri-fəal təmin olunmasına deyil, fəal subyektinə istiqamətlənsin. Valideynlərə müxtəlif inkişafetdirici sahələr üzrə xidmətlər təklif edərək, onların köməyi ilə reallaşdırılır:

– cəmiyyətin tərbiyə ənənələrinin inteqrasiyası, Vətənə, anaya, torpağa, təbiətə xüsusi münasibət, uşaqların mənəvi tərbiyəsi təcrübəsinin genişləndirilməsi və yayılması üçün münasib şəraitin yaradılması;

– tədris prosesinə yaşlı nəslin də cəlb edilməsi ilə tərbiyə subyektlərinin statusunun genişlənməsi nəticəsində onlar interaktiv ünsiyyətin fəal iştirakçılarına çevrilməsi.

Əlverişli təlim şəraitinin yaradılması nəticəyönümlü təhsilin səmərəliliyinin əsas amili kimi qəbul edildiyindən bu proses yalnız məktəbəqədər müəssisələrdə deyil, ailədə də düzgün təşkil edilməlidir. Uşaqlar üçün pedaqoji şəraitin təşkili müasir sosial-iqtisadi vəziyyətdə keyfiyyətli təhsilə nail olunmasına xidmət edir. Əslində, hər bir uşaq üçün ailədə sosial inkişaf şəraitinin yaradılması qeyd etdiyimiz problemin həllinin tərkib hissəsidir.

Məktəbəqədər təhsil müəssisəsində aparılan təlim-tərbiyə işlərindən təsirsiz ötüşməyən müxtəlif xarakterli digər problemlər yaranır:

– valideynin, psixo-pedaqoji mədəniyyətin lazımi səviyyədə olmaması;

– maddi və məişət çətinlikləri ilə bağlı yaranan ailədaxili münaqişələrin uşaqların psixikasına mənfi təsiri;
– valideynin tərbiyə metodlarının uyğunsuzluğu;
– valideynlərin uşaqla ünsiyyətə yetərincə vaxt ayırmamaları;
– ailədə uşağın asudə vaxtının səmərəli təşkil olunmaması;
– uşaqların bacarıq və vərdişlərinin inkişafına, onlarda bir sıra sosial keyfiyyətlərin formalaşmasına, ümumilikdə sosiallaşmasına laqeydlik;
– bütün bu sadalanan problemlər nəticəsində valideynlərlə uşaqlar arasında münaqişələrin yaranması.

Nəticəyönümlü təhsildə valideynlərin iştirakının təmin edilməsi, uşaqların məktəbə hazırlığında onların fəallığının artırılması vacib şərtdir.

Nəzərdə tutulan tədbirlər:
– valideynlərlə birlikdə əyləncə və mədəniyyət mərkəzlərinə, başqa sosial istirahət obyektlərində birgə vaxt keçirmək – "sosiallaşma günü";
– layihə əsasında "Mənim bağçam bağçaların ən yaxşısıdır" mövzusunda müsabiqənin təşkili;
–zooparka ekskursiyanın təşkili ;
–"Gözəl təbiət" mövzusunda təsviri fəaliyyət müsabiqəsinin təşkili;
–uşaqların ad günlərini birlikdə qeyd etmək;
"Bunlar mənə lazımdır!" devizi altında ailələrdə məişət tullantılarından (qutu, konfet kağızları, parça qırıqları, kibrit çöpləri, salfet və s.) istifadə yolu ilə əl işlərinin sərgisinin təşkili.

Valideynlərlə metodik iş aşağıdakı kimi təşkil olunur:

*Sosiallaşma günü* müxtəlif mövzularda (milli bayramlar, ad günləri, yubileylər, mərasimlər, mədəniyyət, incəsənət, elm, təhsil sahəsində) keçirilə bilər. *Qonaq otağı* adlı tədbir (yaradıcı, intellektual, pedaqoji) müstəqil ünsiyyət, maraqların paylanması, özünüifadə tələbatının ödənilməsi məqsədi daşıyır. *Qiyabi səyahət, ya vizualizasiyada* iştirakçılar və kollektiv tərəfindən mərkəz yaradılır. *Debatlarda* iştirakçıların əvvəlcədən hazırlaşdıqları mövzular üzrə formal mübahisələr təşkil edilir. *Yaradıcılıq emalatxanası* bilik və bacarıqların səmərəli ötürülməsi, təlim-tərbiyə təcrübəsinin mübadilə formasıdır. *Pedaqoji praktikum* uşaqların tərbiyəsi və inkişafın prosesində əldə edilmiş pedaqoji bacarıqların yaradılması, problemlərin səmərəli həlli üçün tətbiq edilən yolların işlənməsi, pedaqoji məşqdir. *Akvarium* texnikası diskussiyanın bir növü olmaqla, məzmunun daha çox fikir ziddiyyətləri, düşüncə müxtəlifliyi və münaqişələr zəminində aydınlaşdırılmasından ibarətdir. *Tok-şouda* diskussiya daha çox sayda iştirakçılarla aparılır. *Konfrans* tərbiyəvi işin mürəkkəb formalarından olub, elmi metodologiya əsasında hazırlanaraq təşkil edilir. *Dəyirmi masa* iştirakçıların bərabərhüquqluluğu şəraitində aparılır. *Nümunəvi valideyn* tədbiri tərbiyə üslubuna görə nümunəvi, yaradıcı, mədəni valideynlərin ailə təcrübəsi ilə tanışlıq məqsədilə keçirilir. *Açıq mikrofon* valideynlərin öz fikirlərini başqalarına müstəqil, aydın, cəsarətlə çatdırmalarına xidmət edir. *Seminar* qrup məşğələlərinin xüsusi forması olub, qoyulmuş mövzu ilə bağlı fəal iştirak tələb edir. *Rollu oyunlar* müxtəlif həyati situasiyaların oynanılmasıdır. *Şifahi jurnal* iştirakçılar tərəfindən keçirilən, müxtəlif sahələr üzrə vacib informasiyaların şifahi və emosional şəkildə çatdırılması prosesidir. *Fəlsəfə stolu* mürəkkəb tərbiyəvi tədbirlərdən olub, iştirakçıların dünyagörüşünə təsir etmək üçün keçirilir. *Həmrəylik yarmarkası* iştirakçıların hər hansı sahə üzrə hazır bilik və bacarıqlarının mübadiləsi təşkil edilir.

Yuxarıda göstərilənlər valideynlərdən vəzifələrinə yeni yanaşma, uşaqlardan müxtəlif vəzifələri həyata keçirmələrini tələb edir. Yaşlılar sanki "repetitor", uşaq isə "düşünən icraçı" rolunu oynayır. *Repetitor* vəzifəsində çıxış edən valideyn uşağı verilmiş yanaşma yolları ilə istiqamətləndirir. Valideynlər əvvəlcə uşaqlara verilmiş tapşırığı öz sözləri ilə izah etməyə səy göstərirlər. Bu, ilk məntiqi addım, tapşırığın, problemin müəyyənləşdirilməsidir.

Valideynlər mümkün informasiya resurslarının müzakirəsində də övladlarına kömək edə bilərlər. Bundan sonra onlar birlikdə səmərəli resursların axtarılması, informasiyanın araşdırılma-

sı, strategiyaların inkişaf etdirilməsi üzərində düşünürlər. Bu mərhələ *məkan və informasiya resurslarına keçid* mərhələsi kimi xarakterizə edilir.

Məkan və informasiya resurslarına keçid mərhələsi tapşırığın həlli zamanı tez-tez təkrarlana bilər. Uşaqlar ilk dəfə tədqiqatçılaq fəaliyyətinə cəlb olunarkən lazımi məlumatları əldə edə bilərlər. Valideynlər *beyin həmləsi* (əqli hücum) priyomu vasitəsilə, başqa mənbələrdə də informasiya axtararlar. Yuxarıda göstərilən məqamlar onu sübut edir ki, valideynlər təhsil prosesində öz uşaqlarının əvəzolunmaz tərəfdaşı kimi, onları həyata hazırlamaqda əvəzsiz rol oynayırlar.

Valideynlər övladlarının müxtəlif sahələr üzrə inkişaf xüsusiyyətlərinə bələd olmaq üçün test tapşırığı həll etməlidirlər. Bunun üçün uşaqların məktəbə hazırlığının yoxlanılmasında geniş tətbiq edilən Kern–Yerasek testindən istifadə olunması məsləhətdir. Məqsəd altı yaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu test vasitəsilə valideynlərin öz uşaqlarının məktəbə nə dərəcədə hazırlıqlı olduqlarını müəyyənləşdirmələridir.

- sosial-psixoloji hazırlığın diaqnostikası;
- məktəbə münasibət;
- təfəkkür və nitq;
- obrazlı təfəkkür;
- müəllimin tapşırığını dinləmək və yerinə yetirmək bacarığı;
- tədris prosesində müstəqillik dərəcəsinin müəyyən edilməsi;
- uşağın ətrafdakı insanlarla ünsiyyəti;
- kiçik əl hərəkətlərinin (motorikanın) inkişafı;
- fiziki hərəkətlərin müşahidəsi;
- ətraf aləm haqqında təsəvvürlərin diaqnostikası;
- texniki hazırlığın diaqnostikası.

***I.Sosial-psixoloji hazırlığın diaqnostikası.*** Uşaqla ana dilində söhbət aparılır. Belə söhbətlər psixodiaqnostik şəraitlə tanış olmağa imkan verir. Uşaq çox utancaq olarsa, prosesdə söhbətin gedişində valideynlər onun arxasında, yanında əyləşə bilərlər.

Bilik ehtiyatı:

- Sənin adın nədir?
- Neçə yaşın var?
- Valideynlərinin adı nədir?
- Hansı şəhərdə (kənddə) yaşayırsan?
- Hansı ev heyvanlarını, vəhşi heyvanları tanıyırsan?
- İlin hansı fəslində ağaclar yarpaqlayır?
- Gündüz gecədən nə ilə fərqlənir?

Cavablar qiymətləndirilərkən düzgün olanların qarşısına “+” işarəsi qoyulur:

Düzgün cavablar:

1–4-cü suallara qısa, düzgün cavablar;
5-ci sual: ən azı iki ev, iki vəhşi heyvanın adını çəkmək;
6-cı sual: “Yazda, qış qurtaranda”;
7-ci sual: “Gündüz işıqlı olur, gecə qaranlıq. Gündüz günəş çıxır, gecə ay”.

*Yekun:* Yüksək səviyyə – 7–8 (+ işarəsi), orta – 5–6(+ işarəsi), aşağı – 4(+ işarəsi) və daha az.

***II. Məktəbə münasibət.***

1. Məktəbə getmək istəyirsənmi?
2. Məktəb həyatında sənə nələr maraqlı görünür?
3. Necə bilirsən: evdə, ananla təhsil almaq yaxşıdır, yoxsa məktəbdə müəllimlə?

Düzgün cavablar:

1. “Bəli”.
2. “Oxuyacağam, məsələ həll edəcəyəm, şəkil çəkəcəyəm, tapşırığı yerinə yetirəcəyəm”.

3. “Məktəbdə müəllimlə”.

***Yekun***: Yüksək səviyyə – 3 (+ işarəsi), orta – 2(+ işarəsi), aşağı – 1(+ işarəsi), 0.

***III. Təfəkkür və nitq.***

1. Qrammatik konstruksiya anlayışı: *Tofiq kitabı oxudu, sonra isə kinoya getdi.*

Cümlə 2 dəfə aramla təkrar edilir, sonra uşağa suallar verilir: *Tofiq əvvəl nə etdi – kinoya baxdı, yoxsa kitab oxudu?*

2. Şəkil üzrə hekayə.

Uşağın qarşısına dağınıq halda 4 şəkil qoyulur: a) *Oğlan yataqdan qalxır.* b) *Oğlan yuyunur.* c) *Oğlan səhər yeməyini yeyir.* ç) *Oğlan məktəbə gedir.*

Uşağa şəkilləri ardıcıllıqla düzmək və izah etmək təklif olunur.

Düzgün cavablar:

1. Hərəkətlərin ardıcıllığını düzgün deyir.
2. Şəkilləri düzgün yerləşdirir və izah edir.

*Yekun:* Yüksək səviyyə – 2 (+ işarəsi), orta – 1(+ işarəsi), aşağı – 0.

***IV. Obrazlı təfəkkür.***

1. kəsilmiş şəklin yığılması;
2. insan rəsmi.

Düzgün cavablar:

1. Şəkli düzgün yığır.
2. Rəsmi düzgün çəkə bilir.

İnsan rəsmində 7 əsas, 3-dən az olmayaraq ikinci dərəcəli detallar çəkilməlidir. Burada *baş, göz, qulaq, burun, qollar, bədən, ayaqlar, barmaqlar* əsas; *saç, papaq, ayaqqabı, paltar, boğaz* ikinci dərəcəli detallardır. Uşaq 5 və daha az əsas hissəni təsvir etsə, “–“ işarəsi qoyulur.

***V. Müəllimin tapşırığını dinləmək və yerinə yetirmək bacarığı.***

*Qrafik imla.* İmlanı yazdırmazdan əvvəl onu bu anlayışla tanış edirik: “Mənə diqqətlə qulaq as. Bu xətlərin üzərində mənim göstərdiyim istiqamətdə xətlə çəkəcəksən. İndi qələmi başlanğıc nöqtənin üzərinə qoy və komandaya uyğun hərəkət etdir: iki dama sağa, bir dama aşağı, bir dama sola” və s. Birinci nöqtədən başlanan xətt tərbiyəçi-müəllimin köməyi ilə çəkilir. İki və üçüncü nöqtələrdən sonra isə uşaq, xətti müstəqil çəkir. İmla damalı kağız üzərində yerinə yetirilir. Veriləcək komandaların ardıcıllığı hazırlanır. Bu halda nəticəni yoxlamaq asan olur. Əgər uşaq *sağ, sol, yuxarı, aşağı* anlayışları ilə tanış deyilsə, yoxlamanı xüsusi hazırlıqdan sonra aparmaq lazımdır.



***VI. Tədris prosesində müstəqillik dərəcəsinin müəyyənləşdirilməsi.***

Uşağa tapşırıq verilir: “Karandaşı naxışın sonuna qoy və naxışı davam etdir. Yeni naxışlar çək”. Naxış olduğu kimi təkrarlanarsa, deməli, müstəqillik zəifdir, yaxud yoxdur. Əgər uşaq istədiyi başqa naxışı çəkərsə, onda müstəqillik var.

Yekun: yüksək səviyyə – hər iki naxış tapşırığa uyğundur; orta səviyyə – naxışlar tapşırığa uyğundur, lakin 3–4 səhvə yol verilib; aşağı səviyyə – naxışlar tapşırığa uyğun deyil.

***VII. Uşağın ətrafdakı adamlarla ünsiyyəti.*** Mövzu ilə bağlı uşağa bir neçə sual verilir. Düzgün cavabların qarşısına “+” işarəsi qoyulur.

***VIII. Kiçik əl hərəkətlərinin ( motorikanın) inkişafı.***

Uşaq karandaşı xəttin əvvəlinə qoyub, ortasına doğru aparır. Sanki o, maşının izini çəkir. Yolun forması mümkün qədər dalğavari götürülməli və uşaq tərəfindən bu forma olduğu kimi təkrarlanmalıdır. Xətti çəkərkən karandaş kağızdan ayrılmamalıdır. Nümunə:



*Yekun:*Yüksək səviyyə – karandaş xətdən kənara çıxmayıb, 1–2 dəfə kağızdan aralanıb; orta səviyyə – xətdən kənara çıxmayıb, 3 dəfə kağızdan aralanıb; aşağı səviyyə – 3 dəfə xətdən kənara çıxıb, xətt nümunədən fərqlənir, səhvdir. Xətt çox zəifdir, yaxud kağız cırılıb, həddən artıq bərk basılaraq çəkilib.

***IX. Fiziki hərəkətlərin müşahidə olunması.***

Uşağa hər hansı bir əşyanı götürüb, başqa yerə aparmaq təklif olunur: kitabı, fincanı başqa otağa apararkən onun hərəkətləri müşahidə edilir.

*Yekun:* Yüksək səviyyə – hərəkətlər təmkinli və dəqiqdir; orta-təmkinlidir, ya tərəddüdlə, ya da bir qədər tələsik hərəkət edir; aşağı-əsəbi, qeyri-sabit, artıq hərəkətli yeriş, koordinasiyanın pozulması, ayaqlarını yerə bərk vurur, tez-tez gedir.

**Psixoloji müayinə protokolu**

Uşağın soy adı, adı, atasının adı: ....................................................................

Təvəllüdü:........................................................................

Uşaq bağçasına gedib-getməməsi haqqında məlumat...................................................

| № | *Tapşırıqlar* | Yüksək | Orta | Aşağı |
|---|---|---|---|---|
| 1. | bilik ehtiyatı; | | | |
| 2. | məktəbə münasibət; | | | |
| 3. | təfəkkür və nitq ; | | | |
| 4. | obrazlı təfəkkür; | | | |
| 5. | müəllimin tapşırığını dinləmək və yerinə yetirmək bacarığı; | | | |
| 6. | tədris prosesində müstəqillik dərəcəsinin müəyyən edilməsi; | | | |
| 7. | uşağın ətrafdakı adamlarla ünsiyyəti; | | | |
| 8. | kiçik əl hərəkətlərinin (motorikanın) inkişafı; | | | |
| 9. | fiziki hərəkətlərin müşahidə olunması; | | | |
| 10. | qeyd; | | | |
| 11. | psixoloji nəticə. | | | |

Psixoloji nəticədə uşağın şəxsiyyətinin inkişafına, psixoloji korreksiyanın aparılmasına dair tövsiyələr verilir.

***X.Ətraf aləm haqqında təsəvvürlərin diaqnostikası.***

| | Suallar | Cavablar | Düz | Səhv |
|---|---|---|---|---|
| 1. | Hansı böyükdür – at, yoxsa it? | at | 5 | –5 |
| 2. | Günorta yeməyi necə adlanır? | nahar | 5 | –3 |
| 3. | Hava gündüz işıqlı olur, yoxsa axşam? | gündüz | 3 | –4 |
| 4. | Hansı mavi rəngdədir – səma, yoxsa otlar? | səma | 5 | –4 |
| 5. | Gilas, armud, gavalı nə adlanır? | meyvə | 1 | –1 |
| 6. | Nə üçün keçidlərdə işıqfor quraşdırılır? | qəza olmasın deyə | 5 | –1 |
| 7. | Bakı, Sumqayıt, Gəncə rayon, yoxsa şəhər adlanır? | şəhər | 5 | –1 |

| | | | | |
|---|---|---|---|---|
| 8. | Saat nə üçün lazımdır? | vaxtı bilmək üçün | 5 | –3 |
| 9. | İnəyin balasına *buzov* deyilir. Bəs itin, qoyunun balasına nə deyilir? | küçük, quzu | 4 | –1 |
| 10. | İt pişiyə oxşayır, yoxsa danaya? | pişiyə | 1 | –3 |
| 11. | Maşına əyləc nə üçün qoyulur? | onu dayandırmaq üçün | 5 | –1 |
| 12. | Çəkic, balta, kəlbətin nədir? | alət | 3 | –2 |
| 13. | Bıçaq və çəngəl hansı əlamətlərinə görə fərqlənir? | bıçaq hamar, çəngəl dişli | 3 | –2 |
| 14. | Futbol, güləş, tennis necə adlanır? | idman növü | 3 | –2 |
| 15. | Nəqliyyat növlərini say. | maşın, gəmi, təyyarə | 4 | –2 |
| 16. | Cavan və yaşlı adam hansı əlamətlərinə görə fərqlənir? | cavanın qaməti dik, cəld; yaşlının qaməti əyri, ləng | 4 | –2 |
| 17. | İnsanlar nə üçün idmanla məşğul olurlar? | sağlamlıq üçün | 4 | –2 |
| 18. | Nə üçün evdən, bağçadan, məktəbdən qaçmaq pis hərəkətdir? | böyüklər həyəcan keçirir, narahat olurlar. | 5 | –2 |
| 19. | Təzə aldığımız paltarın üstündə etiket olur. Bu, nə üçündür? | O bildirir | 5 | –2 |

***Yekun:*** 24 bal və daha çox – *əla*
14, 23 bal – *yaxşı*
0–13 bal – *orta*
–10 –1 – *aşağı*
–11 və daha az bal – *çox aşağı*

***XI. Texniki hazırlığın diaqnostikası.***

Testin aparılması üçün iki səhifə ağ kağız götürülür. 1-ci səhifənin yuxarısında uşaq haqqında bu məlumatlar toplanır.

1. Adı, soyadı.
2. Təvəllüdü, ünvanı.
3. Diaqnostikanın keçirilmə tarixi.

Uşaq verilən tapşırıqları kağızın aşağı hissəsində yerinə yetirməyə başlayır.

1. Kişi şəkli çəkmək. (10 dəq.)
2. Verilmiş sözləri üzündən köçürmək . (10 dəq.)
3. Nöqtələri köçürmək. (10 dəq.)

Hər tapşırıq 2–3 dəqiqə ərzində uşağa izah edilir.

**I tapşırıq.** "Sən burada kişi şəkli çəkməlisən. Bacardığın kimi çək". Bu sözlərdən başqa heç nə deyilmir, səhvlər düzəldilmir. Uşaq kömək üçün müraciət etdikdə "Bacardığın kimi çək." cavabı verilir. Əgər uşaq çəkmək istəmirsə, onu bir qədər ruhlandırmaq lazımdır, məsələn, belə demək olar: "Başqa uşaqlar da belə şəkil çəkiblər. İstəsən, sən də çəkə bilərsən". Qadın şəkli çəkmək istəyirsə, işi başa çatdırmağa imkan verilir. Bundan sonra kişi şəkli çəkməyi yenidən təklif etmək olar. Bu tapşırıq 1-ci səhifədə yerinə yetrilir.

**II tapşırıq.** Vərəqin yuxarı hissəsində 3–4 sözdən ibarət sadə cümlə yazılır. Uşağa müraciət olunur: "Buradakı sözləri olduğu kimi köçür".

**III tapşırıq.** II tapşırığın aşağısında nöqtələr qoyulur. Həmin nöqtələri olduğu kimi köçürmək tapşırılır.

1) •••• •••• ; **2)** •••••••; 3)•••• ••

Kern–Yerasik testi üzrə nəticələrin qiymətləndirilməsində aşağıdakı nəticələr və ballar nəzərdə tututlur:

15 bal – Uşaq tibbi psixoloji müayinədən keçməlidir.
10–14 bal – Uşaq məktəbə hazır deyil.
6–9 bal – Uşaq məktəbə qismən hazırdır.
3–5 bal – Uşaq məktəbə hazırdır.

**Kern–Yerasik testi üzrə nəticələrin qiymətləndirilməsi**

(Hər tapşırıq 1-dən (ən yaxşı) 5-ə (ən pis) qiymətləndirilir.)

| | 1 bal | 2 bal | 3 bal | 4 bal | 5 bal |
|---|---|---|---|---|---|
| I tapşırıq | Fiqur baş, bədən, ayaqlardan ibarətdir. Başda saç, gözlər, qulaqlar, burun, ağız çəkilir. Qollar beşbarmaqlı əllə tamamlanır. Ayaqlar aralı çəkiir, kişi paltarının əlaməti verilir. Hissələr arasında əlaqə var. | 1 bala verilən tələblər yerinə yetirilir, ancaq hissələr arasında əlaqə yoxdur.Boğaz, saç, barmaqlardan birini çəkməyə bilər. | Fiqur baş, bədən, əl-ayaqdan ibarətdir. Əl və ayaqlar xətlərlə çəkilib. Qulaq, saç, paltar, barmaqlar yoxdur. | Baş və bədənin təsviri çox sadədir. Əl və ayaqlar xətlərlə çəkilib. Bədən aydın çəkilməyib. | Cızma-qara edib. |
| II tapşırıq | Nümunə aydın, dəqiq təkrarlanıb. Hərflər nümunədən iki dəfə böyük ola bilər. | Sözlər aydın oxunur, hərflərin ölçüsü müxtəlifdir. | Hərflər iki qrupa bölünüb. Ən azı 4 hərf anlaşıqlı çəkilib. | Yalnız iki hərf nümunəyə oxşardır. Sözlər bütövlükdə yazı təsiri bağışlayır. | Cızma-qara edib. |
| III tapşırıq | Nümunə olduğu kimi təkrarlanır. Bir nöqtə sətirdən, yaxud sütundan kənara çıxıb. Nöqtələrin ölçüsü nümunədən kiçik (1,5 dəfə) olmalı deyil. Nöqtələr nümunəyə paraleldir. | Nöqtələrin sayı və quruluşu nümunəyə uyğundur. Sətirlə sütunların arasında verilmiş nöqtələrin sayı 3-dən çox deyil. | Şəkil nümunəyə oxşayır,ancaq eninə və hündürlüyünə görə nümunədən 2 dəfə böyükdür. Nöqtələrin sayı 7-dən 20-yə qədərdir. | Şəkil nümunəni xatırladır, ancaq nöqtələr nümunəyə uyğun gəlmir. Sayı və ölçüsü gözlənilməyib. | Cızma-qara edib. |

***Qeyd:*** Hər bir tapşırığın icrası zamanı uşaq müşahidə olunur, qeydlər aparılır. Uşağın hansı əl ilə işləməsi, sakit oturması, yaxud vurnuxması, qələmi düz, yaxud səhv tutması, tez-tez əlindən salması protokolda göstərilir. Ona deyilmiş istiqamətverici sözlər, tәriflər və s. qeyd edilir.

**ədəbiyyat**


1. Cəfərova L.K., Qafarova İ. Məktəbəqədər təhsilin müasir problemləri. Bakı: "Kövsər", 2015.
2. Əfəndiyeva Ü.A. Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi. Bakı: "MBM" , 2007.
3. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010.
4. Müasir uşaq bağçasında təlimin təşkili. Bakı: "Apostrof", 2011.


**ОРГАНИЗАЦИЯ УЧАСТИЯ РОДИТЕЛЕЙ В РЕЗУЛЬТАТИВНОЙ ОБРАЗОВАНИИ**


**резюме**

Цель этой статьи заключается в том, выяснить, как родители проводят время со своими детьми, сотрудничают ли они с детьми, какая у них формы общения с ребенком, как проводит ребенок свободное время и т. д.. Обсуждаются способы работы педагогов с различными типами семей: традиционная, современная, многодетная, неполная, семья беженцев, мигрирующая, семья военных, семьи-опекуны или усыновители, несовершеннолетние семьи, «несовершеннолетная мама», национальная, или интернациональная семья и т. д. Показывает способы работы с семьями. Так же рассказывается о проведении теста «Kern-Yerasek», чтобы узнать, насколько хорошо родители знают характеристик своих детей, уровень развития в разных областях.


**ORGANIZATION OF PARENTS 'PARTICIPATION IN RESULTING EDUCATION**


**summary**

The purpose of this article is how parents spend time with their children, whether they have a cooperation, a form of communication, a parent's communication with the child, a leisure time, a child, and so on. investigated. The ways in which educators work with different types of families are discussed. Traditional, modern, multi-child, incomplete, refugee family, migrated, military family, custodial or adoptive parents, juvenile families, "little mother", national family, etc. shows ways to work with families. Parents will show ways to use the "Kern-Yerasek Test" to learn how well they are aware of the characteristics of their children, the level of development in their various fields.

# MƏKTƏBDƏ TƏHSİLİN KEYFİYYƏTİ MÜHÜM ŞƏRTDİR.

**Sitarə Məmmədova,**
Bakı şəhəri, 60 nömrəli tam orta məktəbin müəllimi



Bütün dövrlərdə təhsilin keyfiyyəti cəmiyyətin diqqət mərkəzində olmuş və onun təkmilləşdirilməsi, inkişafı böyük əhəmiyyət kəsb etmişdir. Təhsil və cəmiyyət həmişə əlaqədar olmuş, biri digərinin inkişafına rəvac vermişdir.

Hər bir cəmiyyətin özünəməxsus inkişaf konsepsiyası olmuş və ona uyğun təhsil sferası formalaşmışdır. Müasir dövrdə təhsilin keyfiyyəti dedikdə şagirdlərin standartlara uyğun bilik səviyyəsi başa düşülür. Eyni zamanda, buraya sadəcə bilik və bacarıqlar deyil, həm də şəxsiyyəti şərtləndirən keyfiyyətlər, dəyərlər, səriştələr, münasibətlər onun inkişafında mühüm atributlar kimi qiymətləndirilir. Bütün bunlar bugünkü təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir.

Təhsilin keyfiyyətinə bir neçə parametrdən baxıla bilər. Bu barədə danışarkən Bakı şəhəri, 60 nömrəli tam orta məktəbin iş təcrübəsindən bəhs etmək, orada həyata keçirilən işlərdən söhbət açmaq istərdik. Məktəbə Fayaz Hüseynov rəhbərlik edir.

Məktəbdə çalışan müəllim və şagirdlərin səviyyəsi haqqında fikir söyləyək. Müəllim səviyyəsində təhsilin keyfiyyəti dedikdə, şagirdlərin müasir metod və üsullardan istifadə yolu ilə biliklərə, bacarıqlara yiyələndirmək nəzərdə tutulur.

Şagird səviyyəsində təhsilin keyfiyyətinə isə məzmunun mükəmməl şəkildə mənimsənilməsi və qazanılan bilikləri tətbiqetmə bacarıqları nəzərdə tutulur. Təhsilin keyfiyyəti həmişə pedaqoji kollektivi düşündürən məsələlərdəndir.

Məktəbimizdə özü üzərində daim çalışan, ixtisasını dərindən bilən, peşəsini sevən, müasir təlim nəzəriyyələrini, pedaqoji-psixoloji yenilikləri izləyən təcrübəli müəllimlər fəaliyyət göstərirlər. Onlar öz işlərini günün tələbləri səviyyəsində qurmaq üçün müasir təlim texnologiyalarından bacarıqla istifadə edir, şagirdlərə fərdi yanaşır, onlarla əməkdaşlıq münasibətləri qururlar. Hüseynova Yeganə (Azərbaycan dili və ədəbiyyat); Hacıyeva Esmiralda (riyaziyyat); Baxşıyeva Nüşabə (ingilis dili) belə müəllimlərdəndir.

**Məktəbin idarəolunmasına yeni yanaşma.** Təhsil daim insanların daha yaxşı yaşamalarına, əməyinin yüngülləşdirilməsinə, cəmiyyətin tərəqqisinə, inkişafına xidmət edir. Ona görə də strateji hədəflər əvvəlcədən müəyyənləşdirilməli, məktəbin fəaliyyəti gələcəyə istiqamətlənməli, inkişafı qabaqlamalıdır.



Məktəb rəhbəri tədris ilinin əvvəlindən obyektiv inkişaf dinamikasını müəyyənləşdirməklə, işlərini ona uyğunlaşdırmalı, demokratikləşdirmədə, idarə olunmada müəllimlərlə yanaşı, valideynlərin və ictimaiyyət nümayəndələrinin fəal iştirakını təmin etməlidir.

Pedaqoji kollektivimiz valideynlərlə sıx əməkdaşlıq edir. Bütün siniflərdə fəaliyyət göstərən valideyn komitələri öz işlərini planlaşdırarkən məktəb rəhbərliyi ilə işgüzar görüşlər keçirir, təhsilin keyfiyyəti və

idarəçilik problemləri ətrafında müzakirələr təşkil olunur. Məktəbdə bu istiqamətdə aparılan işlər təlim-tərbiyə prosesinin keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir. Bu zaman pedaqoji kollektivin, valideynlərin iştirakı mühüm şərtdir. Məktəb rəhbəri fəaliyyətləri koordinə etməklə işi elə tənzimləməlidir ki, saat mexanizmi kimi işləyən bir sistem qurulsun, burada təhsilin məqsəd və vəzifələri cəmiyyətin tələbləri ilə üst-üstə düşsün. Cəmiyyət hər bir təhsil pilləsinin sonunda ona hansı bilik və bacarıqlara yiyələnmiş, hansı dəyərlərə malik vətəndaş lazım olduğunu əvvəlcədən diktə edir. Məktəbin idarəetmə sistemi də bu işlərin yüksək səviyyədə həyata keçirilməsini təmin etməlidir.

Məktəbdə vaxtaşırı, planlaşdırılmış şəkildə qiymətləndirmə və monitorinqlər keçirilir. Pedaqoji heyətin fəaliyyəti bunların əsasında təhlil edilir, təcrübəli pedaqoqların işləri qiymətləndirilir, gənc müəllimlərə tövsiyələr verilir, təlim prosesində yol verilmiş nöqsanların aradan qaldırılması üçün tədbirlər planı hazırlanır.

Məktəb rəhbəri müəllimlərin müsbət təşəbbüslərini dəstəkləyir və onların həyata keçməsinə kömək göstərir.

60 nömrəli məktəbdə müəllimlərin öz ixtisas səviyyələrini yüksəltmələri və peşəkarlıqlarını artırmaları üçün şərait yaradılır. Onların yeni pedaqoji texnologiyalara, yeni strategiyalara yiyələnmələri üçün müxtəlif təlimlərdə iştirakı təmin edilir.

Qabaqcıl təcrübənin öyrənilməsi, onun məktəbdə yaradıcı şəkildə tətbiqi üçün Bakı şəhər məktəbləri ilə təcrübə mübadiləsi aparılır.

Şagirdlərin səmərəli təlim-tərbiyə prosesi ilə, sağlam psixoloji mühitlə əhatə olunmaları təmin edilir.

**Şagird şəxsiyyətinin formalaşdırılması.** Müasir ümumtəhsil məktəbi şəxsiyyətin inkişafı, onun maraq və qabiliyyətlərinin formalaşması, mənəvi, əxlaqi cəhətdən nümunəvi vətəndaş kimi yetişməsi üçün şərait yaratmağa qabil olmalıdır. Hazırda şəxsiyyət, yəni şagird və onun müstəqil fəaliyyəti, rəqabətə dözümlü olması cəmiyyətin maraq dairəsindədir. Bu gün cəmiyyət gələcək vətəndaşlarını ümumtəhsil məktəblərində yetişdirir.

Bu səbəbdən məktəbdə təlim prosesinin əsas məqsədi bilik, bacarıq və vərdişlərə yiyələnmənin təmin edilməsi, şagird şəxsiyyətinin inkişaf etdirilməsi, onun gələcək həyata hazırlanması bir vəzifə kimi qarşımızda durur. Biz, pedaqoji kollektiv kimi bunu hiss edirik, çünki müasir təhsil sistemində şagird pedaqoji prosesin mərkəzindədir, təlim işi şagirdlərin maraqlarının və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir. Aydındır ki, şagird şəxsiyyətinin formalaşdırılması məktəbdəki psixoloji mühitdən asılıdır.

Şagirdlərin vətənpərvər şəxsiyyət kimi yetişmələri, doğma torpağın, el-obanın təəssübkeşi olmaları bizi daim düşündürür. Məktəbimizin yaxınlığında Mehdi Hüseynzadənin heykəli ucalır. Bu, şagirdlərdə vətənpərvərlik hissinin tərbiyə olunmasının təsirini artırır. Şagirdlərə aşılamağa çalışırıq ki, vətənpər vərlik hissinin mayasını Vətən adlı doğma diyar, onların doğulduğu və boya-başa çatdığı yer, mənsub olduğu xalqın dili, mədəniyyəti və milli adət-ənənələri təşkil edir.



**Uğurlarımız, nailiyyətlərimiz.** Məktəbdə 32 ibtidai sinif var. Bunlardan 20-si rus, 12-si Azərbaycan dilində fəaliyyət göstərir. Bu siniflərdə Məmmədova Gülçöhrə, Süleymanova Zərifə, Nəbiyeva Ruqiyyə çalışırlar.

Məktəbimizdə məktəbəhazırlıq sinif-

ləri də fəaliyyət göstərir. Burada təcrübəli və öz işini sevən müəllimlərdən Bağırova Sevilin, Zülfüqarova Salatının adlarını xüsusi qeyd etmək olar.

Məktəbdə müasir avadanlıqlarla təchiz edilmiş fizika, biologiya, kimya, tarix, informatika, əmək kabinetləri, fizika və kimya laboratoriyaları, zəngin kitabxana, akt və idman zalları, yeməkxana, tibb kabineti fəaliyyət göstərir. Son üç ildə məktəbimizin məzunlarının çoxu tələbə adını qazanmışlar. 2 nəfər 600-dən yuxarı bal toplayıb, ölkəmizin nüfuzlu ali məktəblərində təhsil alır.

Məktəbdə müəllimlərlə yanaşı, şagirdlərimizin də uğurları bizi sevindirir. 2017-ci il, dekabr ayının 6-da Nizami Kino Mərkəzində Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "İstək" liseyi tərəfindən təşkil olunmuş "Lütfi Zadə adına məktəblərarası I Məntiq Olimpiadası"nın qalibləri içərisində məktəbimizin şagirdləri də yer tutmuşlar.

2017–2018-ci tədris ilində keçirilən fənn olimpiadalarında şagirdlərimizdən Əliyev Nicat, Həsənova Fidan, Əsgərli Nəzrin təltif olunmuşlar.

Həmçinin şəhər üzrə keçirilən müsabiqə, yarış, olimpiada və başqa tədbirlərdə şagirdlərimiz fəal iştirak etmiş, müxtəlif dərəcəli diplomlara və fəxri fərmanlara layiq görülmüşlər.

Bu qeyd etdiklərimiz bizim üçün son hədd deyil. Məqsədimiz daha böyük uğurlar əldə etmək və şagirdlərimizin cəmiyyətə yararlı bir şəxsiyyət kimi formalaşmalarına nail olmaqdan ibarətdir.

## *ƏZİZ HƏMVƏTƏNLƏRİMİZ!*

*Yaşadığımız planetin təbiəti təhlükə qarşısındadır. Hər il planetimiz onlarla bitki və heyvan növü itirir. "Qırmızı kitab"a yeni-yeni növlər daxil edilir. Su hövzələri çirklənir, torpaqlar məhsuldarlığını itirir, flora və fauna yoxsullaşır, şəhər və qəsəbələrin havası zəhərlənir.*

*Bax, buna görə də ekologiyanın qorunması yalnız təbiətin deyil, həm də Yer kürəsində həyatın xilas edilməsi deməkdir!*

*Həyəcan təbili bizim hamımızı şüurlu olmağa, təbiəti qorumaq üçün bütün səyləri birləşdirməyə çağırır!*

*Təbiət bizi geyindirir, yedizdirir, sağlamlığımızı, istirahətimizi təmin edir, bütün tələbatlarımızı ödəyir. Gəlin fikirləşək, bunun əvəzində təbiətə biz nə veririk? Məktəbyanı sahələrin, yaşayış məntəqələrinin, yol kənarlarının yaşıllaşdırılmasında, parkların, meşə və bağların salınmasında, quşların, heyvanların, su hövzələrinin qorunmasında fəal iştirak edirikmi?*

*Yadımızda saxlamalıyıq ki, təbiətin taleyi bizim taleyimizdir. Təbiət laqeydliyimizdən, soyuq münasibətimizdən küsərək, bizdən üz döndərə bilər...*

*Müstəqil Azərbaycanımızın əsl vətəndaşı olmaq üçün onun hər ağacını, kolunu, çiçəyini sevməli, hər qarış torpağını göz bəbəyimiz kimi qorumalıyıq.*

**Ana təbiət**

Qayğıyla doludur ana təbiət,
Onun meyvəsini dadmayan varmı?
Təbiət özü də qayğıya möhtac
Qayğısız varlıq da qanadlanarmı?
Məsəl var: "Anadır evin dirəyi",
Bir dirək yıxılsa, bir divar yatar.
Ana təbiəti itirsək əgər,
Bir ev yox, bir kənd yox, bir dünya batar.

***Hüseyn Arif***

# UŞAĞIN MƏKTƏBƏ HAZIRLIĞINDA FİZİKİ MƏŞĞƏLƏLƏRİN ƏHƏMİYYƏTİ

**Təranə Sadıqova,**
ADPU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru;
**Sevil Cəmilzadə,**
ADPU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** məktəbəqədər yaşlı uşaq, məktəb, fiziki hazırlıq, məşğələ, məşğələlərin əhəmiyyəti;
**ключевые слова**: дети дошкольного возраста, школа, физическая подготовка, занятие, значимость занятии;
**key words:** children, school, physical preparation, workout, importance.



Məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsi və onun modernləşdirilməsi ilə bağlı mühüm işlərin görüldüyü müasir dövrdə uşağın fiziki inkişafı problemi böyük əhəmiyyət kəsb edir.

Hazırda məktəbəqədər təhsilin məqsədi uşağın fiziki, psixi, emosional, sosial və intellektual potensialının inkişafı üçün şərait yaratmaq, onların sadə əmək vərdişlərinə yiyələnmələrini, məntiqi və yaradıcı təfəkkürünü formalaşdırmaq, istedad və qabiliyyətlərinin erkən yaşdan aşkara çıxarılmasını təmin etməkdən ibarətdir.

Fiziki mədəniyyət şəxsiyyətin ahəngdar inkişafında mühüm rol oynayır. Con Lokk demişdir: “Sağlam bədəndə sağlam ruh olar.” Antik dövrün böyük filosofu Platon sağlamlığı insan üçün böyük xoşbəxtlik hesab edirdi.

Y.A.Komenski “Ana qucağı məktəbi” adlı əsərində yazırdı ki, həyatımız alova bənzəyir. Hava axını olmadıqda alov dərhal söndüyü kimi, uşaqların da təmrinlər etmələri və hərəkətdə olmaları zəruridir.

“Sağlamlıq ən böyük nemətdir” deyən xalqımız tarix boyu onu qiymətli hesab etmişdir.

Fiziki tərbiyədə əsas məqsəd məktəbəqədər yaşlı uşaqları sağlam, çevik, qüvvətli, möhkəm və gümrah böyütməkdən ibarətdir. “Məlumdur ki, uşaq fiziki cəhətdən möhkəm, sağlam olarsa, normal inkişaf edər, müvəffəqiyyətlə təhsil alar.

Məktəbəqədər təhsil proqramında dörd inkişaf sahəsi fiziki inkişaf, (sağlamlıq və təhlükəsizlik), idrakın inkişafı, estetik və yaradıcı inkişaf, sosial-emosional inkişaf üzrə yeni məzmun həyata keçirilir. Həmin sənəddə qeyd edilmişdir ki, məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlamlığının qorunması, təhlükəsizliyi və fiziki inkişafi təmin olunur. Fiziki inkişafa böyük, kiçik və hissi-sensor motor hərəkətlərinin inkişafı daxildir. Uşağın hərtərəfli inkişafı üçün daha səmərəli vasitələrin müəyyənləşdirilməsi, gigiyenik tələblərə cavab verən şəraitin yaradılması (rasional qidalanma, düzgün təşkil olunmuş rejim, fiziki mədəniyyət məşğələləri və s.), bunların qarşılıqlı əlaqəsi, düzgün qamət, hərəkət texnikası, oyunların qaydaları, eləcə də, həmin vərdişlərlə yanaşı, onlarda digər keyfiyyətlərin inkişafı təmin olunur.

Təhlükəyə, çətinliklərə hazırlıq, yol hərəkəti qaydaları, ekstremal şəraitdə təhlükəli vəziyyətlərdə necə hərəkət etmək haqqında ilkin təsəvvürlərin formalaşdırılmasına, məişətdə ehtiyatlı, mədəni davranmaq, təbii fəlakətlər və yanğın zamanı davranış qaydalarının mənimsənilməsinə, ekoloji mədəniyyətin formalaşmasına şərait yaradır.

Bununla bağlı aşağıdakı ümumi inkişaf və təlim nəticələri nəzərdə tutulur:

Uşaq:

- sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir;
- qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir;
- böyük, kiçik və hissi (sensor)-motor hərəkətlərini koordinasiya edir;
- təhlükəsizlik qaydalarına əməl edir.

Yalnız sağlam uşaq proqram materialını mənimsəyə bilər. Adətən, belə uşaqlar normal əqli yükə tab gətirir, tez yorulmur, əsəbləşmirlər.

Bu baxımdan məktəbəqədər müəssisədə keçirilən fiziki mədəniyyət məşğələləri uşaqların sağlamlığının möhkəmləndirilməsində böyük əhəmiyyət kəsb edir.

Məktəbəqədər yaş dövründə uşağın orqanizmində sürətli inkişaf baş verir. Əsəb, sümük-əzələ sistemi formalaşır, tənəffüs aparatı təkmilləşir. Bu mərhələdə sağlamlığın və fiziki inkişafın əsası qoyulur. Buna görə də tərbiyəçi fiziki mədəniyyət məşğələlərinin təşkili metodikasını mükəmməl bilməli, uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Tərbiyəçi daha çox süst, göstərişlərə ləng əməl edən uşaqları müstəqilliyə alışdırmalı, onların cəld hərəkətlər tələb edən tapşırıqları, təmrinləri yerinə yetirmələrinə şərait yaratmalıdır.

Kifayət qədər təmkinli olmayan uşaqlara diqqət və mütəşəkkillik tələb edən tapşırıqlar verilməlidir. Bu işdə müvəffəqiyyət qazanmaq üçün tərbiyəçi fiziki tərbiyə vəzifələrini aydın təsəvvür etməlidir.

Tərbiyəçinin işarələrinə tədricən əməl edən uşaqlar müvafiq təsir sayəsində təmrinlərin mənimsənilməsində getdikcə fəallaşır, onlarda öz qüvvələrinə inam yaranır. Təmkinli olmayan uşaqlar sakitləşirlər.

Məşğələ zamanı marağın azalmaması və hərəkət vərdişlərini formalaşdırmaq üçün uşaqlarda müsbət emosiya yaratmaq lazımdır. Tərbiyəçinin şən tonda verdiyi göstərişlər uşağın diqqətini cəlb edir, onlarda hərəkətləri daha dəqiq və cəld yerinə yetirmək arzusu oyadır.

Tərbiyəçi uşaqların sağlamlıq vəziyyəti, fiziki inkişafı, xarakter xüsusiyyətləri ilə tanış olmalıdır. O, uşaqlar üzərində hər gün müşahidə aparmalı, ildə iki dəfə bacarıqlarını (yerimək, qaçmaq, hoppanmaq) hesaba almalı, onların proqram materialını necə mənimsəmələrini, hansı təmrinlərin yerinə yetirilməsində çətinlik çəkdiklərini, kimin hansı cəhətdən geri qaldığını aydınlaşdırmalıdır. Tərbiyəçi hər məşğələyə (qaçmaq, hoppanmaq, uzağa və hədəfə atmaq) dəqiq hazırlaşmalı, onun keçirilmə metodikasına yiyələnməlidir. Tərbiyəçi uşaqlara təmrinləri, hərəkətləri göstərməyi bacarmazsa, onları öyrədə bilməz.

Məktəbəhazırlıq qrupunda fiziki mədəniyyət məşğələləri həftədə iki dəfə keçirilir. Hər məşğələ üç hissədən (giriş, əsas və yekun) ibarətdir.

Girişdə məşğələlərin mahiyyətindən söz açılır. 5–6 dəqiqə ərzində uşaqlar tədricən hərəki fəaliyyətə qoşulurlar. Bu hissədə yeriş, qaçış, sıraya düzülmə, sadə oyun tapşırıqları verilir, onlarda emosional əhvali-ruhiyyə yaradılır.

Əsas hissədə 18–20 dəqiqə hərəkətli oyunlar keçirilir, ümuminkişafetdirici bacarıqlar öyrədilir. *Ümuminkişafetdirici* bacarıqlar böyük əzələ qruplarını möhkəmləndirir, uşaqlarda düzgün qamətin formalaşmasına kömək göstərir. Əvvəlcə uşaqlara çiyin, kürək, bel, sonra ayaq əzələlərinin möhkəmləndirilməsi üçün təmrinlər verilir. Tərbiyəçi təmrinlərə başlamazdan əvvəl uşaqların hərəkətdən düzgün çıxış vəziyyəti almalarına fikir verməlidir.

Ümuminkişafetdirici hərəkətlərin musiqi sədaları altında yerinə yetirilməsi məqsədəuyğundur. Musiqi uşaqları nizamlayır, hərəkətlərin dəqiq icrasına sövq edir, onlarda müsbət əhvali-ruhiyyə yaradır. Diqqət yetirmək lazımdır ki, musiqinin ritmi hərəkətlərin sürətinə uyğun olsun, onun əsas tələblərini ödəsin. Təmrinləri musiqinin müşayiəti ilə yerinə yetirməzdən əvvəl onları (topu atıb-tutmaq, dairə üzrə ötürmək və s.) uşaqlarla birlikdə öyrənmək lazımdır.

*Əsas hərəkətlər* – yeriş, qaçış, hoppanma, atıb-tutma və tullanma, sürünmə, dırmanma, müvazinət hərəkətləri məşğələnin əsasını təşkil edir. Hər məşğələdə üç əsas hərəkət növü nəzərdə tutulur.

*Hərəkətli oyunlar* hər bir fiziki məşğələnin vacib tərkib hissəsidir. O, hərəki bacarıq və vərdişlərin möhkəmləndirilməsinə, təkmilləşdirilməsinə xidmət edir. Müxtəlif oyun hərəkətləri çevikliyi, hərəkətlərin uzlaşdırılmasını inkişaf etdirir, uşaqların emosional vəziyyətinə müsbət təsir göstərir. Bu oyunlar hər gün, adətən, gəzinti zamanı yerinə yetirilməlidir. Tərbiyəçi əvvəllər mənimsədilmiş hərəki vərdişləri möhkəmləndirmək məqsədilə oyunlardan istifadə etməlidir.

Fiziki mədəniyyət məşğələlərini təşkil edərkən hərəkətlərin frontal, ardıcıl icrasından, fərdi işdən istifadə faydalıdır. Frontal iş zamanı bütün uşaqlar eyni təmrinləri icra edirlər. Onlar yeriş, qaçış, ümuminkişafetdirici hərəkətlər, topla müxtəlif oyun-tapşırıqlar yerinə yetirirlər.

Hərəkətlərin icrası zamanı uşaqlar bir-birinin ardınca tapşırığı (gimnastika skamyası üzərində yerimək, irəliləməklə hoppanmaq və s.) yerinə yetirirlər. Keçilmiş materialın möhkəmləndirilməsi zamanı bu metoddan daha çox istifadə olunur. Bu yolla bəzən təmrinlər (gimnastika skamyası üzərində yerimək, sonra iki ayaq üstə hoppanaraq, topu zənbilə atmaq və s.) ardıcıl icra olunur.

Bəzən uşaqlar qruplara ayrılır, onların hər birinə müəyyən tapşırıq verilir və icra edilir. Bu, adətən, uşaqlar müəyyən vərdişlərə yiyələndikdən sonra tətbiq olunur.

Fərdi iş zamanı uşaqlardan biri tapşırığı yerinə yetirir, qalanları onu müşahidə edirlər. Tərbiyəçi yeni proqram materialını uşaqlara mənimsədərkən, əvvəlcədən hazırlanmış hərəkətləri göstərir. Beləliklə, məktəbəqədər yaşlı uşaqların zəruri bilik, bacarıq və vərdişlərə yiyələnmələri üçün fiziki mədəniyyət məşğələlərinin yüksək səviyyədə təşkili vacibdir.

**ədəbiyyat**


1. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı, 2010-cy il, iyul ayının 16-sı.
2. Məktəbə hazırlığın təşkili qaydaları. 2010-cy il, yanvar ayının 8-i.
3. Məktəbəqədər təhsilin proqramı (kurikulumu) 2012-ci il, iyulun 12-si.
4. Kərimov YŞ. Uşaq məktəbə gedir. Bakı: "Nağıl evi", 2000.
5. Sadıqova.T.B., Əliyeva Z. Məktəbəqədər təhsilin müəssisələrində təlim-tərbiyə işinin təşkili. Bakı: " Nərgiz", 2010.
6. Sadıqova T.B. və b. Uşaq bağçasının ailə ilə birgə işi. Bakı, 2012.


**ЗНАЧЕНИЕ ЗАНЯТИЙ В ФИЗИЧЕСКОЙ ПОДГОТОВКЕ РЕБЕНКА К ШКОЛЕ**

**резюме**


В дошкольном возрасте происходит быстрое развитие организма ребенка. Создается нервная, костно-мышечная система, улучшается дыхательный аппарат. На этом этапе закладывается основа здоровья и физического развития. С этой точки зрения чрезвычайно важна организация уроков физической культуры в дошкольных учреждениях.

Чтобы достичь этого, педагог должен уметь совершенствовать методологию организации упражнений физической культуры, а также учитывать возраст и личность детей.


**MEANING OF EMPLOYMENTS IN PHYSICAL TRAINING OF A CHILD FOR SCHOOL**

**summary**


At preschool age, the child's body develops rapidly. A nervous, musculoskeletal system is created, the breathing apparatus is improved. At this stage, the foundation of health and physical development is laid. From this point of view, organization of physical education lessons in preschool institutions is extremely important.

To achieve this, the teacher must be able to improve the methodology of organizing physical education exercises, as well as take into account the age and personality of children.

# KİÇİKYAŞLILARIN ƏQLİ FƏALİYYƏTİNİN FORMALAŞMASINDA ƏTRAF ALƏMLƏ TANIŞLIĞIN ROLU

**Nərgiz Əhmədova,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi;
E-mail: nargiz_ahmedova@mail.ru



**açar sözlər:** məktəbəqədər dövr, idrak fəaliyyəti, əqli qabiliyyətlər, ətraf aləmlə tanışlıq, gerçək aləmin cisim və hadisələri, şəxsiyyət, dünyagörüşünün formalaşması, sosial və təbii mühit;

**ключевые слова**: дошкольный этап, познавательная деятельность, умственные способности, знакомство с окружающей средой, объекты и события в реальном мире, личность, формирование мировоззрения, социальная и природная среда;

**key words:** preschool stage, informative activity, mental capacity, familiarity with the environment, the person, formation of outlook, social and natural environment.

Ölkəmiz demokratik düşüncəli, yurduna, dövlətinə, xalqına, adət-ənənələrinə sadiq, Vətənini düşməndən qorumağa həmişə qadir olan və yüksək sivilizasiya mövqeyində dayanıb, öz dəsti-xəttini tanıda bilən vətəndaşlara böyük ehtiyac hiss edir. Bu gün cəmiyyətdə baş verən dəyişikliklər, yetişməkdə olan gənc nəsildə dünyagörüşünün mahiyyət və məzmununun yeniləşməsi bunu zərurətə çevirir. Dünyagörüşü təbiətə, cəmiyyətə, fikir və anlayışlara baxışların ümumiləşdirilmiş sistemidir. Bu sistem özündə elmi-fəlsəfi, siyasi, mənəvi, hüquqi, estetik, dini əqidə və inamları birləşdirir. Şəxsiyyətin təbiətin inkişaf qanunlarını öyrənməsi, cəmiyyətdə öz yerini, vəzifələrini bilməsi, baş verən hadisələri dərk etməsi və qiymətləndirməsində dünyagörüşü mühüm əhəmiyyətə malikdir.

Məktəbəqədər dövrdə uşaqların xarakter xüsusiyyətləri ətraf aləm haqqında yeni təsəvvürlərə yiyələnmək üzrə artan tələblərdir. Ətraf aləmlə təmasda olmaq ictimai həyat haqqında ilkin təsəvvürlərin uşaqlara məqsədyönlü şəkildə çatdırılmasına şərait yaradır. Məktəbəqədər yaşlı uşaq ətraf aləmdə qarşılıqlı əlaqələr sahəsini dərk edir.

Ətraf aləmlə tanışlıq məktəbəqədər yaşlı uşaqların əqli fəaliyyətinin, dünyagörüşünün formalaşmasında və tərbiyəsində mühüm əhəmiyyətə malikdir. Bu zaman onlar ailə, məişət, əmək və ictimai həyat haqqında məlumatlar əldə edirlər.

Ətraf aləmlə tanışlıq kiçikyaşlı uşaqların özündən kənardakı mühiti dərk etmələri məqsədini güdür. Ətraf aləmlə tanışlıq həm təbiəti, doğma diyarın bitki və heyvanlar aləmini, baş verən hadisələri, onlar arasında qanunauyğunluqları, həm də cəmiyyəti, insanların əməyini, ünsiyyət qaydalarını və s. əhatə edir.

Kiçikyaşlı uşaqların dünyagörüşünün formalaşmasına onu əhatə edən bütün sosial və təbii mühit təsir göstərir. Dünyagörüşünün formalaşması prosesində baş verən hadisələrin səbəbləri uşaqlara izah edilir, onlarda təbiətə, ictimai normalara düzgün münasibət yaranır, Onların dünyagörüşündə etik, estetik, ictimai, mədəni, məntiqi meyarlar əsas yer tutur.

Məktəbəqədər təhsil müəssisələrində öyrənilən mövzunun tədrisi zamanı tərbiyəçi uşaqların dünyagörüşünün formalaşması üçün geniş imkanlardan istifadə etməlidir. Əgər uşaq müəyyən vəziyyətlərdə müstəqil qərar qəbul edirsə, hadisəyə münasibət bildirirsə, onu qiymətləndirməyi bacarırsa, deməli, dünyagörüşünün formalaşdırılması prosesi müvəffəqiyyətlə təşkil olunub. Bu şəxsiyyətə təsir göstərərək, onun ətraf aləmə, insanlara münasibətini dərk etməyə, ona qayğıkeş münasibət bəsləməyə kömək göstərir. Məktəbəqədər təhsil müəssisələrində bu proses uşaqlarda təbiət hadisələri və cəmiyyətin həyatı haqqında təsəvvürlər yaratmaqla həyata keçirilir. Bu təsəvvürlər dünyagörüşünün formalaşdırılması üçün baza yaradır. Həmin məqsədlə sistemləşdirilmiş biliklərin inam və əqidəyə çevrilməsi vacibdir.

Kiçikyaşlıların dünyagörüşünün formalaşdırılmasında əsas rol uşaq bağçası və ailənin üzə-

rinə düşür. Ailə uşağın doğulduğu vaxtdan ilkin mənəvi-əxlaqi normaların rüşeymini qoyur, tədricən təbiət və cəmiyyət haqqında təsəvvürləri formalaşdırır.

Uşaqların məktəbəqədər müəssisələrə gəlişi onların həyatını dəyişdirir. Təlim-tərbiyə prosesində bilik və bacarıqların sistemli şəkildə mənimsənilməsi uşaqların görüş dairəsini genişləndirir, təfəkkürünü inkişaf etdirir. Kiçikyaşlı uşaqlarda dünyagörüşünün formalaşdırılması məktəbəqədər təhsilin mühüm problemlərindən sayılır. Məktəbəqədər təhsil sistemi uşaqların vətənə, xalqımıza layiqli vətəndaş kimi yetişmələri üçün zəruri dünyagörüşünün formalaşdırılması və inkişafını təmin etməlidir. Uşaqlarda dünyagörüşü və əqidənin formalaşdırılmasında, onlara düzgün istiqamət verilməsində tərbiyəçinin rolu böyükdür.

Kiçikyaşlıların dünyagörüşü özündə aşağıdakı xüsusiyyətləri birləşdirir:

- uşaqlarda ətraf aləm haqqında sadə biliklər əsasında nitq vərdişlərini inkişaf etdirmək;
- uşaqların canlı və cansız təbiət haqqında biliklərini dərinləşdirmək;
- uşaqlarda ətraf aləmi dərk etməyə, təlim fəaliyyətinə maraq oyatmaq;
- uşaqları xalqımızın həyat tərzi, adət-ənənələri, Vətənə məhəbbət, dostluq, yoldaşlıq, əməyə alışmaq, kollektivçilik ruhunda tərbiyə etmək.

Uşaqlara verilən biliklər tədricən əqidəyə çevrilir və sonrakı fəaliyyət üçün baza yaradır. Təlim prosesində verilən biliklər əqidəyə çevrilərkən onun tərbiyəvi təsiri artır. Uşaqlar təlim-tərbiyə prosesində təbiət, cəmiyyət hadisələrinin qanunauyğunluqlara əsasən inkişaf etdiyini öyrənirlər. Çalışmaq lazımdır ki, uşaqlar ətraf aləmdə baş verən hadisələrin mahiyyətini izah edə bilsinlər.

Uşaqların ətraf aləmlə tanışlığının həyata keçirilməsi onların mənəvi tərbiyəsi və inkişafı ilə sıx əlaqədardır. Bu tanışlığın məzmununu düzgün müəyyənləşdirmək üçün tərbiyəçinin proqram tələblərini yaxşı bilməsi, uşaqların biliklərinin, təsəvvürlərinin səviyyəsini diqqətlə öyrənməsi vacibdir.

Məktəbəqədər yaşlı uşaqların ətraf aləm haqqında dəqiq məlumat almalarının vacibliyi məsələsini qeyd edən A.P.Usova göstərir: "Proqramın məzmunu elə olmalıdır ki, məktəbəqədər yaşlı uşaqlar ətraf aləm haqqında imkanları dairəsində elmi, dəqiq məlumatlar alsınlar. Bu məlumatlar uşağın zehni qabiliyyətlərinin inkişafını təmin etməlidir" (5, səh.188).

Təlim-tərbiyə prosesində uşaqların təbiət, cəmiyyət haqqında elmi biliklərlə silahlandırmaları onların dünyagörüşünün əsasını təşkil edir. Dünyagörüşünün formalaşdırılması yaradıcılıq tələb edən mürəkkəb bir prosesdir. Bu xüsusiyyətləri nəzərə alaraq, qeyd etmək olar ki, uşaqların ictimai həyat hadisələri ilə tanışlığı vacibdir. Həmin məlumatlar uşaqların ictimai həyata daxil olmalarına, əxlaq normalarını mənimsəmələrinə imkan yaradır, onlarda sərbəstlik, müstəqillik formalaşdırır.

Məktəbəqədər təhsil müəssisələrinin üstünlüyü ondan ibarətdir ki, burada təlim-tərbiyə prosesi bütün mövcud vasitə və imkanlardan istifadə edilərək, məqsədyönlü həyata keçirilir.

Məktəbəqədər təhsil müəssisəsi ilə ailənin uşaqların təlim-tərbiyə prosesində bir-biri ilə əlaqəli fəaliyyət göstərmələri vacib məsələlərdəndir. Belə ki, məktəbəqədər müəssisələrdə əsası qoyulan düzgün davranış və vərdişlərin ailədə daha da möhkəmləndirilməsi, inkişafı kiçikyaşlıların dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Ailə və məktəbəqədər müəssisənin birgə işində tələblərdə vahidlik prinsipi əsas şərtlərdəndir.

Kiçikyaşlıların dünyagörüşünün formalaşdırılması prosesində onların yaş xüsusiyyətlərinin, inkişaf səviyyələrinin nəzərə alınması vacibdir. Bu prosesin bir neçə mərhələdə aparılması məqsədəuyğundur.

Birinci mərhələdə uşaqlar təbiət və cəmiyyət haqqında sadə biliklərlə silahlandırılırlar. Onlar öyrəndikləri hadisələri bir-birilə qarşılıqlı əlaqədə, inkişaf prosesində müşahidə edir və nəticələr çıxarırlar.

İkinci mərhələdə onlar təbiət və cəmiyyət hadisələri ilə ətraflı tanış olur, gerçək aləmin cisim və hadisələrini dərindən təhlil etməyi, biliklərin əməli fəaliyyətdə tətbiqini öyrənirlər. Bu

problemlər məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyənin təşkili prosesində həll edilir. Təbiətin, cəmiyyətin insan tərəfindən dərk olunması kimi mürəkkəb, uzunmüddətli bir prosesin nəticələri müvafiq elmlərdə əks edilir. Uşaq onların əsaslarını öyrənməklə öz dünyagörüşünü, yaradıcılıq fəaliyyətini formalaşdırır.

Kiçikyaşlı uşaqlar ətraf aləmin təsiri ilə ictimai hadisələri düzgün dərk edir, xeyirxah olmaq, böyüklərin əməyinə hörmət, Vətəni, doğma xalqı, onun adət-ənənələrini, insanları sevmək və s. kimi əxlaqi keyfiyyətlərə yiyələnirlər.

İctimai həyat hadisələri haqqında məlumat təlim-tərbiyə prosesinin bütün mərhələlərində, o cümlədən, ətraf aləmlə tanışlıq, nitq inkişafı, təsviri fəaliyyət, bədii ədəbiyyatın oxunması, musiqi məşğələlərində, gəzintilər, ekskursiyalar, oyunlar, bayramlar, müxtəlif tədbirlər zamanı verilə bilər.

Əqli tərbiyədə psixi proseslərin inkişaf etdirilməsi də mühüm rol oynayır. Ətraf aləmin dərk edilməsi duyğu və qavrayışdan asılıdır. Duyğu ilə qavrayışın səviyyəsi nə qədər yüksək olarsa, uşaqların ətraf mühit haqqında bilikləri də bir o qədər çox olar. Duyğu üzvləri xarici aləmlə əlaqə yaradır. Duyğularımızda olmayan şey təfəkkürümüzdə də yoxdur.

Uşaqların ətraf aləmlə tanışlığı, onları müşahidələrə istiqamətləndirmə təbiətə məhəbbətin formalaşmasına güclü təkan verən amillərdəndir. Tərbiyəçilər bunu nəzərə alaraq, gəzintilərdə uşaqları təbiətlə yaxından tanış etməyə çalışmalıdırlar. Uşaqların təbiət qoynunda istirahəti, müşahidələri və əməyi onların hər şeyi bilmələrinə şərait yaradır, bilik və bacarıqları artır, əməyə meyil güclənir. Uşaqlar payızda təbiətin müxtəlif əsrarəngiz hadisələri ilə qarşılaşırlar: Uşaqların ilkin yaş dövrlərindən təbiətlə təmasda olmaları onlarda xeyirxahlıq, həssaslıq, qayğıkeşlik və digər müsbət xüsusiyyətlər tərbiyə etmək üçün ən yaxşı vasitədir.

Kiçikyaşlılar bitkilər haqqında biliklər alarkən öyrənirlər ki, bostanlarda tərəvəzlər, bağlarda meyvələr yetişdirilir. Meşə ağaclarından tikinti materialları əldə olunur, meşələrdə meyvə və giləmeyvələr, bir çox bitkilər, göbələk, bitir. Təbiət bizə lazım olan hər şeyi verir, onu qorumaq lazımdır. Uşaqlar başa düşməlidirlər ki, təbiəti qorumaq hər bir vətəndaşın borcudur.

Tərbiyəçi və valideyn çalışmalıdır ki, uşaqlarda doğma təbiətə qayğı və həssas münasibət tərbiyə etsinlər. Bu işi yalnız gəzintilərdə deyil, məşğələlərdə də həyata keçirmək lazımdır. Uşaqlarda təbiətə, torpağa dərin məhəbbət hissi ilə yanaşı, Vətənə məhəbbət hissi də tərbiyə olunur, doğma təbiət uşaqlara sevinc gətirir.

Beləliklə, uşağın ətraf aləmlə tanışlığından başlıca məqsəd onun biliyinin artırılması, dünyaya baxışının formalaşması, düzgün tərbiyəsi və inkişafıdır. Ətraf aləmlə tanışlıq, təbiət hadisələri haqqında söhbətlərin aparılması uşaqların lüğət ehtiyatını zənginləşdirir, fikir və mülahizələrini daha dolğun və dürüst ifadə etməkdə onlara kömək göstərir. Bu məqsədlə də uşaqların gördükləri təbiət obyektləri, hadisələri ilə əlaqədar suallar verməlderinə, onları düşündürən fakt və hadisələri müzakirə etmələrinə şərait yaratmaq lazımdır.

**ədəbiyyat**


1. Həsənov A. Məktəbəqədər pedaqogika. Bakı: “Nasir”, 2000.
2. Mursaqulova R., Rüstəmova N. Məktəbəqədər pedaqogika (dərslik). Bakı, ADPU-nun nəşriyyatı, 2002.
3. Əhmədova A., N.Zeniyev. Ətraf aləmlə tanışlığın tədrisi netodikası. (dərslik). Bakı: “Nərgiz”, 2016.
4. Усова А. П. Обучение в детском саду. Издательство Г-е. Под ред. А.В. Запорожца. Москва,1970.
5. Турченко В.И. Дошкольная педагогика (учебное пособие). Москва: «Флинта», 2013.


**РОЛЬ ЗНАКОМСТВА С ОКРУЖАЮЩИМ МИРОМ В ФОРМИРОВАНИИ УМСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ МАЛЕНЬКИХ ДЕТЕЙ**


**резюме**

В статье рассказывается о роли знакомства с окружающим миром в формировании умственной деятельности малолетних. Отмечается, что это имеет большое значение для формирования и воспитания умственной деятельности, перспектив дошкольников. В то время они получают нужные информации о семье, жизни, труде и общественной жизни.

**THE ROLE OF FAMILY WITH THE ENVIRONMENT IN THE FORMATION OF THE MENTAL ACTIVITIES OF SMALL CHILDREN**

**summary**

The article describes the role of familiarity with the outside world in the formation of mental activity of minors. It is noted that this is of great importance for the formation and education of mental activity, the prospects for preschoolers. At that time, they receive the necessary information about family, life, work and social life.

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ METODİK İŞİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**İradə Nuriyeva,**
Xırdalan şəhər, 17 nömrəli körpələr-evi-uşaq bağçasının metodisti



**açar sözlər:** məktəbəqədər təhsil müəssisəsi, pedaqoji proses, pedaqoji təcrübə, metodist, təlim prosesi, idarəetmə, pedaqoji kollektiv;

**ключевые слова:** дошкольное образовательное учреждение, педагогический процесс, педагогический опыт, методист, учебный процесс, менеджмент, педагогический коллектив;

**key words:** preschool educational institution, pedagogical process, pedagogical experience, methodologist, educational process, management, pedagogical team.

Müasir məktəbəqədər təhsil müəssisəsinin əsas istiqamətlərindən biri keyfiyyətli təlim prosesinin təşkili, tərbiyəçi-müəllimlərin peşə bacarıqlarının artırılmasıdır. Bu istiqamətdə metodik işin məqsədəuyğunluğunu və səmərəli idarə olunmasını təmin edən metodistdir. Metodik iş elmi nailiyyətlərə və qabaqcıl pedaqoji təcrübəyə, təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş, qarşılıqlı tədbirlər sisteminə əsaslanan bütöv bir sistemdir.

Təhsilin ilkin pilləsi olan məktəbəqədər tədris müəssisəsində uşaqların tərbiyəsini, inkişafını və təlimi proqramının yerinə yetirilməsini təmin edir. Bütün yaş qruplarında təlim-tərbiyə işlərinin düzgün təşkilinə görə məsuliyyət daşıyırıq. Metodistlər tərbiyəçi-müəllimlərin işlərinə nəzarət edir, onları istiqamətləndirir, pedaqoji prosesin keyfiyyətinin artırılması üçün qabaqcıl təcrübəni öyrənir, ümumiləşdirir, yayır, uşaqların inkişafı və tərbiyəsinə dair aktual, zəruri materialları hazırlayır. Onların müzakirəsində tərbiyəçi-müəllimlərin fəal iştirakına, qəbul olunmuş qərarların yerinə yetirilməsinə nəzarət edilir.

Məlum olduğu kimi, məktəbəqədər təhsil müəssisələrində metodik işin məzmunu təhsil sisteminin məqsəd və vəzifələrinə uyğun müəyyən edilir. Tədqiqatlar əsasında metodik işin özünəməxsus sistemi yaradılır. Burada məktəbəqədər təhsil müəssisələri haqqında dövlət sənədləri, pedaqoji kollektivin tərkibinin nəzərə alınması, tərbiyəçi-müəllimlərin şəxsiyyətinin və fəaliyyətinin diaqnostik nəticələri, başqa problemlər uşaq bağçasının işinin cari, son nəticələrinin keyfiyyətliliyinin təhlili rəhbər tutulmalıdır.




Məktəbəqədər təhsilin məzmununun yeniləşdirildiyi, təlim prosesinə, idarəetməyə fəal yanaşmaların tətbiqi müasir dövrdə səriştəlilik, yeniliyə açıqlıq, yaradıcı yanaşma, təşəbbüskarlıq kimi işgüzar keyfiyyətlərin əhəmiyyəti artır, qarşıya məqsəd qoymaq və onu sona çatdırmaq bacarığı tələb olunur. Bacarıqlı metodist pedaqoji kollektivin vəzifələrini dəqiq müəyyənləşdirməli, onların həlli yollarını aydın şəkildə təsəvvür etməlidir. Məktəbəqədər təhsil müəssisəsinin pedaqoji kollektivinin işinin səmərəliliyi müxtəlif metodik iş formalarının düzgün seçimi və istifadəsindən asılıdır.

Metodik işin bütün istiqamətləri üzrə pedaqoji kollektivin təşkili vahid xətt üzrə aparılmalıdır. Metodistin işinin əsas istiqamətləri kollektivin metodik işinin təşkili, tərbiyəçi-müəllimlərin peşəkarlığının artırılması, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi, yayılmasıdır. Buna uyğun olaraq, metodist əsas iş formalarını müəyyən edir. Pedaqoji işçilərin peşəkarlığının artırılması, onların biliklərinin təkmilləşdirilməsi müxtəlif iş formaları vasitəsilə həyata keçirilir. Metodik işin səmərəli təşkili üçün məktəbəqədər təhsil müəssisəsində metodkabinetin olması vacibdir.

Metodkabinetin işi təşkil edilərkən onun tərtibatı və məzmununun pedaqoji tələbatlara uyğun olması yadda saxlanmalıdır. Biz məktəbəqədər müəssisədə metodkabinetin çoxcəhətli funksiyalarından çıxış edərək, ona, hər şeydən əvvəl, yaradıcılıq emalatxanası kimi baxırıq. Uşaqlarla öz işini quran tərbiyəçi-müəllim buradan praktik kömək alır. Metodist işçiləri yaradıcılığa təhrik edir, peşəkarlıqlarını təkmilləşdirməyə istiqamətləndirir.

Metodkabinetin fəaliyyəti hər bir tərbiyəçi-müəllim üçün əlçatan olmalıdır. Qarşıya qoyulmuş vəzifələrin uğurlu həlli, tərbiyəçi-müəllimlərə köməyin göstərilməsi, onların səviyyəsinin yüksəldilməsi ilə əlaqədar tələblərə uyğun materiallar seçirik. İşlədiyim müəssisədə metodiki materialları qruplar üzrə və fəaliyyət növlərinə əsasən sistemləşdirmişəm. Metodkabinetdə qabaqcıl təcrübə materialları, metodistin gündəlik qeydləri, tərbiyəçi-müəllimlərin məruzələri, açıq məşğələlərin icmalları, kütləvi bayram və əyləncələrin ssenariləri, pedaqoji şuraların, valideyn iclaslarının protokolları, aylıq iş planları, tədbirlər üçün nümayişetdirici vəsaitlər saxlanılır. Metodkabinetdə olan materialların düzgün seçilməsi və yerləşdirilməsi çox vacibdir.

Metodist pedaqoji təcrübə sistemini bilməlidir. Hər hansı təcrübəni kor-koranə tətbiq etmək də düzgün deyil. Heç bir təcrübə hamı üçün eyni nəticəni verə bilməz. Müxtəlif müəssisələrdə, qruplarda fərqli xüsusiyyətləri olan müxtəlif səviyyəli uşaqlar var. Odur ki, hər bir yeniliklə tanış olmaq, onlardan daha uyğun olanına yaradıcı yanaşaraq, tətbiq etmək mümkündür.

Müasir metodist yeni informasiya texnologiyalarından istifadə bacarıqlarına malik olmalıdır. Bütün sənədlərin müasir tələblərə uyğun işlənməsi yaxşı dizayn tələb edir. Müasir metodistlər, eyni zamanda metodist-texnoloq, müəllim, tədqiqatçı, ekspert, analitik, menecer funksiyalarını daşıyır. Ona görə də daha diqqətli, kreativ olmalıdırlar. Metodist öz peşəsini və uşaqları sevməlidir.



Müasir dövrdə innovasiyaların öyrənilməsi və tətbiqi metodistin fəaliyyətinin tərkib hissəsidir. Metodist yalnız öz rayonunun təhsil sistemindəki yeniliklər barədə deyil, dünyada həyata keçirilən innovasiyalardan da xəbərdar olmalıdır. Yalnız yenilikçi metodist işlədiyi müəssisədəki pedaqoji işçilərin innovativ fəaliyyətini təmin edə bilər.

Belə fəaliyyətin gedişində tərbiyəçi-müəllimin təkmilləşdirmə prosesinin fəal subyekti olması çox mühümdür. Bu, çoxcəhətli metodik-tərbiyəvi işə epizodik deyil, kompleks yanaşma tələb edir. Uşaq bağçasında çalışan pedaqoji işçilərin ixtisasının artırılması, bütövlükdə pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsində açıq məşğələlərin keçirilməsi mühüm rol oynayır. Belə məşğələlərin təşkili həmkarlarının müsbət təcrübəsini, çatışmayan cəhətlərini başa düşməyə şərait yaradır. Bu işin məhsuldar nəticəliliyi tərbiyəçinin məşğələyə düzgün hazırlaşmasından asılıdır.

Açıq məşğələ və tərbiyəvi tədbirlər məktəbəqədər müəssisələrdə metodik işin səmərəli formalarından biridir. Tərbiyəçi-müəllimlərin peşəkarlığının artırılmasının səmərəli forması onlara metodik kömək göstərməklə açıq məşğələlərin keçirilməsi, təcrübəli, peşəkar müəllimlərin işlərinə kollektiv baxışdır. Belə məşğələlərin müzakirəsi zamanı metodist mütləq qeyd etməlidir ki, tərbiyəçi-müəllim planauyğun iş aparmalı, uşaqların təəssüratlarına əsaslanaraq onları bilik və təsəvvürlərini ümumiləşdirməyə, düşünməyə, mühakimə yürütməyə, müstəqil nəticələr çıxar-




mağa vadar etməlidir. Elə tərbiyəçilər açıq məşğələlər keçirməlidirlər ki, onların bu sahədə bacarıq və səriştələri, uğurları var. Açıq məşğlədə tərbiyəçi-müəllim konkret təlim metod və priyomlarını, öz yenilikçi təcrübəsini həmkarlarına nümayiş etdirir. Açıq məşğələlər adi şəraitdə, təlim-tərbiyə prosesinin tələbləri dəqiq həyata keçirilməlidir. Gənc tərbiyəçi-müəllimlərlə məşğələyə hazırlıq üzrə məsləhətlər təşkil edirəm.

Metodist müəssisədə ***məsləhət saatları*** təşkil edilməlidir. Məsləhət saatları üçün mövzular müəyyən edilərkən, pedaqoji işçilərin hansı sahədə çətinlik çəkdikləri nəzərə alınır. Bu zaman problemlər ümumiləşdirilir, mövzu ətrafında məsləhətləşmələr təşkil edilir. Bəzən isə belə məsləhət saatlarını dialoq formasında təşkil edirəm. Bu zaman eyni problem haqqında müxtəlif fikirlər dinlənilir, hər kəs öz arqumentlərini irəli sürür. Pedaqoji cəhətdən daha dolğun olan fikir ətrafında müzakirələr aparılır və məsləhətlər verilir. Gənc mütəxəssislərlə müxtəlif iş formalarından istifadə edilir. Bu da onlarda peşəyə idraki marağın yaranmasına səbəb olur, gənc tərbiyəçilərin valideynlərlə iş formalarını mənimsəmələrinə kömək göstərir.

Metodistin vəzifəsi çoxtərəflidir. Məktəbəqədər təhsil müəssisəsində bütün pedaqoji prosesin məsuliyyəti metodistin üzərinə düşür. Biz də ölkəmizin gələcək qurucularının təlim-tərbiyəsini yüksək səviyyədə təşkilinin əhəmiyyətini dərk edərək, işimizə məsuliyyətlə yanaşmalıyıq.

**ədəbiyyat**

1.Cəfərova L.K. Məktəbəqədər müəssisə rəhbərinin stolüstü kitabı. Bakı, 2015.

2. Cəfərova L.K.Tərbiyəçi-müəllim və metodistlər üçün Məlumat kitabı. Bakı: “Nərgiz” 2018.

3. Волобуева Л.М. Работа старшего воспитателя ДОУ с педагогами . Москва: ТЦ «Сфера», 2004.

4. Дуброва В.П., Милошевич Е.П. Организация методической работы в дошкольном учреждении. Москва: «Новая школа», 1995.

**ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ МЕТОДИЧЕСКОЙ РАБОТЫ В ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЯХ**

**резюме**

В статье рассказывается об особенностях организации методической работы в дошкольных учреждениях. Отмечается, что современный методист одновременно является методистом, технологом, преподавателем, исследователем, экспертом, аналитиком и менеджером. Человек, который работает методистом, должен любить свою профессию и детей

**FEATURES OF THE ORGANIZATION OF METHODICAL WORK IN PRESCHOOL ESTABLISHMENTS**

**summary**

The article describes the features of the organization of methodological work in preschool institutions. It is noted that the modern methodologist is also a methodologist, technologist, teacher, researcher, expert, analyst and manager. A person who works as a methodologist must love his profession and children

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİNƏ RƏHBƏRLİK

**Ayşən Babayeva,**
Sabunçu rayonu, 192 nömrəli körpələr
evi-uşaq bağçasının tərbiyəçisi



**açar sözlər:** məktəbəqədər təhsil müəssisəsi, müasir standartlar, peşəkarlıq və səriştəlilik, intensiv innovasiyalar, pedaqoji proses, müəssisə rəhbəri, etik davranış, kommunikativ qabiliyyətlər;

**ключевые слова**: дошкольное образовательное учреждение, современные стандарты, профессионализм и компетентность, интенсивные инновации, педагогический процесс, руководитель предприятия, этическое поведение, коммуникативные способности;

**key words:** preschool educational institution, modern standards, professionalism and competence, intensive innovations, pedagogical process, manager of an enterprise, ethical behavior, communication skill;

"Azərbaycan Respublikasının təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi məqsədilə ümumi təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi, ali təhsilin Avropa standartlarına uyğunlaşdırılması, təhsili idarəetmə sisteminin yenidən qurulması, insan resurslarının inkişafı və müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində mühüm işlər görülmüş, müasir standartlara cavab verən təhsil infrastrukturları yaradılmışdır". [1]

İnnovativ təlim metodları, pedaqoji texnologiyalar hazırlanmışdır. Pedaqoji prosesdə ekstensiv innovasiyaların tətbiqi genişlənmişdir. "Ekstensiv innovasiyaların təhsil prosesinə tətbiqi müəyyən irəliləyişlərə səbəb olsa da, köklü dəyişikliklərə gətirib çıxartmadı. Ona görə də, Avropa ölkələrində olduğu kimi, Azərbaycan təhsilində də intensiv texnologiyaların tətbiqinə ehtiyac yarandı. Bu da, təbii ki, təhsilverənlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin edən yeni sistemin yaradılmasını, təhsilverənlərin bilik, bacarıq səviyyələrinin xüsusi qaydalar əsasında yoxlanılmasını şərtləndirən amillərdən biri kimi qeyd edilməlidir.[5]

Təhsilin ilkin pilləsində məktəbəqədər təhsil uşaqların düzgün təlim-tərbiyə olunmasında, həmçinin onların fiziki və psixoloji cəhətdən sağlam mühitdə tərbiyə almaları üçün rəhbərlərinin, həmçinin tərbiyəçi müəllimlərin məhz bu sahə üzrə təhsil almaları, fəaliyyət göstərmələri, əsas amillərdəndir.

"Müəssisə rəhbərlərinin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəldilməsi, təhsil sistemimizin ən zəruri, ehtiyac duyulan sahələrindən biridir. Müəssisə rəhbərinin peşəkarlığının və səriştəliliyinin zəif olması pedaqoji prosesin səmərəliliyini aşağı salmaqla yanaşı, həmin iş yerinin də nüfuzuna mənfi təsir göstərən amillərdən biridir"[6].

Müəssisə rəhbəri öz fəaliyyətində etik davranış prinsiplərini gözləməli, aşağıdakı tələblərə əməl etməlidir:

*Qanunun aliliyi* – Müəssisə rəhbəri öz vəzifə funksiyalarının icrası zamanı Azərbaycan Respublikası Konstitusiyasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə, insan hüquqlarına və demokratik prinsiplərə əməl etməyə borcludur.

*Vicdanlılıq* – Müəssisə rəhbəri cəmiyyət və dövlətin maraqları naminə öz peşə fəaliyyətini keyfiyyətlə, səmərəli yerinə yetirməyə borcludur. O, bütün hallarda hər kəs üçün vicdanlılıq nümunəsi olmalıdır.

*Peşəkarlıq və fərdi məsuliyyət* – Müəssisə rəhbəri öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində, peşəkar səviyyədə yerinə yetirməyə borcludur. O, vəzifə funksiyalarının keyfiyyətlə yerinə yetirilməsinə görə məsuliyyət daşıyır.

Rəhbər təhsilverənlərdə, təhsil işçilərində, valideynlərdə öz peşəkar fəaliyyətinə inam yaratmalıdır. O, təhsil müəssisəsinin nüfuzuna xələl gətirə biləcək hərəkətlərə yol verməməlidir.

Təhsil müəssisəsinin rəhbəri pedaqoji kollektivin işinin səmərəliliyinə, təlim-tərbiyə prosesində yüksək əhvali-ruhiyyənin yaradılmasına, rəqabət qabiliyyəti yüksək olan kadrların fəaliyyətinə xüsusi diqqət yetirməli, bununla bağlı müəyyən elmi-pedaqoji araşdırmalar aparmalıdır. Müəssisə rəhbəri təkcə özünün deyil, pedaqoji kollektivin də nüfuzunun artırılması məqsədilə stimullaşdırıcı tədbirlər həyata keçirməlidir.

Pedaqoji proses – təlim-tərbiyə müəssisələrində pedaqoqların müxtəlif vasitələrdən istifadə etməklə, təhsilalanların yaş, fərdi, cinsi xüsusiyyətlərini, inkişaf sürətini nəzərə almaqla, təlim-tərbiyənin məqsəd və vəzifələrinin həyata keçirilməsinə yönəlmiş, məqsədyönlü, planauyğun təsiridir. O, təlim-tərbiyə proqramına əsasən həyata keçirilir. Bu prosesi idarə edən şəxs yüksək peşəkarlıq, bilik, bacarıq və qabiliyyətlərə, savadlılıq səviyyəsinə malik olmalıdır.

Məktəbəqədər təhsil müəssisəsinə rəhbərlik etmək üçün uşaq bağçasında tərbiyəçi işləmiş, bu sahədə təcrübəsi olan kadrlar seçilməlidir. Körpələrlə işləmək çox sadə görünsə də, əslində bu işin özünəməxsus çətinlikləri, böyük məsuliyyəti vardır. Məktəbəqədər təhsil müəssisənin rəhbəri emosional-iradi, fəallıq və təşəbbüskarlıq keyfiyyətlərinə malik olmalı, məqsədyönlü, planauyğun təsir göstərməlidir.

Məktəbəqədər təhsil müəssisəsi rəhbəri fərdi yanaşma tərzini düzgün seçməli, dialoji nitqə malik olmalı, əməkdaşlıq etməli, çeviklik göstərməlidir. Bu keyfiyyətlər problemlərin birgə həlli prosesində özünün, kollektiv üzvlərinin, valideynlərin fikirlərini, imkanlarını və təcrübələrini bölüşə bilmək, qarşılıqlı faydalanmaq üçün şərait yaradır.

Pedaqoji prosesdə istər tərbiyəçilərin, istərsə də rəhbər işçilərin kommunikativ qabiliyyətlərə malik olmaları əsas şərtdir. Məqsədəmüvafiq, qarşılıqlı əlaqə yarada bilmək baxımından kommunikativliyə üstünlük verilməlidir.

Təşkilatçılıq qabiliyyətinə malik olmaq uşaq kollektivini təşkil etməklə yanaşı, pedaqoji kadrlarla fəaliyyət prosesində fikir mübadiləsi yaratmağa da əsas verəcəkdir.

Məktəbəqədər təhsil müəssisəsinin rəhbəri ilk növbədə özünə inam yaratmalıdır. Rəhbərə inam onun nüfuzuna müsbət təsir göstərən amillərdən biridir. Rəhbər öz vəzifə səlahiyyətlərindən sui-istifadə etməyə, göstərilən etimada xələl yetirən səhvlərə, öz şəxsi marağı naminə müəssisənin fəaliyyətinə mənfi təsir göstərə biləcək hallara yol verməməlidir.

Məktəbəqədər təhsil müəssisənin rəhbəri həyətyanı sahədə yaşıllıq ərazilərin abadlaşdırılmasına, normalara uyğun saxlanılmasına xüsusi diqqət yetirməlidir.

Pedaqoji işçilərin, kadrların, müəssisə rəhbərlərinin yenidən hazırlanması və ya ixtisasının artırılması sistemi idarəetmənin inkişafında mühüm rol oynayır. Bu sahədə yeni araşdırmaların aparılmasına ehtiyac hiss olunur.

Təhsil sisteminin demokratizm, humanizm və varislik prinsipləri əsasında idarə edilməsi hər bir şəxsin dövlət siyasətinin mahiyyətini, onun milli-mənəvi tələblərini bilməsinə istiqamət verir.

Məktəbəqədər təhsil müəssisəsinin rəhbəri kollektivin, şəxsiyyətin özünütərbiyəsi, inkişafını, həmçinin müəssisəni idarə etmək bacarıqlarına malik olmalıdır. O, həm tərbiyəçi, həm təşkilatçı, həm də rəhbər kimi özünü realizə etməyi bacarmalı, dövlət tədbirlərində müəssisəni təmsil etməli, onun nüfuzunu yüksəldən addımlar atmalıdır. O, təlim-tərbiyə prosesində qabaqcıl kadrları rəğbətləndirməli, kollektiv üzvlərinin yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün əlindən gələni əsirgəməməlidir.

Məktəbəqədər təhsil müəssisəsinin rəhbəri hər kəsə hörmətlə yanaşmalı, eyni zamanda tələbkar olmalıdır. O, təmkinli davranmalı, hər bir vəziyyətdə özünü ələ almağı bacarmalıdır. Rəhbər obyektiv, qərəzsiz qərar çıxarmalı, xeyirxah və ədalətli olmalıdır.

O, pedaqoji prosesdə humanistlik prinsipinə riayər olunmasına nəzarət etməli, uşaqlara fiziki cəza tətbiq edilməsinə yol verməməli, belələrin cəzalandırmalıdır. Müasir təlim prosesinin səmərəliliyinin yüksəldilməsində humanist dəyərlərdən istifadə olunması zəruridir.

Müəssisə rəhbəri kollektiv üzvləri arasında ayrı-seçkiliyə yol verməməlidir. Milli-mənəvi dəyərlərin, mədəni irsin qoruyucusu missiyasını yerinə yetirməlidir. O, fəaliyyət prosesində münaqişələrə, yersiz mübahisələrə yol verməməli, problemlərin həllinə çalışmalı, etik davranış qaydalarına riayət olunmasına nəzarət etməli, həmçinin özü də etik normaları saxlamağı bacarmalıdır.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının qəbul olunmasında məqsəd ölkədə səriştəli təhsilverənlərə, yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemi yaratmaqdır. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı, dünya standartlarına uyğun olmalıdır. Bu gün dövlətin təhsil sahəsində apardığı islahatlar buna əsas verən amillərdən biri kimi qiymətləndirilə bilər. İxtisas biliyi və peşə səriştəliliyi yüksək olan şəxslərin təhsilin idarə olunmasında iştirakı zəruridir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.)
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). "Kurikulum", 2008, № 3.
3. Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı.(AR Prezidentinin 2007-ci il, 12 aprel tarixli, 2089 nömrəli Sərəncamı ilə təsdiq edilimişdir.)
4. Məktəbəqədər təhsilin dövlət standartları və proqramı (kurikulumu).(AR Nazirlər Kabinetinin 2010-ci il, 16 iyul tarixli, 137 nömrəli qərarı ilə təsdiq edilmişdir).
5. Rüstəmov F. ADPU-da rəqabət mühiti yaradan, stimullaşdırma və karyera inkişafını nəzərdə tutan layihə başa çatdı. "Palitra" qəzeti, 21.07.2017
6. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. (Monoqrafiya). Bakı: "Elm və təhsil", 2018.


**УПРАВЛЕНИЕ УЧРЕЖДЕНИЕМ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ**


**резюме**

В статье рассказывается о работе руководителя учреждения дошкольного образования, об управлении учреждением. Рассказывается о критериях морали руководителя. Отмечается, что руководитель дошкольного образовательного учреждения должен иметь способность управлять предприятием. Он должен быть в состоянии осознать себя как наставник, организатор и лидер, в государственных мероприятиях, представлять предприятие и предпринимать шаги, которые повышают репутацию учреждения.


**MANAGEMENT OF ESTABLISHMENT OF PRESCHOOL EDUCATION**


**summary**

The article describes the work of the head of the pre-school education institution, and the management of the institution. It tells about the criteria of morality of the leader. It is noted that the head of the pre-school educational institution must have the ability to manage the enterprise. He must be able to recognize himself as a mentor, organizer and leader in government events, represent the company and take steps that enhance the institution's reputation.

# AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ BƏDİİ OBRAZLAR ÜZRƏ İŞİN ƏSƏRİN MƏZMUNUNUN MƏNİMSƏNİLMƏSİNƏ TƏSİRİ

**Ataş Abdullayev,**
ADPU-nun Azərbaycan dili və tədrisi metodikası
kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru

*Ana dilimiz bizim sərvətimizdir. Hər bir xalqın milliliyini qoruyan, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil böyük bir aləmdir. Hər bir xalq öz dili ilə yaranır.*

***Heydər Əliyev***



**açar sözlər:** bədii obraz, məzmunla formanın vəhdəti, bədii mətn, təxəyyül, təsəvvür, ibtidai təhsil, bədii təhlil, bədii söz;
**ключевые слова:** художественный образ, единство формы и содержания, художественный текст, воображение, представление, начальное образование, художественный анализ, художественное слово;
**keywords:** figurative character, combination of form and content, figurative text, fantasy, imagination, primary education, figurative word.

İbtidai məktəbdə tətbiq olunan yeni fənn proqramları şagirdlərə veriləcək biliklərin elmi səviyyəsinin yüksəldilməsi, onların əqli, idrak fəaliyyətinin, ideya-mənəvi və estetik tərbiyəsinin maksimum inkişafına yönəldilmişdir. Proqramda bədii əsərlərin oxunması metodikası məsələlərinə böyük diqqət yetirilir. Onun vasitəsilə müsbət əxlaqi və iradi keyfıyyətlər aşılanır, hərtərəfli biliklər verilir, vətənpərvərlik hissləri tərbiyə olunur.

Bədii əsərlər məzmunla formanın vəhdəti şəklində yaradılır. Obrazların dərindən qavranılması üçün onların yalnız ideya məzmununu deyil, formasını da başa düşmək lazımdır.

Hazırda kiçikyaşlı məktəblilərin təlim-tərbiyəsi və inkişafında oxu dərslərinin əhəmiyyəti rolu artmışdır. Bu, şəxsiyyətin formalaşmasında ədəbiyyat və incəsənətin rolunun yüksəlməsindən irəli gəlir. İbtidai siniflərdə oxu təliminin vasitə və yolları dəyişir, bədii əsərlərin təhlilinə yanaşmada yeni tələblər meydana çıxır. Bu tələblər bədii əsərlərin məzmun, forma, vəhdətinin düzgün qavranılmasını, yaradıcı təxəyyül və obrazlı təfəkkürün inkişafını, bədii ədəbiyyatın gənc oxuculara tərbiyəvi təsirini gücləndirir.

Görkəmli psixoloq və metodistlərdən L.V.Zankov, V.Q.Ananyev, A.A. Lyublinskaya, N.A.Mençinskaya, B.D.Elkonin,V.V.Davıdov, N.S.Rojdestvenski, O.İ.Nikiforova, L.Z.Vıqotski, Ə.Ə.Əlizadə, Y.Ş.Kərimov və başqalarının ibtidai təlim sahəsində apardıqları tədqiqatlar göstərir ki, son yarım əsrdə uşaqların dərketmə imkanları və həyat təcrübələri əhəmiyyətli dərəcədə artmışdır. Buna görə də bədii əsərlərin düzgün və dərindən mənimsənilməsini təmin edən iş formalarına aşağı siniflərdən başlamaq lazımdır.

İbtidai siniflərdə oxu dərslərinin vəzifəsi biliklərin dərinliyini təmin etmək, şagirdlərdə müsbət mənəvi keyfiyyətlər formalaşdırmaq üçün praktik vərdişlər yaratmaqdan ibarətdir.

Əsərin məzmununu başa düşmək üçün bədii obrazları düzgün qavramaq lazımdır. Başqa sözlə, bədii əsərlərin öyrənilməsindən başlıca məqsəd yazıçı tərəfindən yaradılmış obraz və ya səhnələrin konkret, mükəmməl qavranılmasını təmin etməkdən ibarətdir. Buna bədii mətnlər üzərində aparılan müxtəlif işlər kömək edir. Oxunmuş materialın şüurlu və dərindən mənimsə-

nilməsinin əsas şərtlərindən biri bədii əsərlərin ifadəli oxusu, dili üzərində işin düzgün qurulmasıdır.

Bədii əsərləri oxuyarkən, oxucu onların məzmunu ilə yanaşı, formalarına da diqqət yetirir, yalnız nə deyilməsini deyil, necə deyilməsini, təsvir olunana müəllifin münasibətini araşdırır. Bədii əsərin formasına onun dili, kompozisiyası, süjeti, janrı və s. komponentlər daxildir. Dil bədii formanın ilk ünsürü, onun alətidir. M.Qorkinin təbirincə desək, dil "ədəbiyyatın ilk elementidir".

Bədii əsərin dili leksik, intonasiya, sintaktik, səs vasitələrinin məcmusundan ibarət mürəkkəb anlayışdır. Burada söz aparıcı rol oynayır. Bədii obrazlar, əsasən, sözün köməyi ilə yaranır, formalaşır.

Bədii mətndə sözün mənasını izah etmək başa düşmək deyil, onun kontekstdə malik olduğu müxtəlif çalarları mənimsəmək deməkdir. Burada məcazi mənada verilmiş ifadələrlə yanaşı, konkret sözlər üzərində də iş aparmaq zərurəti meydana çıxır. Əsərin bədii cəhətləri və dilinə diqqət yetirilməsi materialın şagirdlər tərəfindən daha dərindən başa düşülməsini təmin edir.

İbtidai siniflərdə bədii əsərlərin dili üzərində iş, yuxarı siniflərdə olduğu kimi, geniş şəkildə aparıla bilməz. Burada oxunun məzmunu, metod və vasitələrinin öz spesifikası mövcuddur.

Əsərdə obrazların dili, xarakteri xüsusi məsələ kimi öyrənilmir, dar çərçivədə həyata keçirilir. Bu, əsas etibarilə, əsərdə təsvir olunanların düzgün qavranılması, məzmununun dərindən başa düşülməsi məqsədilə bədii mətnlərdə leksik təsvir və ifadə vasitələri üzərində aparılan işdir. Bu məqsədlə əsas diqqət ən mühüm dil vasitələrinə, başlıca olaraq, əsərin ideyasının açılmasında, bədii obraz və lövhələrin yaranmasında fəal rol oynayan söz və ifadələrə verilir. Bununla əlaqədar məcazi mənadakı sözlərin, bədii obrazları canlandırmaq məqsədilə verilmiş xüsusi təsvir vasitələrinin bədii kontekstdə başa düşülməsi üzərində daim iş aparılmalıdır.

Yeni proqramlarda oxunan materialın daha dərindən başa düşülməsi bədii əsərlərin ifadəli oxusu vasitəsilə onun dili üzərində aparılacaq işlərə geniş yer verilir. Belə ki, I sinifdə bədii əsərlərin dili üzərində müşahidə aparılması, sözə diqqət tərbiyəsi, müəllimin köməyi ilə hadisələrdə iştirak edən şəxsləri və təbiət lövhələrini aydınlaşdırmaq bacarığı yaratmaq nəzərdə tutulur. II–IV siniflərdə dil üzərində iş bir qədər genişlənir, dərinləşir. Burada sözlərin məna çalarlarını fərqləndirmək, mətndə obrazlı sözləri, ifadələri tapmaq, onların vəzifələrini başa düşmək, həmin vasitələrin köməyi ilə təbiət lövhələrini, hadisələr, adamların hərəkətlərini düzgün canlandırmaq bacarıq və vərdişləri tərbiyə olunur. Deməli, bədii sözə diqqətli münasibət tərbiyə edilməsi işinə oxu təliminin ilk günlərindən başlamaq lazımdır.

İbtidai məktəb müəllimlərinin vəzifəsi şüurlu, düzgün, sürətli və ifadəli oxu vərdişləri aşılamaqla yanaşı, bədii əsəri düzgün qavramağı, biliklərə yiyələnməyi öyrətməkdən deyil, həm də oxunan ədəbiyyatın onlara estetik təsirinə qayğı göstərməkdən ibarətdir.

Sözə diqqətli münasibətin tərbiyə olunması nəticəsində kiçikyaşlı məktəblilər təbiət lövhələrini, hadisələri, iştirakçıları aydın təsəvvür edirlər. Bu isə oxunmuş əsərin ideya məzmununun dərindən başa düşülməsi üçün əsasdır.

Metodik ədəbiyyatda bədii mətnlərin dili üzərində işin təşkili məsələsi, əsasən iki istiqamətdə nəzərdən keçirilir:

- şagirdlərin lüğətini zənginləşdirmək və nitqini inkişaf etdirmək vasitəsi kimi;
- oxunmuş əsərin obrazlı məzmununun başa düşülməsi vasitəsi kimi.

Qeyd etmək lazımdır ki, metodikada məsələnin birinci cəhəti daha geniş işıqlandırılmış, bədii əsərlərin ideyası, obrazları və məzmununun dərindən başa düşülməsi, düzgün qavranılması məqsədilə onun dili üzərində işlə əlaqədar məsələlər az öyrənilmişdir. Bədii mətnlərin tədrisi zamanı soz üzərində iş şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsi və nitqinin inkişafına çox xidmət etdiyi halda, oxunmuş materialın obrazlı məzmununun qavranılmasına və nitqinin ifadəliliyinə təsadüfi hallarda istiqamətləndirilir.

Müşahidələr nəticəsində məlum olmuşdur kı, bədii əsərlər öyrənilərkən onların spesifikası – obrazlılığı əksər hallarda nəzərə alınmır, onların tədrisi elmi-kütləvi məqalələrin qiraətindən az

fərqlənir. Əsərdə təsvir olunanların düzgün qavranılması və dəqiq təsəvvürünün yaranmasına kömək edən bədii ifadə vasitələri üzərində iş aparılmır. Mətndə bədii ifadə vasitələrinin tapılmasına az diqqət yetirilir, müəllif tərəfindən məhz digər sözün seçilməsi səbəbləri göstərilmir, həmin istiqamətdə uşaqların müşahidəçilik qabiliyyətləri, ədəbi görüş dairələri inkişaf etdirilmir.

Oxunmuş bədii əsərin obrazlı qavranılması və oxucuya tərbiyəvi təsiri üçün məzmun və formanın vəhdəti kontekstində təhlili ilə əlaqədar məsələlərin işlənməsi son dərəcə vacibdir. Bu problemin müvəffəqiyyətlə həlli üçün ibtidai siniflərdə bədii əsərlərin dili üzərində işin düzgün təşkili xüsusi əhəmiyyətə malikdir. İbtidai siniflərdə bədii əsərlərin dili üzərində işin təlimin qarşısında qoyulmuş müasir tələblərə cavab verməməsi təəssüf doğurur.

İbtidai siniflərdə bədii əsərlərin dili üzərində işin xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

a) bədii təsvir və ifadə vasitələrinin praktik cəhətdən başa düşülməsini təmin etmək;

b) mətndə onların vəzifəsi və bədii rolunu göstərmək;

c) bunlara əsasən bədii obrazların düzgün canlandırılmasına, əsərin məzmununun dərindən başa düşülməsinə nail olmaq.

Bədii mətnlərin dili üzərində iş I sinifdən başlayaraq şagirdlərin təhsil aldıqları illər ərzində davam etdirilir. Bədii əsərlərin təhlili zamanı parlaq və dolğun lövhələr yaratmaq məqsədilə müəllifin istifadə etdiyi bədii sözün mənasını başa düşmək, obrazlı vasitələr əsasında qəhrəmanları canlandırmaq bacarığı tərbiyələndirməklə, kiçikyaşlı məktəblilərə oxunmuş materialın ideyası və məzmununu obrazlı şəkildə qavramağı öyrətmək olar.

Kiçikyaşlı məktəblilər tərəfindən bədii əsərlərin qavranılması psixologiyanın çətin və kifayət qədər tədqiq olunmamış məsələlərdən biridir. Vaxtilə V.Q.Belinski bədii əsərlərin qavranılmasında iki mərhələ olduğunu göstərmişdir:

a) məftun olmaq mərhələsi;

b) həzz almaq mərhələsi.

O, “məftunluq” dedikdə, əsərdəki obrazların bilavasitə emosional qavranılmasını, “bədii həzz” dedikdə, isə obrazların təhlili və ümumiləşdirilməsini nəzərdə tuturdu. Bunların nəticəsində oxucu əsərin ideya zənginliyini, obrazların tipikliyini anlayır və məzmunun ictimai mənasını qiymətləndirir.

Varlığın dərk edilməsi “canlı seyrdən mücərrəd təfəkkürə, oradan da praktikaya” prinsipi üzrə gedir. Göründüyü kimi, həqiqətin dərk olunması canlı seyrdən, cisim və hadisələrin inikasından başlanır. Buna görə də maddi aləmin cisim və hadisələrinin bilavasitə inikası idrakın ilkin çıxış anı olmaq etibarilə həm elmi, həm də bədii fəaliyyətdə eyni dərəcədə vacibdir. İncəsənətdə, eləcə də ədəbi yaradıcılıqda varlığın cisim və hadisələrinin bilavasitə inikası özünəməxsus şəkildə cərəyan edir, çox zaman *bədii inikas,* yaxud da *poetik qavrayış* anlayışları ilə ifadə olunur.

Bədii inikasın, poetik qavrayışın özünəməxsus təzahür xüsusiyyətləri hansılardır?

Görkəmli psixoloq O.İ.Nikiforova şagirdlər tərəfindən bədii ədəbiyyatın və obrazların qavranılmasında iki mərhələ olduğunu müəyyənləşdirmişdir:

1) bədii əsərlərin obrazlı, bilavasitə emosional qavranılması;

2) düşüncəli qavrama.

Müasir psixoloqların fikrincə, bədii əsərin düzgün dərk olunmasında emosional və düşüncəli qavrama da vacibdir. Düşüncəli qavrama təfəkkür və emosional hisslərin müxtəlif aktları ilə əlaqədardır. Birinci mərhələdə emosiyalar, ikinci mərhələdə məntiqi proseslər üstünlük təşkil edir.

V.Q.Belinski göstərirdi ki, “poeziya əvvəlcə ürəklə qavranılır, sonra beyinə ötürülür”. O.İ.Nikiforova öz tədqiqatında V.Q.Belinskinin bu fikrinə əsaslanmışdır.

Tədris fəaliyyətində şagirdlərdə bədii mətnlərin qavranılmasının hər iki cəhəti inkişaf etdirilməlidir. Bütün bunlar uşaq qavrayışının xüsusiyyətlərini diqqətlə araşdırmağı, onu təkmilləş-

dirməyi, şagirdlərə oxunan materialın mükəmməl qavranılmasının metod və vasitələrini öyrətməyi tələb edir.

Bədii əsərlərin qavranılması və öyrənilməsi yolları necədir?

Bədii obrazların bilavasitə təsirindən şagirdlərdə qeyri-ixtiyari assosiasiyalar baş qaldırır və onlarda həmin obyektə qarşı təfəkkürlə, ictimai hisslərlə şərtlənməyən, ancaq subyektiv xarakter daşıyan ani bir münasibət yaranır. Bu ani emosional yüksəliş obrazların bədii şəkildə qavranılmasında "ilkin və zəruri andır" (V.Q.Belinski). Əsərin mükəmməl, emosional qavranılması yalnız onun bədii məziyyətindən deyil, həm də oxucunun mətni təhlil etmək bacarığından asılıdır. Bədii əsərin mətni hadisələrin təsviri, ədəbi surətlərin hərəkətləri, xarici görünüşü, şərait, təbiət təsvirləri kimi mühüm hissələrdən, habelə obrazların dialoq və monoloqlarından ibarətdir. Bütün bu hissələr ədəbi əsərdə bir-biri ilə müəyyən münasibətdə olur və vəhdət təşkil edir.

Bədii əsərin qavranılmasında bərpaedici təxəyyülün böyük rolu vardır. Bərpaedici təxəyyül prosesində insan qavradığı təsviri, obrazı və s. özünün həyat təcrübəsinə və biliyinə uyğun olaraq təsəvvür edir, onları mümkün olan yeni ünsürlər hesabına tamamlayır. Psixoloqlar müəyyən etmişlər ki, bədii əsərlərin oxusu zamanı yaranan proseslər bərpaedici təxəyyülün fəaliyyəti ilə əlaqədardır. Oxucu onun köməyi ilə qəhrəmanları, təbiət lövhələrini təsəvvürünə gətirir, özünü kitabda təsvir olunan hadisələrin iştirakçısı hesab edir.

Bərpaedici təxəyyül ədəbi əsərlərin bilavasitə qavranılması mərhələsində əsas, aparıcı proses olur. Onun fəaliyyəti əsərin obrazlarını özündə əks etdirən təsəvvürlərin yaranması ilə əlaqədardır.

Təxəyyülün inkişafı sahəsində məqsədəuyğun iş aparılmadıqda bədii obrazları təsəvvürdə canlandırmaq bacarığı ləng formalaşır, hətta formalaşmaya da bilər. Əgər oxu zamanı əsərdəki obrazlar oxucunun təxəyyülündə olduğu kimi canlanmazsa, onların daxili mənzərəsi açılmazsa, dərin emosional hiss yarana bilməz. Oxucu "özgənin hisslərinə" (sevinc, əzab, nifrət və s.) tutulmaz. Belə olduqda bədii ədəbiyyatın ideya təsiri zəifləyər.

Buna görə də məktəbdə şagirdlərin bədii əsərləri qavramalarının psixoloji xüsusiyyətlərini nəzərə almaqla bərpaedici təxəyyülün inkişafı sahəsində iş aparmaq vacibdir.

Oxunmuş əsərlərdə bədii obrazların şagirdlər tərəfindən düzgün canlandırılması, onların həyat təcrübəsindən, müşahidə, təəssürat və biliklərinin həcmindən asılıdır. Biliklər qavrayışı kütləşdirmir, onu daha dəqiqləşdirir. Nəzərə almaq lazımdır ki, əvvəllər qazanılmış biliklər sadəcə olaraq yenidən canlanmır, mənalandırılır və dərk olunur. Uşaq nə qədər çox görmüş, eşitmiş, hiss etmiş, mənimsəmişsə, onun təxəyyül fəaliyyəti bir o qədər zəngin və məhsuldar olur.

İbtidai məktəb şagirdlərində bədii əsərlərin oxusu prosesində yaranmış təxəyyül obrazları o zaman aydın və parlaq olur ki, təsvir əşyaları ətraf aləmdə tez-tez müşahidə edilsin, şagirdlərə tanış olsun. Belə olduqda uşaq eşitdiyi, oxuduğu şeyləri əyani şəkildə təsəvvür edə bilir.

Əgər haqqında danışılan əşya və hadisələr uşağın həyat təcrübəsində kifayət qədər öz əksini tapmamışsa, onun təsəvvürlərində obrazlar son dərəcə qeyri-sabit, zəif və sönük olur, baş vermiş müxtəlif assosiasiyaların təsiri altında asanlıqla dəyişir.

Əyani materiala istinad bərpaedici təxəyyülün fəaliyyətinə həmişə kömək göstərir, canlandırılan obraz məzmunca dəqiq, parlaq və dərin olur.

Bədii obrazların düzgün canlandırılmasına çox zaman uşaq təsəvvürlərinin məhdud konkretliyi mane olur, ona görə də ibtidai sinif şagirdləri məcazi mənada işlənmiş mücərrəd obrazları, onların əlamətlərini canlandırmaqda çətinlik çəkir, bəzən buna nail ola bilmirlər.

Kiçikyaşlı məktəblilər tərəfindən bədii əsərlərin qavranılması xüsusiyyətlərindən biri də budur ki, uşaqlar obrazın canlandırılmasında bu və ya digər əlamətə istinad edərək onları görmür, təsvirdən bu fraqmenti ayırır, bütövlükdə qavraya bilmirlər. Bəzən də şagirdlər tərəfindən müəyyən mətnə aid yerinə yetirilən şifahi və rəngli şəkillər müəllifin təsvirinə uyğun gəlmir.

Müəllim həmin uyğunsuzluğu dəfələrlə göstərdikdən, sonra uşaqlar mətni diqqətlə nəzərdən keçirir, onun detallarına fikir verir, düzgün təsəvvür edirlər.

Deməli, bərpaedici təxəyyülün inkişafı müəllimin ciddi nəzarətinə möhtacdır.

Psixoloqlar usaq qavrayışının bu xüsusiyyətlərini nəzərə alaraq təklif edirlər ki, ibtidai sinif şagirdlərində bədii obrazları düzgün canlandırmaq bacarığı yaratmaq üçün onları emosional mənzərəsi daha "geniş açılmış" əsərlər üzərində işlətmək lazımdır.

Obrazların düzgün canlandırılmasında dilin leksik cəhəti, yazıçı tərəfindən qəsdən "ön plana çəkilmiş" bədii təsvir və ifadə vasitələri üzərində iş aparılması böyük rol oynayır. Bu, oxucu tərəfindən bədii obrazın daha dəqiq canlandırılmasının əsası hesab edilir. Bərpaedici təxəyyülün inkişafında dilə diqqət birinci dərəcəli əhəmiyyət kəsb edir.

Bədii obrazlar, hər şeydən əvvəl, sözlərin köməyi ilə yaranır. Buna görə də məktəbdə kiçik yaşlardan başlayaraq sözə diqqət verən, onun leksik tamlığını hiss edən, rəngləri görməyi, səsləri eşitməyi, bunun əsasında bədii obrazları aydın və dəqiq canlandırmağı, əsərin ideya məzmununa dərindən nüfuz etməyi bacaran oxucu tərbiyə edilməlidir.

Təcrübə göstərir ki, bədii sözün incəliklərini hiss etdirmək üçün məktəbdə işlər lazımi səviyyədə aparılmır, oxu zamanı diqqət, hər şeydən əvvəl, nəyin deyilməsinə yönəldilir, lakin onun necə deyilməsinə əhəmiyyət verilmir. Uşaqlar bədii əsərlərin dilindəki ifadəliliyi dərk etməkdə çətinlik çəkirlər. Bunun bir səbəbi bədii təsvir, ifadə vasitələrinin nəzərdən qaçırılmasıdırsa, digər səbəbi şagirdlərin onları sadə şəkildə və birmənalı anlamağa meyil göstərmələridir.

Bədii obrazların düzgün canlandırılması və hiss edilməsi məzmunun dərindən başa düşülməsinin əsas şərtidir. Şagirdin bədii obrazları dolğun, dərin təsəvvür etməsi, onları canlandırması, aralarındakı əlaqə və münasibətlərin aydınlaşdırılması, oxunmuş materialın məzmununun mənimsənilməsi, başa düşülməsi səviyyəsindən asılıdır.

Beləliklə, bədii mətnlərin qavranılması, başa düşülməsi ilə əlaqədar yuxarıda deyilənlər ifadəli oxu vərdişlərinin inkişafını, onun dili üzərində iş aparılmasını, xüsusilə bədii təsvir və ifadə vasitələrində işlənən sözün öyrədilməsini tələb edir.

**ədəbiyyat**


1. Abdullayev A.S., Kərimov Y.Ş. İbtidai siniflərdə ana dili tədrisinin metodikası. Bakı: "Maarif", 1968.
2. Abdullayev A.A., Nəbiyeva Ş.Z., Abdullayeva G.A. Ali təhsilin bakalavriat səviyyəsində ana dilinin tədrisi metodikası fənninin kurikulumu. Bakı: "ADPU", 2017.
3. Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: "Nasir", 2013.
4. Ümumtəhsil məktəbləri üçün (I-IV siniflər) ana dili kurikulumu. Bakı, 2008.
5. İsmayılov R. və b. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün "Azərbaycan dili" dərslikləri və "Müəllim üçün metodik vəsait"lər. Bakı, 2017.
4. Никифорова О.И. Восприятия художественной литературы школьниками. Москва, 1979.


**ВЛИЯНИЕ РАБОТЫ НАД ХУДОЖЕСТВЕННЫМИ ОБРАЗАМИ К ОСВОЕНИЮ СОДЕРЖАНИЯ ПРОИЗВЕДЕНИЙ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА**


**резюме**

Данная статья посвящается на работу над художественными образами на уроках Азербайджанского языка. В ней излагаются вопросы влияния работы над художественными образами к освоению содержания художественных текстов на уроках родного языка в начальных классах.


**INFLUENCE OF WORK ON ARTISTIC IMAGES TO THE DEVELOPMENT OF THE CONTENT WORKS AT THE LESSONS OF THE AZERBAIJAN LANGUAGE**


**summary**

This article is dedicated to working on artistic images in the lessons of the Azerbaijani language. It outlines the issues of the influence of work on artistic images to the development of the content of artistic texts in the lessons of the native language in primary school.

# İBTİDAİ SİNİFLƏRDƏ QEYRİ-STANDART VƏ ƏYLƏNCƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ

**Musa Rzayev,**
pedaqogika üzrə fəlsəfə doktoru, ADPU-nun baş müəllimi;
**Gülnar Abıyeva,**
ADPU-nun baş müəllimi
*E-mail: deniz_251212@mail.ru*



**açar sözlər**: qeyri-standart məsələ, standart məsələ, riyazi məsələ, priyom, deduktiv yanaşma, yaradıcı mühakimə, model;

**ключевые слова**: нестандартная задача, стандартная задача, математическая задача, приемы, дедуктивный подход, творческое обсуждение, модель;

**key words**: non-standard problem, standard problem, mathematical problem, methods, deductive approach, creative discussion, model;



Riyaziyyatın ibtidai kursunda şagirdlərə mənimsədilən riyazi anlayışlar əyləncəli olmalıdır, çünki kiçikyaşlı məktəblilər riyazi oyunlara, tapmacalara,düşündürücü məsələlərə böyük maraq göstərirlər. Əyləncəli məsələlər düşündürücü xarakter daşımaqla, şagirdlərdə riyazi anlayışları öyrənməyə emosional münasibət formalaşdırır. Əyləncəli və qeyri-standart məsələlərin tətbiqi o zaman səmərəli olur ki, onlar bilavasitə dərsin didaktik məqsədinə xidmət etsin, şagirdlərdə öz qüvvəsinə inam yaratsın. V.A.Suxomlinskinin qeyd etdiyi kimi, məktəbin başlıca vəzifəsi şagirddə öz təlim əməyinin müvəffəqiyyəti üçün iftixar hissi tərbiyə etməkdən, təlimi sevinc gətirən prosesə çevirməkdən ibarətdir.

Qeyri-standart və əyləncəli məsələlərin həlli onun qanunauyğunluqlarını şagirdlərə aşılamağa kömək edir. Bu da şagirdlərdə yiyələndikləri bilikləri ümumiləşdirmək qabiliyyətini inkişaf etdirir.

Məsələ həllinin öyrədilməsinə I sinifdən başlanır, III–IV siniflərdə isə ona daha çox yer verilir. Metodik ədəbiyyatda göstərilir ki, məsələlər həlli yollarına görə *standart* və *qeyri-standart* olur. Standart məsələlərin həllində xassələr, qaydalar, düsturlar və sadə mühakimələrdən istifadə edildiyi halda, qeyri-standart məsələlərin həllində deduktiv yanaşmalar, situasiyaların modelləşdirilməsində tədqiqatçılıq, yaradıcı mühakimə tələb olunur. Ona görə də qeyri-standart məsələlər standart məsələlərlə sıx əlaqədə öyrədilir. Bununla şagirdlər biliklərini möhkəmləndirir, yadda saxlayırlar. Məsələ həlli prosesində şagirdlərdə idrak fəallığı inkişaf edir, müqayisə etmə, ümumiləşdirmə, mücərrədləşdirmə, konkretləşdirmə, nəticə çıxarma qabiliyyətləri formalaşır.

İbtidai siniflər üçün qeyri-standart məsələlərin həllinə aid nümunələri nəzərdən keçirək:

**Məsələ 1.** Əgər hər bir rəqəmin yazılmasına 1 saniyə vaxt sərf olunarsa, 5-dən 105-ə qədər ədədləri yazmaq üçün nə qədər vaxt tələb edilər?

**Həlli:** Əvvəlcə 5-dən 105-ə qədər ədədlər arasında neçə birrəqəmli, ikirəqəmli, üçrəqəmli ədəd olduğunu tapaq:

birrəqəmli ədədlərin sayı – 5 (5-dən 9-a qədər);
ikirəqəmli ədədlərin sayı – 90 (10-dan 99-a qədər);
üçrəqəmli ədədlərin sayı – 6 (100-dən 105-ə qədər).

İndi isə 5-dən 105-ə qədər ədədləri yazmaq üçün nə qədər vaxt tələb olunur:

$$1x5+2x90+3x6=203 \text{ san.}$$

Alınan cavabı dəqiqə ilə ifadə edək.

$$\begin{array}{r|l} 203 & 60 \\ \underline{18} & 3 \\ 23 & \end{array}$$

**Cavab:** 3 dəqiqə 23 saniyə vaxt sərf olunar.

**Məsələ 2.** Buratinonun boyu 1 *m* 4 *dm*, burnunun uzunluğu isə 9 *sm* idi. Buratino hər dəfə yalan danışdıqda, onun burnu 2 dəfə uzanırdı. Buratinonun burnunun uzunluğu boyundan uzun olan kimi, o, yalan danışmağı tərgitdi. Buratino neçə dəfə yalan danışmışdı?

**Həlli.** 1) 9 x 2=18 *sm* – Buratino 1 dəfə yalan danışdıqdan sonra burnunun uzunluğu;

2) 18x2=36 *sm* – Buratino 2 dəfə yalan danışdıqdan sonra burnunun uzunluğu;

3) 36x2=72 *sm* – Buratino 3 dəfə yalan danışdıqdan sonra burnunun uzunluğu;

4) 72x2=144 *sm* – Buratino 4 dəfə yalan danışdıqdan sonra burnunun uzunluğu.

144>140 sm olduğundan, o, daha yalan danışmadı.

**Cavab:** Buratino 4 dəfə yalan danışıb.

**Məsələ 3.**Qatarın yola düşməsinə 2 dəqiqə qalanda avtomobil vağzaldan 2 *km* məsafədə idi. Birinci dəqiqədə avtomobil 30 *km/saat* sürətlə getdi. Qatara çatmaq üçün avtomobil ikinci dəqiqəni hansı sürətlə getməlidir?

**Həlli: (I metod)**

1) 2x1000=2000 *m* – avtomobilin getməli olduğu məsafə;

2) 30x1000=30 000 *m/saat* – avtomobilin sürəti;

3) 30 000:60=500 *m/dəq* – 1-ci dəqiqədəki sürət;

4) 2000–500=1500 *m* – 2-ci dəqiqədə qət olunmalı məsafə;

5) 1500x60=90 000 *m/dəq* =90 (*km/saat*)

**Cavab:** Avtomobil 90 km/saat sürətlə getməlidir.

**II metod**. Birinci dəqiqədə avtomobil 30 *km/saat* sürətlə getdiyinə görə bir dəqiqədə 30:60=0,5 km yol gedər. Bundan sonra avtomobilin 1,5 km (2–0,5=1,5) yolu qalır. 1,5 km isə 0,5 km-dən 3 dəfə çoxdur. Deməli, avtomobil 2-ci dəqiqədə 90 *km/saat* (30·3=90) sürətlə getməlidir.

**Cavab:** 90 km/saat

**III metod.** 2 *km* məsafəni 1 dəqiqədə getməsi üçün avtomobil 120 km/saat (120:60=2 km) sürətlə hərəkət etməlidir. 2 *km* məsafəni 2 dəqiqədə getməsi üçün avtomobil 60 km/saat (60:60=1 km) sürətlə hərəkət etməlidir, yəni 1 dəqiqədə 1 km yol getməli idi, lakin avtomobil 1-ci dəqiqəni 30 km/saat sürətlə gedib, ona görə də 2-ci dəqiqəni avtomobil 90 km/saat (120–30=90) sürətlə getməlidir.

**Cavab:** Avtomobil 90 km/saat sürətlə getməlidir.

**Məsələ 4.** Meşəbəyinin oğlu meşədəki heyvanları saymaqda atasına kömək edirdi. Bir gün o, heyvanları sayıb atasına dedi: “ Ayıları, dovşanları və canavarları saydım, onların sayı 1000 oldu. Canavarların sayı ayılardan 250 dənə çox, dovşanların sayı isə canavarların sayından 300 dənə çoxdur. Meşəbəyi bu cavabı eşidib dedi ki, düz saymamısan, belə ola bilməz. O, belə hesabladı :

**Həlli:**




1) 250+300=550 (heyvan) – dovşanların sayı ayıların sayından çoxdur;

2) 550+250=800 (heyvan) – dovşan və canavarların sayı ayıların sayından çoxdur;

3) 1000–800=200 (heyvan) – əgər dovşan və canavarların sayı ayıların sayı qədər olsa idi, nə qədər heyvan olardı?

4) 200:3=66 (qalıq 2)

**Cavab:** Meşəbəyi düz deyir, heyvanların sayı natural ədədlə ifadə olunmalıdır.

**Məsələ 5.** 5 sandığın yanında, bir-birinə oxşar 5 açar vardır. Sandıqların qıfıllarına uyğun açarlar məlum deyil. Neçə yoxlama olmalıdır ki, bütün sandıqların açarları tapılsın?

**Həlli.** 1-ci sandıq üçün 4 yoxlama, 2-ci sandıq üçün – 3 yoxlama, 3-cü sandıq üçün – 2 yoxlama, 4-cü sandıq üçün 1 yoxlama lazımdır və 5-ci sandıq üçün isə heç bir yoxlama lazım deyil. Bütün yoxlamaların cəmi sayı 4+3+2+1+0=10 olacaq.

Cavab: 10 yoxlama

**Məsələ 6.** Dörd pişik və 3 pişik balasının birlikdə çəkisi 15 *kq*, 3 pişik və 4 pişik balasınının isə çəkisi 13 *kq*-dır. Bir pişiyin və bir pişik balasının ayrılıqda çəkisi nə qədərdir?

**Həlli.**

*Verilir:*

4 pişik və 3 pişik balası –15 *kq;*

3 pişik və 4 pişik balası –13 *kq*

*Tapmalı:* Bir pişik balası və bir pişiyin çəkisi nə qədərdir?

*Təhlil:*

4pişik+3pişik balası=15 kq (1)

3 pişik +4pişik balası =13kq (2)

(1)-dən (2)-ni çıxaq. Alırıq:

P= 3pişik balası +2 (3)

(3)-dən P-nin ifadəsini (2)-yə qoyduqda alırıq:

6+7pişik balası =13; 7pişik balası =7, pişik balası =1 (4)

(4)-dən pişik balasının ifadəsini (3)-ə qoyaq. Alırıq:

Pişik=pişik balası +2=1+2=3; pişik =3kq

Cavab: Pişiyin çəkisi 3 kq, pişik balasının çəkisi 1 kq-dır.

**İzahlı həll.** 4 pişik və 3 pişik balası ilə 3 pişik və 4 pişik balasının cəmi 7 pişik və 7 pişik balası olar. Onların ümumi çəkisi 28 *kq* (15+13=28) olar. Deməli, 1 pişik və 1 pişik balasının birlikdə çəkisi 28:7=4 *kq* olar. 3 pişik və 3 pişik balasının çəkisi 3x4=12 *kq* olar. Dörd pişik və 3 pişik balasının birlikdə çəkisindən (şərtə görə 15 *kq*-dır) 3 pişik və 3 pişik balasının çəkisini (12 *kq*) çıxaraq 1 pişiyin çəkisini taparıq: 15–12=3 *kq*. 1 pişik və 1 pişik balasının birlikdə çəkisi 4 kq, bir pişik balasının çəkisi 4–3=1 kq olar.

Cavab: Pişiyin çəkisi 3 *kq*, bala pişiyin çəkisi 1 *kq*-dır.

Dərs prosesində qeyri-standart məsələlərdən istifadə şagirdləri fəallaşdırır, onların bilik, bacarıq və vərdişlərin, habelə idrak fəallığının inkişafına səbəb olur.

### ədəbiyyat

1.Adıgözəlov A.S.,Əhmədov İ.O. İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası. Bakı: "Mürtəcim", 2001.
2.Həmidov S.S., Hacıyev N.M. Məktəbin ibtidai siniflərində məsələ həlli təliminin nəzəri və metodiki problemləri. Bakı, ADNA-nın mətbəəsi, 2008.
3.Məcidova A.Ə. Riyaziyyatdan düşündürücü çalışmalar (IV sinif). Bakı: "Bilik", 2014.
4.Feyziyev S.A., Rzayev M.T. Mətnli məsələlərin həllinin nəzəri-metodik əsasları. Bakı, 2015.
5.Левитас Г.Г. Нестандарные задачи на уроках математики в 4 классе. Москва, 2009.
6.Лихтарников Л. Занимательные логические задачи. Санкт-Петербург,1996.

### РЕШЕНИЕ НЕСТАНДАРТНЫХ И РАЗВЛЕКАТЕЛЬНЫХ ЗАДАЧ В НАЧАЛЬНЫХ КЛАССАХ

**резюме**

В статье прокомментирована творческая работа учеников путем решения нестандартных вопросов в I–IV классах средней школы. В качестве примера проиллюстрирована роль стандартных и нестандартных математических задач в развитии ученческого мышления.

**SOLUTION FOR CUSTOM AND ENTERTAINMENT TASKS IN INITIAL CLASSES**

**summary**

I–IV is commented revealing in the classes of the creative work of the pupils with the help of the solution of the non-standard problems of the secondary school in the article. There are not it is explained the role with examples develop of the pupil thinking of the standard and standard mathematical problems which is.

# OYUN PROSESİNDƏ ŞAGİRDLƏRDƏ HESABLAMA VƏRDİŞLƏRİNİN FORMALAŞDIRILMASI

**Azadə Kərimova,**
ADPU-nun dissertantı



**açar sözlər:** oyun, sehrli kvadratlar, xanalar, bucaqdan bucağa, kvadratın çevrilməsi;
**ключевые слова**: игра, магические квадраты, клетки, с угла до угла, преобразование квадрата;
**key words**: game, magic square, cells, from corner to corner, square conversion.

Riyaziyyatın ibtidai kursunun əsas vəzifəsi şagirdlərdə toplama və çıxma vərdişlərini şüurlu şəkildə avtomatlaşdırmaqdan ibarətdir. İlkin hesablama vərdişlərinin şüurluluğu toplama və çıxma, vurma və bölmə cədvəllərinin öyrənilməsi onların cədvəllərin müstəqil tərtibində istifadə etdikləri hesablama priyomları ilə tanışlıqdan əvvəl təmin olunur.

Riyazi vərdişlərin möhkəmləndirilməsi və avtomatlaşdırılmasına çalışmaların həlli prosesində nail olunur. Eyni tipli çalışmaların yerinə yetirilməsi şagirdləri yorur. Ona görə də həmin çalışmaların həllinə oyun situasiyalarının daxil edilməsi faydalıdır.

Müəllimlərin təcrübədə daha çox istifadə etdikləri oyunlara “Sehrli kvadratlar” oyununu misal göstərmək olar. Riyaziyyat dərsliklərində ibtidai sinif şagirdləri sehrli kvadratlarla tanış olurlar. Bundan sonra onlara aşağıdakı məzmunda tapşırıq verilir: “Ədədləri sətirlər, sütunlar və bucaqdan bucağa istiqamətində toplayın”.

| | | |
|---|---|---|
| 7 | 2 | 9 |
| 8 | 6 | 4 |
| 3 | 10 | 5 |

Tapşırığı yerinə yetirərkən uşaqlar bütün cavabların eyni olduğunu görürlər. Müəllim belə kvadratlarla çox rastlaşacaqlarını və özlərinin də belə sehrli kvadratlar tərtib edə biləcəklərini şagirdlərə çatdırır. Çalışmaları yerinə yetirərkən şagirdlər kvadratın sehrli olub-olmadığını yoxlaya bilərlər.

İbtidai sinif müəllimləri üçün vəsaitlərdə əyləncəli kvadratlarla maraqlı iş növləri verilir və onun metodikası şərh olunur.

Tapşırıqların tədricən mürəkkəbləşdirilərək təqdim edilməsi məqsədəuyğundur.

1. ***Təklif olunan sehrli kvadratda boş xanaların doldurulması***, məsələn, birinci kvadratda üç ədəd, ikincidə dörd, üçüncüdə isə beş ədəd yazmaq lazımdır:

1)

| | | |
|---|---|---|
| 4 | 9 | 2 |
| | 5 | |
| 8 | | 6 |

| | | |
|---|---|---|
| 7 | 2 | |
| | 6 | |
| | 10 | 5 |

| | | |
|---|---|---|
| | | |
| | 6 | |
| 3 | 10 | 5 |

2. ***Əyləncəli kvadratın çevrilməsi.***

| | | |
|---|---|---|
| 5 | 10 | 3 |
| 4 | 6 | 8 |
| 9 | 2 | 7 |

Verilmiş sehrli kvadratda hər bir ədədi 3 vahid artırmaqla və ya azaltmaqla oxşar kvadrat tərtib edin:

| | | |
|---|---|---|
| 8 | 13 | 6 |
| 7 | 9 | 11 |
| 12 | 5 | 10 |

Bu kvadratı alırıq. Hər bir ədədi 2 vahid azaltdıqda isə verilmiş kvadrat aşağıdakı kvadrata çevrilər:

| | | |
|---|---|---|
| 3 | 8 | 1 |
| 2 | 4 | 6 |
| 7 | 0 | 50 |

Dərs prosesində apardığımız müşahidələr göstərir ki, uşaqlar belə tapşırıqları həvəslə yerinə yetirirlər.

3. ***Sehrli kvadratların müstəqil tərtibi.***

1)Verilmiş 1, 2, 3, 4, 5, 6, 7, 8, 9 rəqəmlərindən istifadə edərək, bütün istiqamətlərdə cəmi 15 olan sehrli kvadrat tərtib edin. 2) 4, 5, 6, 7, 8, 9, 10, 11, 12 ədədlərindən istifadə edərək, cəmi 18 olan sehrli kvadrat tərtib edin.

Qabaqcıl müəllimlər əyləncəli kvadratlarla çalışmalara yaradıcı yanaşaraq, onları dərslərə müntəzəm daxil edirlər.

Dərsdə sehrli kvadratlarla frontal, fərdi və qruplarla iş təşkil edilə bilər. Müəllim əyləncəli kvadratın nümayişi prosesində siniflə frontal iş təşkil edir. Uşaqlar növbə ilə yazı taxtasında sətirlər, sütunlar üzrə və bucaqdan bucağa toplama əməllərini yerinə yetirərək, cəmləri tapırlar. Qalan şagirdlər misalları dəftərlərinə yazırlar. Alınan nəticələr müqayisə olunur.

Sehrli kvadratın boş xanalarının doldurulması üzrə iş müəllimin rəhbərliyi altında aparılır. Birinci dəfə müəllim ədədləri boş xanalara yazır, həmin ədədlərin tapılması qaydalarını uşaqlar deyirlər. Müəllim qeyd edir ki, belə çalışmaları yerinə yetirərkən həmişə verilmiş üç ədədin cəminin (diaqonal, sətirlər və ya sütunlar üzrə) tapılmasından başlamaq lazımdır. Sonra uşaqlar hesablamalar apararaq, ədədləri tapıb xanalara yazırlar. Müəllim yazı taxtasının önünə boş xanaların sayı qədər şagird çağırır. Bu işi müxtəlif formalarda təşkil etmək olar. Şagirdlərdən biri yazı taxtasında boş xanaları doldurur, digərləri onun işini diqqətlə izləyir, öz razılıqlarını və ya narazılıqlarını bildirirlər.

Kvadratların çevrilməsini də analoji qayda ilə aparmaq olar. Evə tapşırıq vermək olar ki, şagirdlər müəllimin sonrakı dərslərdə işinin təşkili üçün sehrli kvadratlar tərtib etsinlər.

Uşaqlar sehrli kvadratlara aid tapşırıqları perfokartlarla fərdi şəkildə, həvəslə yerinə yetirirlər. I sinifdə toplama və çıxmaya aid hesablama vərdişlərinin yoxlanılması üçün aşağıdakı şəkildə perfokartlar düzəltmək olar:

| soyadı | adı |
|---|---|
| (3×3 boş cədvəl) | cəm: ☐ |

Onun üzərinə aşağıdakı şəkildə müxtəlif kartoçkalar qoyula bilər.

| | | |
|---|---|---|
| | 2 | |
| | 3 | 5 |
| 4 | 4 | |

Bu halda şagird hesablama məşqləri yerinə yetirərək, beş misal həll edir. İş yerinə yetirildikdə kartoçka aşağıdakı şəkil alacaqdır.

Məmmədov

| | | |
|---|---|---|
| | 2 | |
| | 3 | 5 |
| 4 | 4 | |
| | | 9 |

Dərsdə qruplarla iş formasının fərdi işlə əlaqəsindən istifadə etmək olar. Nümunə üçün uşaqları sehrli kvadratlarla tanış etməyin metodikasını nəzərdən keçirək.

Müəllim əvvəlcədən tərtibində müxtəlif ədədlərin istifadə olunduğu iki sehrli kvadratın kartoçkalarını hazırlayır. Şagirdlərin hərəsi onların biri ilə işləyir.

| | | |
|---|---|---|
| 4 | 9 | 2 |
| 3 | 5 | 7 |
| 8 | 1 | 6 |

| | | |
|---|---|---|
| 7 | 2 | 9 |
| 8 | 6 | 4 |
| 3 | 10 | 5 |

Partada sol tərəfdə oturan şagird soldakı, yanındakı şagird isə sağdakı kvadratla işləyir.

Şagirdlərə tapşırıq verilir ki, sətirlər, sütunlar üzrə və bucaqdan bucağa istiqamətdə ədədləri toplasınlar. Şagirdlər işlərini yerinə yetirdikdən sonra hərə öz qonşusu ilə məsləhətləşərək, alınan nəticələri müqayisə edərək bu qənaətə gəlirlər: bütün cəmlər birinci kvadratda 15-ə, ikinci kvadratda isə 18-ə bərabər olur.

Tapşırıqlar yerinə yetirildikdən sonra müəllim şagirdlərə müraciət edərək deyir: "Sizin qarşınızda sehrli kvadratlar vardır. Belə kvadratların əsas xüsusiyyəti nədən ibarətdir?" Şagirdlər cavab verirlər ki, sehrli kvadratda sətirlər, sütunlar üzrə və bucaqdan bucağa bütün istiqamətlərdə ədədlərin cəmi bərabər olur.

Həmin işi aşağıdakı kimi də təşkil etmək olar: iki şagirdə bir sehrli kvadrat verilir:

| | | |
|---|---|---|
| 5 | 10 | 3 |
| 4 | 6 | 8 |
| 9 | 2 | 7 |

Birinci şagird kvadratın yuxarısında, soldakı ədəddən başlamaqla bucaqdan bucağa və sətirlər üzrə bütün cəmləri tapır:

5+6+7=18; 4+6+8=18;
5+10+3=18; 9+2+7=18.

İkinci şagird kvadratın yuxarısında sağdakı ədəddən başlamaqla bucaqdan bucağa və sütunlar üzrə bütün cəmləri tapır:

3+6+9=18; 10+6+2=18;
5+4+9=18; 3+8+7=18.

Tapşırıq yerinə yetirildikdən sonra uşaqlar alınan cavabları müqayisə edir və belə bir nəticəyə gəlirlər ki, bütün cəmlər eynidir.

Beləliklə, bütün partaların üzərində sehrli kvadrat vardır. Əgər hesablamalarda şagirdlər səhvə yol verirlərsə, onu birlikdə düzəldirlər.

Eyni qaydada kvadratların çevrilməsi üzrə qrupla işi fərdi işlə əlaqəli təşkil etmək olar: hər partaya bir kvadrat verilir. Uşaqlar əvvəlcə kvadratın sehrli olub-olmadığını yoxlayır, sonra onlardan biri ədədə 2 əlavə etməklə, digəri isə 2-ni çıxmaqla öz kvadratını doldurur:

| | | |
|---|---|---|
| **5** | **10** | **3** |
| **4** | **6** | **8** |
| **9** | **2** | **7** |

Bu işi aşağıdakı perfokartlarla da aparmaq olar:

| | | |
|---|---|---|
| | | |
| | | |
| | | |

+2

| | | |
|---|---|---|
| **5** | **10** | **3** |
| **4** | **6** | 8 |
| **9** | **2** | **7** |

| | | |
|---|---|---|
| | | |
| | | |
| | | |

-2

Yeni kvadratları doldurarkən şagirdlər bu kvadratların da sehrli olub-olmadığını yoxlayır və nəticə çıxarırlar: Əgər sehrli kvadratın hər bir ədədinə eyni ədədi əlavə etsək (və ya çıxsaq), onda alınan yeni kvadrat da “sehrli” olacaqdır.

Sehrli kvadratlarla yarış elementlərinin daxil edilməsi bu işi oyuna çevirir. Bu oyunun üstünlüyü onun variativ olmasındadır.

Bu yolla təşkil edilə bilən bəzi oyunları nəzərdən keçirək.

**“Kim kvadratı tez doldurar?”**

1. Yazı taxtasında kvadrat çəkilir, iki şagird çağırılır. Onlar eyni kvadratı doldurmaqda yarışırlar.

Fərz edək ki, yazı taxtasında verilmiş kvadrat aşağıdakıdır.

| | | |
|---|---|---|
| **4** | **9** | **2** |
| **3** | **5** | **7** |
| **8** | **1** | **6** |

Şagirdlərdən birinə xanalardan ədədlərin üzərinə 2, digərinə isə 3 əlavə etmək tapşırılır. Tapşırığı tez yerinə yetirən şagird qalib gəlir.

Eyni qayda ilə kvadratın ədədlərinin bir neçə vahid azaldılmasına aid tapşırıqlar da verilə bilər.

1. Yazı taxtasında aşağıdakı kvadrat çəkilmişdir:

| | | |
|---|---|---|
| 12 | 27 | 6 |
| 9 | 15 | 21 |
| 24 | 3 | 18 |

Müəllim şagirdləri çağırıb, onların hər birinə yazı taxtasında kvadratdakı ədədlərin cəminin daha rasional yolla tapılmasına aid misallar yazmaq tapşırır. Tapşırığı birinci yerinə yetirən şagird qalib gəlir.

Düzgün cavab belədir:

(21+9)+15=45 (27+3)+15=45

(24+6)+15=45 (12+18)+15=45

Belə oyunları birinci təlim ilinin sonunda aparmaq məqsədəuyğundur.

2. Kvadrat verilmişdir:

| | | |
|---|---|---|
| 5 | 2 | 7 |
| 6 | 5 | 3 |
| 3 | 7 | 4 |

**Tapşırıq:** Kim daha tez kvadratın sehrli olduğunu yoxlayar? Əgər kvadrat sehrli olarsa, onda cəmi tapın.

Belə oyunda bəzən cəmlərin fərqli olduğu kvadratlardan istifadə etmək əlverişlidir. Kvadratlardan birində bütün cəmlər 14-ə (5+5+4), digərində isə 15-ə (7+5+3) bərabərdir.

Uşaqlar bütün cəmləri hesabladıqdan sonra tapşırığı düzgün yerinə yetirmiş olurlar. Əgər onlar bucaqdan bucağa hesablamadan başlasalar, nəticə çıxarırlar ki, həmin kvadrat sehrli deyildir. Başqa bir misal:

| | | |
|---|---|---|
| 8 | 3 | 6 |
| 4 | 6 | 7 |
| 5 | 8 | 4 |

Bu kvadratda cəmlər 17-yə, yalnız bir cəm 18-ə (8+6+4) bərabərdir. Deməli, kvadrat sehrli deyil.

3. **"Yerimi tapın".** Kvadratda ədədlərin cəmi məlum olarsa, kartoçkada verilmiş ədədlərdən kim sehrli kvadrat tərtib edə bilər?

Aşağıda kvadrat və 9, 4, 8, 3 ədədləri yazılmış kartoçkalar verilmişdir.

<table>
<tr><td>7</td><td rowspan="2">6</td><td></td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td>10</td><td>5</td></tr>
</table>

Kartoçkada verilmiş ədədlərin yerini kvadratda daha tez tapan şagird qalib gəlir.

Oyun yazı taxtasında və ya hər şagird öz oturduğu yerdə apara bilər.

**4. "Kim daha diqqətlidir?"**

Kvadratda iki ədədin yeri dəyişdirilmişdir. Uşaqlar hansı ədədlərin yerinin dəyişdirildiyini tapmalıdırlar. Bu kvadratda 4 və 9 ədədlərinin yerləri dəyişdirilmişdir.

| | | |
|---|---|---|
| 7 | **2** | **4** |
| **8** | 6 | 9 |
| **3** | **10** | **5** |

Belə oyunlara şifahi hesablamaların da daxil edilməsi dərsdə şagirdlərin fəaliyyətini canlandırır və hesablama vərdişlərinin formalaşmasına kömək edir.

**ədəbiyyat**


1. Adıgözəlov A.S. İbtidai siniflərdə riyaziyyat tədrisinin xüsusi metodikası. Bakı: "Mütərcim", 2001.
2. Adıgözəlov A.S. Ümumtəhsil məktəblərində riyaziyyat təliminin nəzəri əsasları. Bakı: ADPU, 2018.
3. Kərimov Y.Ş. Təlim metodları. Bakı: "Poliqraf", 2009.
4. Veysova Z. Fəal (interaktiv) təlim. Bakı: "YUNİSEF", 2007.
5. Жикалкина Т.К. Игровые и занимательные задания по математике. Москва: «Просвещение», 1989.
6. Куличкова О.П., Уланова Н. Формирование вычислительных навыков в процессе игры// «Начальная школа», 1987, № 2.
7. Ханейх Л.А. Игры и игровые моменты на уроках математике. «Начальная школа», 1987, №2.
8. Вершинин Н.Я. Игры при изучении табличных случаев умножения и деления // «Начальная школа», 1987, № 2.
9. Попова В.И. Игра помогает учиться // «Начальная школа», 1987, № 2.


**ФОРМИРОВАНИЕ ВЫЧИСЛИТЕЛЬНЫХ НАВЫКОВ**
**У УЧАЩИХСЯ В ПРОЦЕССЕ ИГРЫ**

**резюме**


Так как математика является абстрактной наукой, ее усвоение приводит к определенным трудностям. Для повышения качества усвоения математики становится необходимым вводить в обучение игровую ситуацию. Одним из видов игр, используемых в обучении является игра «Волшебный квадрат». В статье рассматривается организация игры «Волшебный квадрат» и такие формы его проведения как коллективная, групповая и индивидуальная.


**FORMING COMPUTATIONAL SKILLS**
**PUPILS IN THE PROCESS OF THE GAME**

**summary**


Since mathematics is an abstract science, e-learning leads to certain difficulties. To improve the quality of learning mathematics, it becomes necessary to introduce a game situation into learning. One of the types of games used in training is the game "Magic Square". The article discusses the organization of the game "Magic Square" and such forms of its conduct as collective group and individual.

# ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ŞİFAHİ XALQ ƏDƏBİYYATININ ROLU

**Sona Sadıqova,**
ADPU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru
Sonasadiqova2016@gmail.com



**açar sözlər:** şəxsiyyət, tərbiyəçi, tərbiyə, məktəbəqədər təhsil, nitq inkişafı, lüğət ehtiyatı, sosiallaşma, məktəbəqədər dövr, məktəbəqədər yaşlı uşaq;
**ключевые слова:** личность, воспитатель, воспитание, дошкольное образование, развитие речи, словарный запас, социализация, дошкольный период, ребенок дошкольного возраста;
**key words:** personality, edicator, edication, preschool, education, the development of speech, the headroom, socialization, preschool period, pre-school child.

*Şəxsiyyət* anlayışı insanın bir fərd kimi inkişaf edərək, yüksək əqli, əxlaqi, fiziki, estetik və digər keyfiyyətlər daşıyan, hərtərəfli inkişaf etmiş, cəmiyyətin tələbatına cavab verə bilən insan səviyyəsini ifadə edir (1).

Ədəbiyyatın ayrılmaz tərkib hissəsi olan folklor nümunələri məktəbəqədər yaşlı uşaqların tərbiyəsində, onların şəxsiyyət kimi formalaşmalarında müstəsna əhəmiyyət kəsb edir. Bu nümunələri eşidən, dinləyən məktəbəqədər yaşlı uşaqlar özlərini təqdim olunan obrazlara, qəhrəmanlara oxşadır, süjetdə baş verən hadisələrin, içərisində hiss edirlər. "Folklor nümunələrini dinləyən uşaqlar ondakı aqilanə fikirlərdən qidalanır, qəhrəmanlara qoşulub, hazırcavab, mətanətli, iradəli olur, özündən böyüklərə hörmət etməyi öyrənir, onların qəlbində Vətənə, təbiətə sevgi, məhəbbət artır" [2].

Atalar sözləri şifahi xalq ədəbiyyatının həcmcə kiçik janrlarından olsa da, onlarda dərin məna gizlənir. Əbəs yerə deyil ki, xalq onları "ipə-sapa düzülən incilər", "qanadlı sözlər", "ibrətamiz sözlər", "qızıl sözlər", "hikmət xəzinəsi", "sirlər xəzinəsi", "dilin gövhəri" və s. adlandırır.

Atalar sözlərinin mövzu dairəsi çox genişdir. Burada Vətənə, əməyə, dostluğa, mərdliyə, doğruçuluğa və s. aid istənilən qədər nümunələr vardır.Tərbiyəçi atalar sözlərinin içindən elələrini seçib, uşaqlara söyləməlidir ki, onlar nümunədə gizlənən mənanı asanlıqla müəyyənləşdirə bilsinlər. Əgər çətindirsə, tərbiyəçi özü nümunədəki ideyanın nədən ibarət olduğunu uşaqlara izah etməlidir. Atalar sözlərinin uşaqların nitq inkişafına müsbət təsirini bilən tərbiyəçi çalışmalıdır ki, onlara daha çox qafiyəli, ritmli nümunələr təqdim etsin: "Yüz ölç, bir biç", "İşləməyən dişləməz", "El gücü, sel gücü", "Dövlətdə dəvə, övladda nəvə" və s.

"Folklor nümunələri atalar sözü, bayatı şəklində, qafiyəli, ahəngdar olduğundan şüura, hisslərə daha güclü təsir edir, tez qavranılır və yadda qalır. "Yaxşı məsləhət hər şeydən yaxşıdır". "Atalar sözünə baxan geri qalmaz". "Cəvahiratın qiyməti var, amma atalar sözünün maddi qiyməti yoxdur". "Söz var, dağa çıxardar, söz var dağdan endirər". "Şirin dil ilanı yuvasından çıxardar" [3].

Şifahi xalq ədəbiyyatının elə bir nümunəsi tapılmaz ki, orada uşaqların tərbiyəsinə, ağlına, zəkasına, mənəvi-sosioloji amillərinə aid fikirlər irəli sürülməsin.

Folklor nümunələrində Azərbaycan xalqının ictimai-siyasi, fəlsəfi, sosioloji fikir inciləri aydın şəkildə özünü göstərir. Son dərəcə yığcam, konkret, müdrik ifadələr olan atalar sözləri, məsəllər vasitəsilə xalq öz mənəvi aləmini, milli tarixini, ictimai quruluşa, əməyə, məişətə münasibətini və dünyagörüşünü əks etdirir. Atalar sözləri son dərəcə yığcam, dolğun məzmuna,

dərin mənaya malik olmaqla yanaşı, xalqın canlı danışıq dilinin ən incə xüsusiyyətlərini özündə əks etdirir.

Şəxsiyyətin formalaşmasında ağlın, təfəkkürün, müstəqil düşüncənin, hazırcavablığın, dərin mühakimə bacarığının rolu əvəzsizdir.

Atalar sözlərinin əksəriyyətində insan ləyaqətinə, təmizliyə, təvazökarlığa, xeyirxahlığa, əxlaqi gözəlliyə, hörmət və dostluq hisslərinə, kamil şəxsiyyət anlayışına, milli etik xüsusiyyətlərə, xarakter və adətlərimizə aid xeyli fikirlər vardır. "Ağac bar verəndə başını aşağı əyər", "Həqiqət incələr, amma üzülməz", "Zəhmət çəkməyən rahatlığın qədrini bilməz", "Mərdin süfrəsi açıq olar" kimi atalar sözləri və məsəllərdə şəxsiyyətin pedaqoji-psixoloji problemlərinin xarakteri, əməyə münasibəti, xasiyyəti aydın şəkildə əks olunmuşdur.

Övladlarının erkən yaşdan əqli keyfiyyətlərinin inkişaf etdirilməsi valideynlərin müqəddəs arzusu, pedaqoji-psixoloji tədqiqatların ana xəttidir. Atalar sözlərində şəxsiyyət konsepsiyası mühüm yer tutur. Müasir dövrdə məktəbəqədər yaşdan başlayaraq uşaq, yeniyetmə və gəncləri milli ruhda böyüdüb, əsl vətəndaş kimi həyata hazırlamaq üçün onları mənəvi dəyərlərlə silahlandırmaq lazımdır.

Şəxsiyyətin ən mühüm keyfiyyətlərindən biri ağıl və təfəkkürdür. Atalar sözü və məsəllərdə bu pedaqoji-psixoloji fenomen həmişə qabarıq şəkildə verilir. Şəxsiyyətin əxlaqi-iradi keyfiyyətlərində mühüm yer tutan onun mərdliyi, qəhrəmanlığı, cəsurluğu və qorxmazlığıdır. Azərbaycanlılar mərd və mübariz xalqdır. Ulu babalarımız həmişə insanları mərdliyə çağırmışlar: "Mərd arxadan vurulmaz", "Mərd əli kasad olmaz", "Mərd ilə gəzən mərd olar" və s.

Əzizinəm, mərd əli,
Heç tutma namərd əli.
Mərd olan evlər tikər,
Ev yıxar namərd əli.

Əzizinəm, mərdə mərd,
Kim deyər namərdə mərd?
Qiyamət o gündür ki,
Baş əyə namərdə mərd.

Bayatılarda insan xarakterinə, şəxsiyyətlərarası münasibətlərə geniş yer verilir. İnsan səmimiliyi, alicənablığı qiymətləndirilir:

Əzizim, əzəl gərək,
Payızda xəzəl gərək.
İnsan nə sifət olsa,
Xasiyyəti gözəl gərək.

Mən aşiq, az adamda,
Qulam da, azadam da.
Mal-mülk çoxunda olar,
İnsanlıq az adamda.

Azərbaycan bayatıları da da insanları mərdliyə, mübarizliyə, düşmənə nifrət etməyə, əyilməzliyə, qorxmazlığa çağırır. Şəxsiyyət o zaman bütöv olur ki, o, mərd və əyilməz olsun, düşməndən qorxmasın, Vətənin hər qarış torpağı üçün mübarizə aparsın.

Mərdlik, iradə, cəsarət, qəhrəmanlıq bayatıların ana xəttini təşkil edir. Azərbaycan bayatılarının müəyyən bir hissəsində insanın iradi keyfiyyətləri – mənlik, qəhrəmanlıq, cəsarət, şücaət, qorxmazlıq tərənnüm olunur. Aşağıdakı bayatıda insanın namərdə möhtac olmasından ağır dərdin olmadığı göstərilir:

Alçaltma mərdə məni,
Salma gəl dərdə məni.
Namərdə baş əymərəm,
Qul eylə mərdə məni.

Şifahi söz sənətinin bütün janrlarında olduğu kimi, bayatılarda da dostluq, yoldaşlıq ön plana çəkilir, gənclərə dostluqda vəfalılıq, dar gündə çarəsizə arxa olmaq, onun köməyinə çatmaq tövsiyə edilir.

Xalq pedaqogikası öyrədir ki, nəsihət bəzən adamın xoşuna gəlməyə də bilər, lakin adam yaxşı nəsihətdən həmişə xeyir görür: "Nəsihət acıdır, meyvəsi şirin". Meyvəsi şirin olan öyüd-nəsihətlərdən gənc nəslin tərbiyəsində yerli-yerində istifadə edilməlidir.

Hər kəsə bəllidir ki, şifahi xalq ədəbiyyatı nümunələri, nağıllar xeyrin şərə qalib gəlməsi ilə tamamlanır. Müvafiq məzmunlu nağıllar bu mühüm cəhəti nəzərə almaqla uşaqlara çatdırılmalıdır. Tərbiyəçi çalışmalıdır ki, seçdiyi nağıllarda, doğru danışmaq yoldaşa kömək etmək, dostdan

üz döndərməmək, çətinlikdən qorxmamaq kimi motivlər qabarıq göstərilsin. Nağıl tərbiyəçinin təhkiyə məharəti sayəsində uşaqlara ciddi təsir etməlidir. Bu zaman onlar özlərini igid, hünərli, bacarıqlı, bilikli nağıl qəhrəmanı hesab etsinlər.

Nağıllar uşaqların nitq inkişafında müstəsna əhəmiyyət kəsb edir. Odur ki, tərbiyəçinin oxuduğu nağıl uşaqların yaşlarına, qavrama qabiliyyətlərinə uyğun olmalıdır.

Uşaqlar əyani surətdə gördüklərini eşitdiklərindən daha tez qavrayır, yadlarında saxlayırlar. Buna görə də tərbiyəçi nağıl danışarkən əlaqədar obrazları, rəsmləri uşaqlara nümayiş etdirməlidir. Belə olduqda uşaqlar nağıldakı mənanı, ideyanı daha fəal dərk edirlər.

Böyük rus pedaqoqu K.D.Uşinski yazmışdır ki, nağıllar xalq pedaqogikasının ən parlaq nümunələridir. Bu məsələdə heç kəs onunla mübahisəyə girişə bilməz.

Məlum olduğu kimi, nağıl və dastanlarımızda doğma təbiət, onun əsrarəngiz guşələri, gül gülü, bülbül bülbülü çağıran bahar, içindən göz yaşı kimi dupduru çeşmələr axan bağlar, uca dağlar, yaşıl dərələr, çəmənlər və s. çox böyük məhəbbətlə, hərarətlə vəsf olunur. “Hatəmin nağılı”nda deyilir: “İbrahim ətrafa baxıb gördü ki, vallah bura deyəsən, cənnətin bir guşəsidir. Sular axır, ağaclar çiçək açıb, ətri hər tərəfi bürüyüb... İbrahim bilmirdi, uçan quşlara baxsın, yoxsa bülbülün gül ilə oynamasına”. Söz yox ki, belə təsvirləri yaxşı bir nağılçının ifasında dinləyərkən insanın təbiətə məftunluğu artır, o, özünü gözəlliklər qoynunda təsəvvür edir, ətraf aləmin, Vətən torpağının gözəlliklərindən vəcdə gəlir. Bu isə estetik planda ruhi zənginliyə səbəb olur. Zövqün inkişafı üçün əlverişli zəmin yaranır və uşaqları təbiətə, Vətən torpağına daha sıx şəkildə bağlayır.

S.Əliyeva “Xalq pedaqogikasında tərbiyə məsələləri”əsərində nağılları aşağıdakı kimi qruplaşdırmışdır: heyvanlar haqqında nağıllar, sehrli nağıllar, tarixi nağıllar, ailə-məişət nağılları.

a) İnsanlara məxsus bəzi xasiyyət və keyfiyyətlərin heyvanlara aid edilməsi, onların şəxslənməsi heyvanlar haqqında nağıllara xas olan xüsusiyyətlərdir.

b) Adından da göründüyü kimi, tilsimə salma, div, əjdaha və s. mifoloji canlılar, sehrli əşyalar sehrli nağılların əsas əlamətləri sayılır. Onlarda fövqəladə qüvvələr də təsvir olunur, insanların onlara münasibəti bildirilir və xalq bu qüvvələri div, əjdaha obrazlarında təsvir edir.

c) Tarixi nağıllar hökmdarlar, xalq qəhrəmanları haqqında olan nağıllardır ki, burada xalqın hökmdarlara, görkəmli şəxsiyyətlərə və onların apardıqları mübarizəyə münasibəti öz təsvirini tapmışdır. Belə nağıllarda bəzən şahlar ədalətli, xalqı düşünən, “ağ günə çıxardan” bir insan kimi verilir.

d) Xalqın həyatı, yaşayış tərzi ilə əlaqədar olan məişət nağılları daha çoxdur. Belə nağıllarda xalqın zülmə, istismara, ictimai bərabərsizliyə, ədalətsizliyə qarşı etirazları əks olunur. Məişət nağıllarında ən çox əxlaqi-tərbiyəvi fikirlər aşılanır. Bu nağılların əsas qəhrəmanları xalqın içindən çıxmış zəhmətkeş, ağıllı, güclü insanlardır. “Yeddi qardaş, bir bacı”, “Yetim İbrahim və sövdəgər”, “Ağ atlı oğlan”, “Zəmanənin hökmü”, “Daşdəmirin nağılı”, “Göygöz kosa” və s. məişət nağıllarına aiddir. Bu nağılların qəhrəmanları insanlara zülm edənlərə, şər qüvvələrə qarşı mübarizə aparır, xalqın xilaskarına çevrilirlər.

Nağılların təsir qüvvəsi çox böyükdür və uşaqların əqli, əxlaqi, estetik keyfiyyətlərə yiyələnmələrində xüsusi rol oynayır. Nağıllar uşaqların oxşamaq istədikləri qəhrəmanları yaşatmaqla onların marağına, sevgisinə, sevincinə, inam hissinin yaranmasına səbəb olur. Nağıla qulaq asan uşaq onun qəhrəmanının uğuruna sevinir, yaxud kədərlənir, onlarda məzmunu başqalarına danışmaq arzusu yaranır.

Təlimdir düzəldən işləri sap tək,
Olmazmı cəhd etsə, bir insan mələk. (5)
Ümmətin rəhnüması tərbiyədir,
Millətin pişvazı tərbiyədir,
Tərbiyət ilə keçir ümuri-cahan,
Hər şeyin ibtidası tərbiyədir (6)
***(M.Ə.Sabir)***

Oxucum, belədir, aqil babalar,
Bir dastan yaradar ikicə sözlə.
Bu kamal dünyası gülər bir üzlə,
Nəsildən- nəsilə keçər yadigar. (4)
***( Səməd Vurğun)***

H.Zərdabi, S.M.Qənizadə, C.Məmmədquluzadə, S.S.Axundov, F.Köçərli, R.Əfəndiyev, Ə.Haqverdiyev, həmçinin mədəniyyətimizin və pedaqoji fikrimizin inkişafında görkəmli rol oynayan digər ziyalıların əsərlərindən istənilən qədər belə fikirləri misal gətirmək olar. Bütün dahi şəxsiyyətlər təlim-tərbiyədə mühit və şəraitə ona görə üstünlük verirdilər ki, həmin amillərin necə böyük möcüzələrə qadir olduğunu əyani olaraq görmüş, məhz bu səbəbdən şəxsiyyətin formalaşmasında mühit və tərbiyənin qüdrətli rolunu, irsən keçən xüsusiyyətlərin müvafiq şərait, mühit və tərbiyə ilə dəyişə biləcəyini qeyd etmişlər.

Beləliklə, şifahi xalq ədəbiyyatı nümunələrində irəli sürülən fikir və ideyalar xalqın zəngin irsindən yaradıcılıqla bəhrələnən qabaqcıl pedaqoq, ədib və mütəfəkkirlərin əsərlərində daha da təkmilləşdirilmiş, elmi məcraya salınmışdır. C.Cabbarlının təbirincə desək, el ağzından çıxmış sözlər ədəbiyyat dahilərinin qələmi ilə püxtələşib, klassik yüksəkliyə qaldırılmış və xalqa qaytarılmışdır.

Uşaqların şəxsiyyət kimi formalaşmalarında təlim-tərbiyə prosesində vacib olan onların yaş xüsusiyyətləri valideyn, tərbiyəçi və pedaqoqlar tərəfindən nəzərə alınmalıdır.

**ədəbiyyat**


1. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: “Avropa”, 2005.
2. Bəhlul Abdulla. Məktəbəqədər yaşlı uşaqlar üçün folklor antologiyası. Bakı, 2001.
3. Əliyeva S. Xalq pedaqogikasında tərbiyə məsələləri. Bakı, 2016.
4. Həşimov Ə. Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə. Bakı, 1991.
5. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası antologiyası. Bakı, 1993.
6. Məmməd Cəfər. Estetik tərbiyə, ailə və məktəb. Bakı, 1967.


**РОЛЬ СЛОВЕСНОЙ НАРОДНОЙ ЛИТЕРАТУРЫ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ**

**резюме**


В этой статье речь идет о том, что каким путями примеры народной литературы действуют на формированию личности ребенка. Отмечается, что они должны способствовать расширению словарного запаса, умению выбрать из него слова и тем самым делать речь правильным. С помощью фольклора можно воспитывать у детей любовь к окружающей среде, любовь к народным героям.


**THE ROLE OF WORD FOLK LITERATURE IN PERSONALITY FORMATION**

**summary**


This article deals with the fact that in what ways examples of folk literature act on the formation of the child's personality. It is noted that they should contribute to the expansion of vocabulary, the ability to choose words from it and thereby make it right. With the help of folklore, one can cultivate a love for the environment, a love for folk heroes among children.



**JURNAL AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ QƏRARI İLƏ TÖVSİYƏ OLUNAN NƏŞRLƏR SİYAHISINA DAXİL EDİLMİŞDİR.**

# İBTİDAİ TƏHSİLDƏ MƏKTƏB PSİXOLOQU VƏ VALİDEYNLƏRİN ƏLBİR İŞİ

**Gülşən Kərimova,**
Yevlax rayonu, Qaraoğlan kənd tam orta məktəbinin psixoloqu
ghostleon73@gmail.com

*"Cəmiyyətimiz üçün fiziki cəhətdən sağlam, mənəviyyatca zəngin, möhkəm əqidəli gənclər yetişdirmək bizim ali məqsədimiz və müqəddəs borcumuzdur".*
***Heydər Əliyev***

**açar sözlər:** təhsil sistemi, məktəb psixoloqu, psixoloji xidmət, məsləhət;
**ключевые слова**: система образования, школьный психолог, психологическое обслуживание, консультация;
**key words:** school psychologist, scholarship system, psychological counseling, counseling.



Xalqımız ikinci dəfə müstəqillik qazandıqdan sonra iqtisadi və siyasi sahədə böyük uğurlar əldə edərək, dünya iqtisadiyyatına və mədəniyyətinə inteqrasiya olundu. Azərbaycan qloballaşmış dünyanın bir hissəsinə çevrildi. Belə bir cəmiyyəti inkişaf etdirə biləcək yeni nəslin yetişməsinə böyük ehtiyac yarandı.

Neçə illərdir ki, Azərbaycan müəllimləri yeni pedaqoji təfəkkür konsepsiyasına yiyələnir və bu sahədə maraqlı axtarışlar aparırlar. Müasir dərs interaktiv metod və araşdırmalara istinadən qurulur.

Bildiyimiz kimi, şagird ciddi problemdir. Ənənəvi təhsil sistemində şagirdə obyekt kimi baxılırdısa, müasir pedaqoji təfəkkürə görə o, subyektdir. Müasir təhsil konsepsiyası onu tədris fəaliyyətinin subyekti kimi dəyərləndirir. Müasir məktəb şagirdə öz imkanlarını hərtərəfli inkişaf etdirmək üçün şərait yaratmalıdır.

Azərbaycan psixologiya elminin inkişafında böyük rolu olan görkəmli alim, prof. Ə.Əlizadə müasir təhsilə və məktəbə qiymət verərək yazmışdır: "Müasir məktəb hiss olunmadan psixolojiləşir. Azərbaycan Respublikasında ümumi təhsilin milli Kurikulumu və konsepsiyasının formalaşdırılması psixoloji və pedaqoji fikrin nailiyyətidir" [3].

Mütərəqqi fikirli alimlər uşaqların cəmiyyətin gələcəyi olduğunu bildirmiş, onların tərbiyəsinə xüsusi diqqət yetirməyi məsləhət görmüşlər. XIII əsrdə yaşamış dahi Azərbaycan alimi N.Tusi "Əxlaqi-Nasiri" əsərində uşaqların təhsilə cəlb edilməsi prosesində onlarla münasibət qurmaq haqqında belə tövsiyə etmişdir: "Uşaqlara qarşı son dərəcə həssas olmaq, onların kiçik bir hərəkətini belə gözdən qaçırmamaq, pis vərdişlərin qarşısını vaxtında almaq, inkişaf baş verdikdə tərifləyib adətə çevirmək, əməksevərliyə, düzlüyə, biliklərə çağırmaq, başqalarına kömək vərdişləri aşılamaq, tənbəlliyə, yalana, böhtana, iftiraya, bədxahlıq etməyə, insanların qəm və kədərlərinə biganəlik, xudpəsəndlik, öz hayına qalma kimi hallara nifrət hissi oyatmaq uşaq tərbiyəsinin əsası hesab olunur"[7].

Elmi araşdırmalar göstərir ki, təhsil iqtisadi sistemə uyğun inkişaf edərək, uşaqlarda müstəqillik, düzgün qərar qəbul etmək bacarığı formalaşdırır. Bu isə vətəndaş cəmiyyətinin mövcudluğu zəminində mümkündür.

Fəal təlimin mahiyyətinə nəzər salsaq, görərik ki, onun prinsipləri, həyata keçirilməsinin əsas məqsədi məhz şagirdin istəklərinə uyğun olan bilik, bacarıq və vərdişlərin əldə edilməsinin əlverişli yollarını tapmaqdır. Təlimin şagirdyönümlü, şəxsiyyətyönümlü, inkişafyönümlü əməkdaşlıq kimi xüsusiyyətləri hər bir müəllimi müvafiq psixoloji mühit yaratmağa sövq edir. Təh-

sildə bu məqsədə nail olmaqda, şagird-müəllim münasibətlərini səmərəli qurmaqda məktəb psixoloqlarının rolu böyükdür.

Yaşadığımız dövrün problemləri insanlarda stressi artırır, onları səbrsiz edir və davranışlarında müəyyən problemlər yaradır. İlk baxışda rəvan və rahat görünən pedaqoji proses əslində çox mürəkkəb sosial münasibətlər (şagird-şagird, müəllim-şagird, müəllim-valideyn, müəllim-müəllim, valideyn-rəhbərlik, müəllim-rəhbərlik və s.) zəminində həyata keçirilir. Dərs prosesi isə bilavasitə müəllim-şagird münasibətləri əsasında reallaşır. Bu sosial münasibətlərin tənzimlənməsi psixoloji xidmətlə bağlıdır.

Psixoloji xidmətin əsas vəzifəsi şagirdlərin təlim-tərbiyədə qarşısına çıxan çətinlikləri, onların şəxsi və intellektual inkişafına təsir edə biləcək maneələri aradan qaldırmaqla yüksək ideallara malik vətəndaş yetişdirməkdə pedaqoji kollektivə kömək göstərməkdən ibarətdir.

Ümumtəhsil məktəblərində təlim-tərbiyənin keyfiyyətcə yaxşılaşdırılması, təhsil prosesinin diferensiallaşdırılması, fərdiləşdirilməsi, şagirdlərin meyil və maraqlarının, potensial imkanlarının müəyyənləşdirilməsi, istedadlı uşaqların aşkara çıxarılmasının uğurlu nəticəsi psixoloji xidmətin təşkilindən çox asılıdır.

Psixoloji xidmət, əsasən, aşağıdakı istiqamətlərdə qurulur:

- psixoloji maarifləndirmə;
- psixoloji profilaktika;
- psixoloji məsləhət;
- psixodiaqnostika;
- psixokorreksiya;
- psixo-pedaqoji konsilium.

Məktəb psixoloqunun fəaliyyəti aylıq iş planı ilə müəyyənləşdirilir. Məktəb psixoloqunun işi onun şagird, müəllim və valideynlərlə əməkdaşlığından çox asılıdır. Ona görə də, fikrimizcə, psixoloq psixoloji maarifləndirmə istiqamətindən daha çox, psixoloji bilikləri təbliğ etməlidir. Bu fikri əsas götürərək pedaqoji kollektiv və valideynlər arasında aşağıdakı məzmunda psixoloji mühazirələrin təşkilini məqsədəuyğun hesab edirəm:

- uşağa şəxsiyyət kimi yanaşmalı;
- uşağın məktəbə intellektual hazırlığında valideynin rolu;
- çətin uşaqlarla iş;
- valideyn-övlad və şagird-müəllim münasibətlərinin uşaq şəxsiyyətinə təsiri;
- Valideynlər, uşaqlarınızı tanıyırsınızmı?

Məktəb psixoloqunun yeni dərs ilində ilk işi I sinfə qəbul olunacaq uşaqlarla sosial-psixoloji müayinə aparmaqdır. Bu diaqnostik iş ibtidai sinif müəllimi U.Nurəddinovanın və valideynin iştirakı ilə həyata keçirilmiş, nəticələr şagirdlərin fərdi vərəqələrində qeyd olunmuşdur. Məqsəd I sinfə qəbul olunan uşaqların psixoloji imkanlarını müəyyənləşdirmək, gələcək fəaliyyəti bu istiqamətdə qurmaqdır.

Dərs cədvəlinin psixoloji cəhətdən təhlili ilə bağlı fikirlərimi direktor müavini ilə bölüşürəm:

- Uşaqların yaş xüsusiyyətlərini, psixoloji vəziyyətlərini, iş qabiliyyətlərini və mərkəzi sinir sisteminin fəaliyyət mexanizmini izah edirəm.
- Böyük gərginlik və hazırlıq tələb edən dərsləri həftənin günləri üzrə bölüşdürürəm və s..

Məktəb psixoloqunun işi yaradıcı prosesdir. Konkret obyekt bəlli olsa da, ona yanaşma tərzi müxtəlifdir. Müəllim və valideynlərin müraciətləri əsasında məsləhətlər verir, korreksiya işlərini həyata keçirirəm. Müraciətlərin çoxu təlimdə geriqalmalarla bağlı olur. III–IV siniflərdə oxuyan şagirdlərin valideynləri uşaqlarının geri qalmalarından şikayətlənirlər. Müşahidələr nəticəsində aşkarlanır ki, bu valideynlər vaxtında övladları ilə məşğul olmaqda çətinlik çəkmişlər. Bəzi hallarda onlar dərsliklərin dilinin çətinliyini, mövzuların ağırlığını bəhanə gətirirlər.

Təlimdə geri qalan, davamiyyəti pozan şagirdlərlə korreksiya işləri aparılır, valideyn və müəllimlərin köməyindən istifadə edilir.

Məşhur psixoloq S.D.Rubinşteyn qeyd edirdi ki, insan xarakteri o qədər rəngarəng, mürəkkəbdir ki, onun psixi xüsusiyyətlərini müəyyən etmək üçün özünün və məişətinin sistemli şəkildə tədqiqi vacibdir.Yeni dərs ili başlayan kimi ayrı-ayrı siniflərdə "Özünü tanıt!" guşəsi təşkil olunur. Şagirdlər burada öz qabiliyyətlərini nümayiş etdirirlər. Guşənin təqdimatı yüksək səviyyədə təşkil olunur. Təqdimat dərsdən sonra, məktəb rəhbərliyi və müəllimlərin iştirakı ilə həyata keçirilir.Tədbirə valideynlər də dəvət olunurlar. Onlarla uşaqlarının əl işləri barədə fərdi söhbətlər aparılır. Bu iş başa çatdıqdan sonra valideyn iclaslarında "Uşaqlarınızı tanıyırsınızmı?" mövzusunda söhbətlər aparıram. Xüsusi istedadı olan uşaqların valideynləri ilə fərdi söhbətlər təşkil edilir. Hər bir valideyn istəyir ki, uşağı təlimdə xüsusi istedadı ilə fərqlənsin, lakin necə? Bunun üçün valideyn uşağının nailiyyətlərini görməli, izləməli, ona potensial dəstək olmalıdır. Bu işdə hər bir valideynə psixoloqun və müəllimin köməyi lazımdır. Rayonlarda bu sahədə işlər görmək xüsusilə əhəmiyyətlidir. Müəllim kiçikyaşlı məktəblinin yaş xüsusiyyətlərini nəzərə alaraq onların müstəqilliyini, yaradıcılıq və təşəbbüskarlığını aşkara çıxarmaq üçün şərait yaradır. Uşaq məktəbə gələnədək ailədə müəyyən bacarıqlara yiyələnir. Ailə üzvlərinin uşağın ilk müəllimi kimi qəbul edilməsi təlim-tərbiyə prosesinin məzmunlu qurulması, normal münasibətlərin yaranması üçün vacib amildir.Valideyn və müəllimlərin ümumi səyləri uşaq haqqında məlumatların əldə olunmasına, onun davranışı, rəftarı, münasibətləri ilə bağlı fikir və mülahizələrin bölüşdürülməsi, inkişafı üçün əlverişli şəraitin yaradılmasına yönəldilməlidir. Onlar müəllimlərlə birlikdə uşağın inkişafının stimullaşdırılmasında fəal iştirak edirlər. Belə qarşılıqlı əməkdaşlıq uşağın əqli fəaliyyətinin zənginləşməsinə, onda özünə inamın yaranmasına, məktəbə daha rahat uyğunlaşmasına təsir göstərir. Valideynlər uşaqların təlim fəaliyyətində iştirak etdikləri təqdirdə onların nailiyyətləri yüksəlir. Belə əməkdaşlıq şəraitində valideynlər uşaqlarla keçirilən bütün kütləvi tədbirlərdə, problemlərin həllində iştiraka cəlb edilirlər. "Tərbiyə saatları"nda söhbətlərin, şəxsi nümunənin, kollektiv müzakirələrin rolu çox təsirli olur.

Məktəb psixoloqunun çoxşaxəli fəaliyyətində müəllim və valideynlərlə iş də mühüm yer tutur. Onların şəxsi nümunəsi, davranışı uşaq üçün çox önəmlidir. Məktəbimizin pedaqoji kollektivi səmimi qarşılıqlı münasibəti ilə şagird kollektivinə və kənd əhalisinə örnək ola bilər. Yaxşı və pis günlərdə bir-birinə kömək etmək, nöqsanların müzakirəsini keçirmək şagird kollektivinə nümunədir.

Valideynlərlə məsləhətləşmələr zamanı ailədə şəxsiyyətlərarası münasibətlərin düzgün qurulmasına aid tövsiyələrin verilməsi səmərəli nəticə verir. Şagirdlərin "Psixoloji xəritəsi"ni tərtib edərkən valideynlərin rəylərini də nəzərə alıram. Hazırda bir bəlaya çevrilən kompüter oyunlarından, telefonlarla məşğul olmaqdan uşaqları necə uzaqlaşdırmağın yollarını valideynlərlə müzakirə etmək çox vacibdir. Özünəxidmət əməyi, mütaliə, təbiət qoynunda kütləvi gəzintilər və s. bəzi zərərli vərdişlərin qarşısını alır.

Uşaq həyatında yaranan "boşluqlar" vaxtında maraqlı tədbirlərlə "doldurulmadıqda", səbəbləri islah olunmadıqda uşaqlarda zərərli vərdişlər daha da dərinləşir, onların qarşısını almaq çətinləşir.

Ümumiyyətlə, məktəb psixoloqunun işi çox çətin və şərəflidir. Hər bir insan təkrarolunmazdır. Elmin imkanlarından istifadə edərək onun sadəcə müəyyən cəhətlərini öyrənmək olar. Bunun üçün gərək psixoloq özünü tanıda və sevdirə bilsin ki, uşaqla ünsiyyət qurmaq asanlaşsın. Son 5–6 ilə qədər problem yarandıqda yalnız müəyyən test yoxlamalarına əsasən müdaxilə edib, müəyyən psixoloji işlər həyata keçirirdim. Artıq 5–6 ildir ki, valideynlər, müəllimlər və şagirdlər özləri də tez-tez mənimlə əlaqə saxlayırlar. Belə hallarda sevinirəm: deməli, mən öz peşəmin maraqlı cəhətlərini başqalarına da anlada bilmişəm.

Hazırda milli-mənəvi dəyərlərə malik, azərbaycançılıq ideyalarına sadiq vətəndaşlar yetişdirmək pedaqoq və psixoloqların əsas vəzifəsidir. Əlbəttə, təhsildə yüksək nəticələrə nail olmaqda, şagird-müəllim münasibətlərini daha səmərəli qurmaqda psixoloqların rolu böyükdür.

Məktəbdə psixoloji xidmətin keyfiyyətli olması psixoloqun savadı, şəxsi bacarıq və məsuliyyəti ilə yanaşı, məktəb rəhbərliyinin, pedaqoji kollektivin onun fəaliyyətinə yardım etməsindən də çox asılıdır.


**ədəbiyyat**

1. Cəbrayılov İ. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: "Mütərcim", 2013.
2. Əliyev R. Tərbiyə psixologiyası. Bakı: "Nurlan", 2006.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: "Ozan", 2004.
4. Əhmədov H. Pedaqogika. Bakı, "Təhsil NPM", 2013.
5. KərimovY.Ş. Uşağın məktəbə hazırlanmasının ümumpedaqoji məsələləri. ("Altı yaşlı uşaqların məktəbə hazırlanması"). Bakı: "Maarif", 1980.
6. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri (Monoqrafiya). Bakı:"Elm və təhsil", 2018.
7. Tusi N. Əxlaqi-Nasiri. Bakı: "Elm", 1989.


**СОТРУДНИЧЕСТВО РОДИТЕЛЕЙ И ШКОЛЬНЫХ ПСИХОЛОГОВ В НАЧАЛЬНОМ ОБРАЗОВАНИИ**


**резюме**

В статье рассказывается о сотрудничестве родителей и школьных психологов в начальном образовании. Отмечается, что в настоящее время задачей психологов и педагогов является воспитывать настоящих гражданнов своего отечества, верных идеологиям азербайджанства, имеющие национально-нравственные ценности. Разумеется, практические психологи должны сыграть большую роль в достижении высоких результатов в образовании и более эффективном развитии отношений между учеником и учителем в школах.

Так же отмечается, что качество психологической службы в школе зависит от знаний, личных способностей и обязанностей психолога, а также от поддержки школьного руководства и педагогического персонала.


**COOPERATION OF PARENTS AND SCHOOL PSYCHOLOGISTS IN PRIMARY EDUCATION**


**summary**

The article describes the cooperation of parents and school psychologists in primary education. It is noted that at present the task of psychologists and educators is to educate real citizens of their own country, loyal to the ideologies of Azerbaijanism, who have national moral values. Of course, practical psychologists should play a big role in achieving high results in education and more efficient development of relations between student and teacher in schools.

It is also noted that the quality of the psychological service in the school depends on the knowledge, personal skills and duties of the psychologist, as well as on the support of the school management and teaching staff.


# RƏVAYƏT

## ƏMİR TEYMUR VƏ ŞAİR KİRMANİ

Bir dəfə Əmir Teymur öz sarayında şair və filosofları yığıb, onlarla söhbət edirmiş. Məclisdə əmirin sevimli saray şairi Kirmani də varmış. Necə olursa, söhbət insan şəxsiyyətinin qiymətləndirilməsindən düşür. Əmir Teymur Kirmanidən soruşur:

– Əgər mən satılası olsaydım, sən məni neçəyə qiymətləndirərdin?

– 25 quruşa! – deyə şair cavab verir.

– Şair, sən bilirsən ki, mənim yalnız belimdəki qurşağım bu qiymətədir.

– Mən də elə onu nəzərdə tuturam… qurşaqdan qiymətli sizdə nə var ki? – deyə şair Kirmani cavab verir.

Sonralar "Teymurnamə" əsərini yazmış Kirmaninin bu zarafatına Teymur ürəkdən gülübmüş…

# ESTETİK TƏRBİYƏNİN TƏLİM PROSESİNƏ TƏSİRİ

**Müseyib İlyasov,**
pedaqogika üzrə elmlər doktoru, professor,
ADPU-nin kafedra müdiri
museyibilyas@gmail.com

*"Tərbiyəsiz təlim yoxdur, təlimsiz
də tərbiyə ola bilməz."*
***A.Disterveq***



**açar sözlər**: estetik mədəniyyət, estetik tərbiyə, təbiət, musiqi, özünütəhsil;
**ключевые слова:** эстетическая культура, эстетическое воспитание, природа, музыка, самообразование;
**key words:** aesthetic culture, aesthetic culture, nature, music, self-education.

Şəxsiyyətin kamil insan kimi formalaşmasını əks etdirən keyfiyyətlərdən biri də estetik mədəniyyətə malik olmasıdır."Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas istiqamətlərindən biri olan şəxsiyyətyönümlü təhsilin həyata keçirilməsi müasir dövrdə şagirdlərin estetik təhsili və tərbiyəsi sahəsində qarşıya mühüm vəzifələr qoyur" (1).

Təlim prosesi estetikanın aşılanmasında mühüm vasitədir. Estetik tərbiyə üzrə aparılan dərsdənkənar tərbiyəvi işlər də təlim prosesinin keyfiyyətinin yüksəldilməsinə təsirsiz qalmır. Estetik tərbiyənin aşılanması şagirdlərin təlim keyfiyyətinə müsbət təsir göstərməklə onların motivlərini gücləndirir, maraqlarını artırır.

Estetik tərbiyə şəxsiyyətin təbiətə, cəmiyyətə, ətraf gerçəkliyə münasibətini əks etdirir. Bu münasibət adi baxışlar sistemindən daha yüksək münasibətləri özündə əks etdirməklə insanın həyatsevərliyinə, ondan zövq almaq bacarıqlarına yiyələnməsinə istiqamət verir. Estetik tərbiyəyə malik olan insan təbiətdən, cəmiyyətdən zövq almağı bacarır, həyata nikbin münasibət bəsləyir. O,gözəllikləri qorumaq, qeyri-estetik gerçəkliyə qarşı mübarizlik ruhunda inkişaf edir. Bunlar ümumtəhsil məktəblərində şagirdlərin estetik tərbiyəsinə hərtərəfli yanaşmağı onun zəruri istiqamətlərindən biri kimi irəli sürür. Şagirdlərdə estetik tərbiyənin formalaşdırılması onların bir şəxsiyyət kimi inkişafında mühüm rol oynayır.

Estetik mədəniyyəti olmayan insanın müasir cəmiyyətin vətəndaşı, hərtərəfli şəxsiyyət kimi formalaşması, yetişməsi mümkün deyil. Buna görə də məktəbdə aparılan estetik tərbiyə şagirdlərdə bilavasitə bu mədəniyyətin formalaşması məqsədini yerinə yetirməlidir. Estetik mədəniyyət – estetik şüur, estetik hisslər, estetik fəaliyyətin birliyi inkişaf etmiş insan obrazını formalaşdırır.

Tərbiyənin digər tərkib hissələri kimi, estetik tərbiyə də məqsədyönlü və sistemli bir prosesdir. Onun müntəzəmliyi, məzmunluluğu, tərbiyənin digər tərkib hissələri ilə qarşılıqlı əlaqədə, inteqrativ formada həyata keçirilməsi diqqət mərkəzində olmalıdır. Bu işdə təlim prosesinin imkanlarından hərtərəfli istifadə edilməlidir. Məktəbdə tədris olunan oxu, ədəbiyyat, təbiətşünaslıq, coğrafiya, təsviri incəsənət, musiqi kimi fənlərin bütün imkanlarından istifadə etməklə, şagirdlərin estetik təfəkkürünün formalaşmasına diqqət göstərilməlidir.

Təəssüf doğuran hal odur ki, bir çox təhsil ocaqlarında, xüsusən, ibtidai siniflərdə musiqiyə, təsviri incəsənətə lazımınca fikir verilmir, onların tədrisinə laqeyd münasibət bəslənir, başqa dərslərlə əvəz olunur. Yaddan çıxarmaq olmaz ki, estetik tərbiyənin inkişafı şagirdlərin estetik duyumunu, hisslərini, zövqünü və qabiliyyətlərini artırmaqla təlim prosesinə müsbət təsirini göstərir. Belə ki, şagirdlər incəsənət əsərlərini qavradıqca, onların məzmun və mahiyyətini düzgün dərk etdikcə bu sahəyə daha dərindən maraq göstərir, əlavə məlumatlar almaq üçün digər mənbələrə də müraciət edirlər. Estetik tərbiyənin əhatə dairəsi genişləndikcə, şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşması prosesi, qiymətləndirmə bacarıqları da inkişaf edir. Gözəlliyə düzgün münasibət, duymaq, sevmək, eybəcərliklə barışmazlıq hissləri güclənir.

Müasir pedaqoji ədəbiyyatlarda məktəbdə aparılan estetik tərbiyənin qarşısında duran başlıca vəzifələr aşağıdakılardır:

1) şagirdlərdə həyata estetik münasibət formalaşdırmaq;

2) onlarda gözəlliklərin qavranılması, başa düşülməsi ilə yaranan estetik hissləri, bədii zövq, mühakimə və görüşləri bərqərar etmək;

3) məktəblilərdə şəxsi və ictimai həyatda gözəllikləri şüurlu surətdə tətbiq etmək bacarıq və vərdişlərini tərbiyələndirmək;

4) onlarda fərdi və kollektiv bədii yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək.

Bunları qısa və konkret şəkildə ifadə etsək, şagirdlərin estetik təlim-tərbiyəsinin məqsəd və vəzifələrinin, onların təşkilinin əsas istiqamətlərinin aşağıdakılardan ibarət olduğunu göstərə bilərik:

- şagirdlərdə təbiət, cəmiyyət və incəsənətdə olan gözəllikləri, ətraf aləmi hisslərlə qavramaq bacarıq və vərdişlərini tərbiyələndirmək;
- böyüməkdə olan nəsli yaradıcı şəxsiyyət kimi tərbiyə etmək, onlarda estetik zövq və qabiliyyətlər formalaşdırmaq.

Bu məqsəd, vəzifə və istiqamətlər məktəbdə şagirdlərin estetik tərbiyəsinin həyata keçirilməsini tələb edir. Burada fasiləsiz olaraq uşaqların estetik təhsili, tərbiyəsi, musiqi, təsviri incəsənət və s. fənlər üzrə sistemli işlərin aparılması mühüm əhəmiyyət kəsb edir. Bunların daha çox əməli şəkildə həyata keçirilməsi sahəsində işlərin aparılması olduqca faydalıdır. Ədəbi-bədii dərnəklərin təşkili, uşaqların yaradıcılıq nümunələri sərgisinin və bu sahədə müsabiqələrin keçirilməsi kimi tədbirlər mühüm əhəmiyyətə malikdir.

Son illər nəinki uşaqların, hətta böyüklərin də kitaba marağının azalması, kompüterin, internetin, mobil telefonların mütaliəni arxa plana keçirməsi onların oxu bacarığı və bədii mədəniyyətinin artırılması üçün əlavə tədbirlərin görülməsində ehtiyac yaradır. Belə tədbirlər şagirdlərin təhsil nailiyyətlərinə güclü təkan verir, onların estetik mədəniyyətinin formalaşmasına təsir göstərir. Elə buna görə də Təhsil Nazirliyinin son dövrlər şagirdlərin və müəllimlərin özünütəhsili sahəsində apardıqları işlər təqdirəlayiq hesab edilməlidir.

Estetik tərbiyə estetik tələbatla sıx bağlıdır. Məktəbdə şagirdlərin estetik tərbiyəsi sahəsində aparılan işlər onların tələbatlarının inkişafını sürətləndirir. Onları mütaliəyə, özfəaliyyətlə məşğul olmağa stimullaşdırır. Bunlar da şagirdlərin təlim sahəsindəki nailiyyətlərinə təsirsiz qalmır. Təcrübə göstərir ki, şagirdlərin estetik tərbiyəsi sahəsində aparılan işlər birbaşa təlim prosesinə müsbət təsir göstərməklə onların təlimə, yeni məlumatlar almağa maraq və motivlərini gücləndirir. Estetik tərbiyənin əsas vasitələri olan təbiətə, əməyə, oyuna, incəsənətin bu və ya digər növlərinə maraqlarını artırır.

Təbiət güclü estetik tərbiyə vasitəsidir. Bu, insanlarda təkcə zövq tərbiyə etmək, xoş hisslər oyatmaqla məhdudlaşmır. İlin bütün fəsillərində təşkil edilən ekskursiyalar, bu zaman şagirdlərlə aparılan söhbətlər, təbiət hadisələri, torpaq, su, hava, əsrarəngiz gözəlliklər və s. haqqında alınan məlumatlar onların biliklərinin zənginləşdirilməsində də mühüm rol oynayır. Müəllimin bu prosesdə məqsədyönlü fəaliyyəti şagirdlərin təbiətşünaslıq, biologiya, coğrafiya kimi fənlərə marağını artırmaqla yanaşı, onları yeni biliklər almaq üçün çalışmağa da həvəsləndirir.

Görkəmli pedaqoq V.A.Suxomlinski "Vətəndaşın doğulması" adlı əsərində yazırdı ki, yazda uşaqlarla təbiətə etdiyimiz ekskursiyalar zamanı onlar təbiət, bahar haqqında ilkin məlumatlar alırlar.

Rəsm əsəri haqqında alınan məlumatlar şagirdlərin elmi dünyagörüşünün formalaşmasına təsirsiz qalmır. Tərbiyəvi məqsədlə keçirilən tədbirlər təhsil və təlim vasitəsinə çevrilir.

Vaxtilə məşhur olan, sonradan unudulan, hazırda yenidən diqqət cəlb edən bədii əsərlərin müzakirəsi şagirdlərin təlim keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərir. Belə tədbirlərdə şagirdlər oxuduqları əsərin təhlilini aparırlar. Müzakirə, əsərin məzmunu, çıxarılan nəticələr, yazıçının ideyaları şagirdlərdə oxuduqlarının mahiyyətini qavramaq meylini formalaşdırır.

Estetik tərbiyə məşğələləri də bu sahədə qabiliyyətlərin inkişaf etdirilməsi ilə sıx bağlıdır. Bu istiqamətdə aparılan əsas işlərdən biri istedadlı şagirdlərin aşkarlanması, onların estetik qabiliyyətlərinin formalaşdırılması üzrə işin təşkilidir. Belə şagirdlərin müəyyən dərnəklərə, bölmələrə cəlb edilmələri onların qabiliyyətləri üzrə əsərlərlə maraqlanmalarına, mütaliə etmələrinə, yenilikləri izləmələrinə, özünütəhsil və özünütərbiyəsinə müsbət təsir göstərir. Bu baxımdan başlıca məsələlərdən biri şagirdlərin estetik tərbiyəsi ilə özünütəhsilinin vəhdətinə nail olunmasıdır.

Bütün bunlar onu göstərir ki, məktəbdə şagirdlərin estetik tərbiyəsi üzrə aparılan hər hansı tədbir eyni zamanda onların təhsilinə, həmin sahədə oxuma meyillərinin güclənməsinə, təlim prosesinə təsirsiz ötüşmür. Buna görə də məktəbdə şagirdlərin estetik tərbiyəsi üzrə aparılan işlərin təlim prosesi ilə əlaqələndirilməsinə diqqət artırılmalı, onun təhsil prosesinə yüksək təsiri yaddan çıxarılmamalıdır.

**ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
2. Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı: "Çaşıoğlu", 2012.
3. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: "Maarif", 1975.

**ВЛИЯНИЕ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ НА ПРОЦЕСС ОБУЧЕНИЯ**

**резюме**

Процесс обучения является важным инструментом и источником для расширения возможностей эстетического воспитания, а также других областей воспитания. Тем не менее, внеклассная работа по эстетическому воспитанию также является фактором повышения качества учебного процесса. Внедрение эстетического воспитания положительно влияет на качество обучения студентов и укрепляет их мотивацию к обучению и повышает их заинтересованность в обучении. В статье рассматривается взаимодействие между обучением и воспитанием, объясняется, как эстетическое образование влияет на процесс обучения.

**INFLUENCE OF AESTHETIC EDUCATION ON THE PROCESS OF TRAINING**

**summary**

The training process is an important tool and source for empowering aesthetic education, as well as other areas of upbringing. However, extra-curricular work on aesthetic education is also a factor in improving the quality of the learning process. The introduction of aesthetic education positively affects the quality of the students' learning and strengthens their learning motivation and increases their interest in the training. The article examines the interaction between teaching and learning and explains how aesthetic education affects the learning process.

# TƏRBİYƏDƏ ƏSAS ŞƏRT ÖVLAD –VALİDEYN MÜNASİBƏTLƏRİDİR.

**Məhəbbət Əliyeva,**
"Məktəbəqədər və ibtidai təhsil" jurnalının əməkdaşı
maxabbat.aliyeva@mail.ru



**açar sözlər:** ailə mühiti, uşaq, valideyn-övlad münasibətləri, tərbiyə metodları;
**ключевые слова**: семейная среда, ребенок, родительско-детские отношения, методы воспитания;
**key words:** family environment, child, parent-child relationships, upbringing methods.

*Övladlarınızla xoş rəftar edin, onlara gözəl tərbiyə verin.*
***Məhəmməd Peyğəmbər (s.ə.s.)***

Cəmiyyətin və dövlətin daim diqqət mərkəzində olan problemlərdən biri də gənc nəslin tərbiyəsidir. Məlumdur ki, şəxsiyyətin inkişafında ailə mühitinin təsiri danılmazdır. Uşaqların dünyagörüşünün, emosiya və hisslərinin inkişafında valideynlər, xüsusilə ana mühüm rol oynayır. Uşağın ətraf aləmlə tanışlığı ana ilə münasibətindən başlayır. Sonradan bu münasibətlərə ailənin digər üzvləri də qoşulurlar. Uşağın xarakterinin möhkəmlənməsində, həyata baxışında ailənin, xüsusilə ananın münasibəti mühüm əhəmiyyət kəsb edir. Psixoloqlar belə qənatə gəlmişlər ki, ananın öz körpəsini qucağına götürərkən onu hansı tərəfdə tutması ana ilə körpə arasında münasibətlərin yaranmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Onlar bildirmişlər ki, uşağı sol tərəfdə tutmaq ana-övlad bağlılığının yaranmasında daha güclü effekt yaradır. Bu instinktiv hərəkətin xüsusiliyi ondadur ki, körpə ananın ürək döyüntülərini eşidir, bu ritm onu sakitləşdirir. Əsası düzgün qoyulmuş münasibətlər uşağın gələcək həyatına da öz təsirini göstərir. Belə olan halda köpələr, adətən, başqa uşaqlara nisbətən sakit, şən, sağlam olur, tez inkişaf edirlər. Əksinə, yenicə doğulmuş körpəni qucağının sağ tərəfə götürərkən instinkt, ananın uşağa ötürdüyü impuls, doğmalıq hissi zəif olur. Uşaq böyüdükcə onun həyatında, psixi inkişafında atanın da rolu əhəmiyyətli dərəcədə güclənir. Beləliklə, uşağın tərbiyəsi tədricən ailə münasibətləri çərçivəsinə daxil olur.

Uşaqda milli xüsusiyyətlərin formalaşması prosesi də başlayır ki, bunların da daşıyıcıları ilk ötürücüləri valideynlərdir. Bu xüsusiyyətlər uşağa tədricən aşılanmalı, uşaq onları məcburi deyil, könüllü olaraq öyrənməlidir. Uşaq böyüdükcə onun dünyagörüşünün formalaşmasına ətraf mühit, cəmiyyət də öz təsirini göstərir. Bu zaman ailə diqqət və nəzarəti daha da gücləndirməlidir. Uşaq ailədə öyrəndiklərini cəmiyyətdə gördükləri ilə müqayisə etməli, müsbət xüsusiyyətləri inkişaf etdirməyə səy göstərməlidir.

Uşağın tərbiyəsində valideynlərin münasibəti gizlənir. Müəllim o münasibəti görməli, lazım gəlsə, uşağın taleyi ilə əlaqədar problemlərin həllinə müdaxilə etməlidir. Unutmamalıdır ki, əsl vətəndaşın tərbiyə olunması çox mühüm dövlət əhəmiyyətli işdir.

Tərbiyədə əsas şərt ata-ana münasibəti olduğundan onların şəxsi nümunəsi mühüm rol oynayır. Ata-ana məhəbbəti tərbiyədə əsas amildir. İnam, etibar, sədaqət də belə yaranır.

Atalarımız demişlər: "Ağacın meyvəsini istəyirsənsə, gərək çiçəyini qoruyasan". Övlad tərbiyəsi də bu anlamdadır. Uşağın tərbiyəsində həm şəxsi, həm də ictimai mənafe gizlənir.

Bütün uşaqlar istəyirlər ki, həmişə valideynlərin, ətrafdakıların diqqət mərkəzində olsunlar. Onlarda bu xüsusiyyət, əsasən, ailədə formalaşır.

İlk qanunlar, qaydalar ailədə formalaşır. Bunlara əməl etməyənlər cəmiyyətdə normalara, qanunlara əməl etməkdə də çətinlik çəkirlər. Ailə qayda-qanunlarının icrasına nəzarət atanın və-

zifəsidir. Uşağın tərbiyəsində atanın rolu böyükdür. O, necə tərbiyə alırsa, sonralar onu valideynlərinə, cəmiyyətə qaytarır. Ata o vaxt tərbiyədə yüksək nəticələrə nail olar ki, özü də tərbiyəli, yüksək əxlaqlı insan olsun. Dünyada bir şeyin hakimiyyətini qəbul etmək olar – ata sevgisinin. Ata övladı yaxşı tərbiyə etdiyinə görə hörmət-izzət sahibi olur. Məhəmməd Peyğəmbərin (s.ə.s.) belə bir kəlamı var: "Atanın sevinci Allahın sevincidir. Atanın narazılığı Allahın narazılığıdır".

Belə bir deyim var: "Valideyn övladı ilə 5 yaşına qədər şah, 15 yaşına qədər nökər, 15 yaşından sonra dost kimi davranmalıdır". Bu deyim uşağın tərbiyəsində olan əsas mərhələləri əhatə edir.

Oğlan uşaqlarında atasına oxşamaq, hər bir işdə onu təqlid etmək istəyi yaranır.

Uşağı nə qədər əzizləsən, Allaha bir o qədər xoş gedər, lakin onun həddən ziyadə əzizləmək o qədər də yaxşı deyil. Atalar bu barədə demişlər: "Uşağım əziz, tərbiyəsi ondan da əzizdir". Bəzən uşağı həddən artıq əzizləmək, tərifləmək onun tərbiyəsinə mənfi təsir göstərir.

Uşaqların nəsihətdən çox, yaxşı nümunəyə ehtiyacı var. Bir çox psixoloqlar uşaqların demək olar ki, bütün davranış qaydalarını təqlid və müşahidə yolu ilə mənimsədiklərini söyləyirlər. Tərbiyədə nümunə əsas şərtdir, amma bəzən o, yaxşı tərbiyə vasitəsi olmaya da bilər. Bəzi uşaqlar valideynlərinin onlara başqalarını nümunə gətirmələrini qəbul eləmirlər. Ona görə də ailədə uşağa kimi isə nümunə göstərəndə bir qədər ehtiyatlı olmaq lazımdır. Nümunə göstərmək, məsləhət vermək asandır, lakin bəzən elə olur ki, qənaətə gəlmək üçün uşaq həmin məsləhətləri əsas tutmur. Belə olduqda, tərbiyənin təməli pozulur.

Valideynlər ömürlərini övladlarına həsr edirlər. Ömür belə başlayır, davam edir və tamamlanır. Bu proses silsilə ilə gedir. Bu, ailənin təməl prinsipi və qaydasıdır: Ömür verilir, paylanır və ötürülür.

İnsanın fəaliyyəti, ana bətninə düşən andan taleyi ilə bağlıdır. Bunun belə olduğunu Məhəmməd Peyğəmbər (s.ə.s.) demişdir: "Xoşbəxt insan ana bətnində xoşbəxt, bədbəxt isə ana bətnində bədbəxtdir".

Övlad-valideyn münaqişələri bəzən çox adi bir məsələdən başlanır. Bu zaman valideynlərin övladına anlayışlı olması zəruridir. Deməli, valideyn övladına anlayış göstərməyə borcludur. Övladın valideynlərinə münasibəti ata-ananın həm mükafatı, həm də cəzasıdır. Ata, ana münaqişəni dərinləşdirməmək, böyütməmək üçün təmkinli olmalıdırlar. Ailənin təməlini, möhkəmliyini qorumaq üçün bu, vacib xüsusiyyətdir. Övladın ata-anaya hörmət etməsi ona görə vacibdir ki, onlar övladla Yaradan arasında bir vasitəçidirlər. "Qurani-Kərim"də buyurulur: "Allahın qəti hökmü bu olmuşdur ki, ondan başqasına pərəstiş etməyəsiniz. Hər vaxt valideynlərindən biri və ya hər ikisi sənin yanında qocalıq yaşına çatsalar, onlara ən kiçik təhqiri belə, rəva görmə, onlara ədəbli və gözəl sözlər de, təvazö, nəvaziş qanadlarını onların üstünə sal və de: İlahi, necə ki, onlar məni körpə yaşlarımda tərbiyə etmişlər, onlara öz lütfünü şamil et" (İsra surəsi, ayə 23-24).

Böyük islam mütəfəkkirləri valideynlərin əmr və göstərişlərinə tabe olmağı, onlara yaxşılıq, ehtiram, hörmət göstəməyi vacib əməllərin ən mühümlərindən saymış, onların hüquqlarında nöqsanlı hallara yol verilməsini Allaha şərik qoşma günahından daha böyük günah saymışlar.

Məhəmməd peyğəmbər (s.ə.s.) buyurmuşdur: "Ata-anasının üzünə məxsusi məhəbbətlə baxan saleh övladın hər bir baxışına Allah-təala bir qəbul olunmuş Həcc mərhəmət edər". Peyğəmbərin əsabələri bu böyük müjdəni eşidəndə Həzrətdən soruşdular: "Ya Rəsul Allah, əgər bir şəxs gün ərzində valideynin üzünə belə baxsa, yenə də bu qədər savab və mükafat yazılır?". Həzrət buyurur ki, bəli, Allah-təalanın şəni bundan çoxdur, yüksəkdir. Heç vaxt bu savabı azaltmaz.

İmam Sadiqdən (ə) "Ən yaxşı əməl nədir?" deyə soruşduqda, o, buyurub: "Üç şeydir: Birincisi, namazı fəzilətli vaxtında qılmaq, ikincisi, ata-anaya yaxşılıq edib, onlarla xoşrəftar olmaq, üçüncüsü, Allahın razılığı üçün onun yolunda düşmənlərlə cihad etmək".

Valideynlərə yaxşılıq etmək islamın bəyənilmiş gözəl əməllərindən sayılır. Hədislərdən məlum olur ki, valideynə yaxşılığın savabı Allah evinin ziyarətindən, Quran və din yolunda edilən cihaddan da üstündür.

İslama qədər qız uşağının dünyaya gəlişi qəmginlik, rəzillik əlaməti sayılırdı. Yalnız islam dini qadınlara qarşı olan həmin qeyri-müəyyənliyə, mənfi münasibətə çalın-çarpaz xətt çəkdi. Əziz Peyğəmbərimiz Fatimə haqqında belə söyləmişdir: "Fatimə mənim bədənimin bir parçasıdır, gözümün işığıdır, qəlbimin meyvəsidir. O şey ki onu qəzəbləndirir, məni qəzəbləndirmişdir. O şey ki, onu sevindirir, məni sevindirmişdir. O, Əhli-Beytdə mənə qovuşacaq bir şəxsdir".

Əslində Həzrəti-Fatimə burada kamil qadın obrazı kimi xarakterizə olunur. İslam qadına öz mənliyini, şəxsiyyətini, varlığını, şərafətini, ləyaqətini göstərir və həmin zirvədə ona münasibət bəsləyir.

Məhəmməd Peyğəmbər (s.ə.s.) buyurmuşdur ki, ananın xidmətində durun, çünki behişt anaların ayaqları altındadır.

F.İ.Dostoyevski demişdir: "Yaxşı uşaqlıq görməyən insan gələcəkdə pis vətəndaş olacaqdır." ABŞ-ın psixologiya alimləri Səddam Hüseyn barədə bu qənaətə gəlmişlər ki, onun amansız olmasının bir səbəbi də uşaqlığının üzüntü, sıxıntı içərisində keçməsidir. Bu amil Səddamın xarakterinin dəyişməsinə öz təsirini göstərmişdir. Onların qənaətinə görə, Səddam Hüseynin həddən artıq özünə vurğun olmasının səbəbi də elə buradan yaranmışdı. Səddam Hüseynin anadan olma tarixi iki ölümlə bir vaxta düşüb. Yoxsul kəndli ailəsindən olan Səddam hələ anasının bətnində olarkən atası vəfat edib. Atasından dərhal sonra isə böyük qardaşı dünyasını dəyişib. Səddamın anası Subxa bu ağır faciyəyə qarşı çox dözümsüz olub və hətta intihar etmək istəyib. Səddamın dünyaya gəlməsini məcburiyyətdən qəbul edərək, uşaq dünya gələndən sonra ona qarşı kəskin nifrəti olub. Səddam 3 yaşına qədər dayısının yanında qalıb, anası yenidən ailə həyatı qurub. Atalığı, həm də əmisi İbrahim Əlihəsənin ona münasibəti yaxşı olmayıb. O, teztez içir, sərxoşluq edir və Səddamı döyürdü. Elə bu hadisələr, belə həyat tərzi də onun xarakterinə, gələcəyinə öz təsirini göstərməyə bilməzdi. Səddam Hüseyn heç bir səmimi məsləhəti qəbul etməyib, tənqidə münasibəti pis olub və ətrafındakılara qarşı həmişə qəddar, radikal münasibət bəsləyib.

İmam Zeynül-Abidin (ə) oğlu İmam Bagirə (ə) vəsiyyətində buyurmuşdur: "Ey oğul! Beş cür insanlarla yoldaşlıq etmə, onlarla danışma və onlarla yol getmə:

1.Yalançılarla yoldaşlıq etmə, çünki onlar ilğım kimidir – yaxını uzaq, uzağı isə yaxın kimi göstərirlər.

2. Fasiq (günahkar) şəxslərlə yoldaşlıq etmə, çünki səni bir tikə çörəyə, yaxud da ondan da az qiymətə satarlar.

3. Paxıllarla yoldaş olma, çünki ehtiyacın olanda səni maldan məhrum edərlər.

4. Axmaq adamlarla yoldaş olma, çünki onlar sənə xeyir vermək istəyər, ancaq nadanlıq ucbatından zərər yetirərlər.

5. Qohum-əqrəbası ilə əlaqələrini kəsən bir şəxslə yoldaşlıq etmə, çünki mən Allahın kitabında onu üç yerdə lənətlənmiş gördüm".

Uşaqlar xeyir, şər, yoldaşlıq, dostluq, qayğıkeşlik, ədalət, ədalətsizlik, sülh, müharibə, hüquq, qənaət, sadəlik, təvazökarlıq, düzlük, doğruçuluq haqqında təsəvvür və anlayışlara məhz məktəbəqədər müəssisələrdə, məktəblərdə yiyələnirlər. Uşaqlarda əxlaqi və mənəvi keyfiyyətlərin inkişafı və formalaşdırılması həm ailənin, həm də cəmiyyətin qarşısında duran ən mühüm vəzifədir.

**ədəbiyyat**

1. Həkimov M. Xalqımızın deyimləri və duyumları. Bakı: "Maarif", 1988.
2. Peyğəmbərdən nəql olan hədislər. Bakı:"Əhli-beyt" internet qəzeti
3. Məmmədli İ. Nur. Bakı: "BBS Konsaltinq Xidmətləri Ltd", 2008.

**ОСНОВНОЕ УСЛОВИЕ ВОСПИТАНИЯ –ЭТО ОТНОШЕНИЕ РОДИТЕЛЕЙ**

**резюме**

В статье описывается влияние семейной среды на идентичность и ее преимущества. Вот роль родителей в воспитании и воспитании ребенка. В статье также говорится о неспособности окружающей среды влиять на детей ребенка. Со слов Пророка Мухаммеда и имамов приведены примеры взаимоотношений между родителями и детьми и правильного воспитания ребенка.

**THE MAIN CONDITION OF UPBRINGING THE ATTITUDE OF PARENTS**

**summary**

The article describes the influence of the family environment on identity and its advantages. Here is the role of parents in the upbringing and education of the child. The article also speaks of the inability of the environment to influence the children of a child. According to the Prophet Mohammed and the imams, examples are given of the relationship between parents and children and the proper upbringing of the child.

# Məhəmməd Peyğəmbər (s.ə.s.) və İmam Əlidən (ə) tərbiyəvi hədislər

İnsan, təvazö sahiblərindən başqa, hər bir nemət sahibinə həsəd aparar. Özünü aşağı tutmaq peyğəmbərlərin xüsusiyyətlərindəndir. Təkəbbür isə kafirlər və firon xasiyyətli adamların xüsusiyyətlərindəndir. ***Məhəmməd Peyğəmbər (s.ə.s.)***

***

Heç nə həbs olunmağa dil qədər layiq deyil. ***Məhəmməd Peyğəmbər (s.ə.s.)***

***

Bəndə özü üçün sevdiyi şeyi qardaşı üçün də sevməyincə, zarafat və ciddiliyində Allahdan qorxmayınca, imanın kamilliyinə çatmaz. ***Məhəmməd Peyğəmbər (s.ə.s.)***

***

Qəlb nə ilə dolsa, dodaqlardan da o tökülər. ***İmam Əli (ə)***

***

İnsanın ruhu güclənəndə ağıl və düşüncəyə, zəifləyəndə isə bəxtə arxalanır. ***İmam Əli (ə)***

***

Söz dərman kimidir – azı faydalı, çoxu isə zərərlidir. ***İmam Əli (ə)***

***

Səxavət insanı əleyhdarlarına da sevdirər, xəsislik isə hətta övladlarında da ona qarşı nifrət oyadar. ***İmam Əli (ə)***

***

Yaxşı kürəkən – qazanılmış bir oğul, pis kürəkən isə itirilmiş bir qızdr. ***İmam Əli (ə)***

***

İmanlı insanın ağzının qıfılı olar. ***İmam Əli (ə)***

***

Dolanışığını mərdliklə qazanmağa çalış, nəfsini alçaqlıqlardan qoru ki, fəqir olsan belə, şərəflə yaşayasan. ***İmam Əli (ə)***

***

Dürüstlük bahalı maldır – ucuz insanlarda tapılmaz. ***İmam Əli (ə)***

# MƏKTƏBƏQƏDƏR TƏHSİLƏ DƏYƏRLİ TÖHFƏ




Sumqayıt Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının müdiri, dosent, pedaqogika üzrə fəlsəfə doktoru Aytəkin Məmmədova və həmin kafedranın dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Sevinc Kərimovanın həmmüəllif olduqları "Məktəbəqədər yaşlı uşaqların oyunları" adlı dərs vəsaiti SDU-nun redaksiyası tərəfindən nəşrə hazırlanmışdır. (Bakı: "Avropa", 2018, 202 səh.).

Dərs vəsaitinin elmi redaktoru pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov, rəyçiləri pedaqoji elmlər doktoru, professor Ləzifə Qasımova və pedaqogika üzrə fəlsəfə doktoru, dosent Xurşud Məmmədovdur.

Bu dəyərli vəsait, əsasən, məktəbəqədər təhsilin bakalavr və magistr pillələrində təhsil alanlar üçün nəzərdə tutulsa da, ondan məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimləri, ümumtəhsil məktəblərinin məktəbəhazırlıq qruplarının müəllimləri də dəyərli mənbə kimi istifadə edə bilərlər.

Vəsaitdə pedaqoji, psixoloji və metodik problemlər geniş əhatə olunmuşdur. Əsər girişdən və üç fəsildən ibarətdir. Birinci fəsil "Məktəbəqədər yaşlı uşaqların oyunlarının məzmunu, məqsədi, vəzifələri və təşkili metodları", ikinci fəsil "Müxtəlif yaş qruplarında oyunların təşkilinə verilən tələblər", üçüncü fəsil "Uşaq oyunlarının növləri" adlanır. Hər fəslin sonunda təhsilalanlar üçün suallar, tapşırıqlar və ədəbiyyat göstəricisi verilmişdir.

Vəsaitdə oyunun uşaq həyatında əhəmiyyəti kifayət qədər əsaslandırılmışdır. Əsərin girişində oxuyuruq: "Oyunlar uşaqların həm intellektual, həm də fiziki inkişafı üçün çox vacibdir, çünki onların psixikasının inkişafında oyunlara ehtiyac vardır. Oyun uşaqların aparıcı, sosial tələbatıdır. Uşaqlar oynamadıqda bu, onların əhvali-ruhiyyəsinə təsir göstərir, onlar yorğun, əzgin, qeyri-fəal görünürlər. Az hərəkətdə olduqları üçün zəif inkişaf edir, tez-tez xəstələnir, aqressiv olurlar".

Vəsaitdə oyunların uşaqların əqli, psixoloji və mənəvi inkişafına qüvvətli təsir göstədiyi qeyd olunur. Oyun prosesində uşaqların nitqi inkişaf edir, onlarda kollektivçilik, yoldaşlıq, dostluq, qarşılıqlı yardım kimi müsbət əxlaqi keyfiyyətlər formalaşır. A.S.Makarenkonun təbirincə desək, "Yaşlı adamın həyatında iş fəaliyyəti, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın həyatında oyun o qədər vacib və əhəmiyyətlidir".

Vəsait həm elmi-nəzəri, həm də praktik əhəmiyyət daşıyır. Belə ki, vəsaitdə uşaqların yaş səviyyələrinə uyğun oyunların geniş təsnifatı ilə yanaşı, yaradıcı və qaydalı, stolüstü, süjetli, rollu, mütəhərrik, interaktiv oyunlar haqqında, onların səciyyəvi xüsusiyyətləri, həyata keçirilmə metodikası barəsində də dəyərli məlumatlar verilir. Vəsaitdə oyunun keçirilmə yeri, vaxtı, ssenarisi, təşkili qaydaları, mərhələləri, ona rəhbərlik göstərilmişdir.Oyunda tərbiyəçilərin mövqeyi ətraflı şərh olunmuşdur.

Vəsaitdə verilən uşaq oyunları, onların nəzəri, praktik əhəmiyyəti məktəbəqədər təhsilin kurikulumuna, dövlət standartlarına, tərbiyə və təhsil proqramına əsaslandırılmış, elmi-metodiki, pedaqoji ədəbiyyata istinad edilmişdir.

Vəsaiti pedaqoji təmayüllü ali və orta-ixtisas məktəblərinin tələbələri, məktəbəqədər təhsil üzrə tədqiqatçılar üçün əhəmiyyətli hesab edirik.

**Rüfət Hüseynzadə,**
pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim